# SƏMAVİ HƏDİYYƏLƏR

9-cu kitab



بسم الله الرحمن الرحيم

Bismillahir Rəhmanir Rəhim

# Səmavi hədiyyələr

## İslam təlim-tərbiyəsi

### Doqquzuncu kitab

مَنْ عَملَ صَالحًا منْ ذَكَر أَوْ أُنْثَىٰ وَهُوَ مُؤْمنٌ
فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

**“Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını verəcəyik”.**

(Qurani-Kərim, Nəhl surəsi, 97-ci ayə)

Uca Yaradanımız tərəfindən həzrət Muhəmməd Peyğəmbərə (s) göndərilmiş İslam dini özündə etiqadlar, əxlaq, şəriət hökmləri və qayda-qanunları ehtiva edir. İnsan gözəl həyat yaşayıb Allaha yaxınlaşmaq üçün məhz bunlara ehtiyac duyur. İslam təlimlərinin əsas mənbəyi Quran, həzrət Peyğəmbərin (s) və onun həqiqi davamçıları sayılan məsum İmamların (ə) sünnəsi və sağlam ağıla əsaslanır. Bunu nəzərə alaraq, İslam maarifini öyrənmək hər bir müsəlman üçün zəruridir.

Əlinizdə olan bu kitabın hazırlanmasında başlıca məqsəd yeniyetmələrin müqəddəs İslam təlimləri əsasında ağıl, iman, elm, əməl və əxlaq baxımından düzgün şəkildə yetişdirilməsidir. Belə ki, bunun sayəsində onlar öz mövqelərini həm özlərinə, həm Allaha, həm bəndələrə, həm də yaradılışa qarşı düzgün şəkildə anlayıb cəmiyyətdə fərdi, o cümlədən ictimai mövqe nümayiş etdirməyi bacarsınlar.

Uca Allahdan dini vəzifələrin yerinə yetirilməsində hamıya uğurlar arzu edirəm.

**Professor Ərafi**

**Bismillahir Rəhmanir Rəhim**

**Bağışlayan və mehriban Allahın adı ilə.**
**O, insana Quranı, öyrətdi. Həqiqət axtarmaq nemətini və**
**Özünü tanımaq nemətini bəxş etdi.**

Rəbbimiz bizə İslam təlim-tərbiyəsi sahəsində uşaqlara, yeniyetmələrə və xidmət etmək şərəfini nəsib etdi.

MSEN (MUSLİM SCHOOLS EDUCATİON NETWORK) böyük alimlərin rəhbərliyi altında insanlara dini-əxlaqi dəyərləri təqdim edən bir qurumdur. Qurumun əsas fəaliyyəti gələcəyin qurucuları olan bu günkü nəslin əxlaqi və mənəvi baxımından yetişdirilməsində müəllim, valideyn və şagirdlərlə həmkarlıq etməkdən ibarətdir. Aşağıda bir sıra məqsədlərimizi təqdim edirik:

* İslam təlim-tərbiyəsinin tədrisi üçün aydın və gözəl bir hədəf bəyan etmək;
* Mənbələr, ixtisaslar və təcrübələrin mübadiləsi üçün geniş bir ədəbiyyat təqdim etmək;
* Əxlaqi və mənəvi bir dəyişikliyin formalaşmasında əhatəli bir ortamın yüksəldilməsi;
* İslam təlim-tərbiyəsinin kursu, məzmunu, metodları və dəyərləndirilməsi üçün çalışmaq.

Bu qurumun əsas məqsədi mənəvi dəyərlərin öyrənilməsində yüksək dizaynla hazırlanmış kamil bir məcmuəni təqdim etməkdir. Allahın mərhəməti və yüksək səviyyəli kadrların həmkarlığı ilə bu məqsədə doğru önəmli bir addım atılmışdır.

Bu qəbildən olan kitablar əsasən mötəbər İslami mənbələrə əsaslanmaqla yanaşı maraqlı və cəlbedici metodlardan istifadə edərək etiqad prinsipləri, əxlaq və dini hökmləri ehtiva edir. Bu məcmuə əsasən İslamın əsas meyarlarına – ağıl, mənəviyyat, mötədillik və sülhə əsaslanaraq tərtib edilmişdir.

Yeri gəlmişkən, bu böyük işdə bizimlə əməkdaşlıq etmiş bütün həmkarlara, xüsusilə də professor Ərafi, doktor Məhəmməd Məhəmmədian, doktor İbrahimi və cənab Fəyyaziyə təşəkkür etməyi özümüzə borc bilirik.

Habelə MSEN-dəki həmkarlarımızın akademik dəstəyinə, xüsusilə doktor Əzhər Həsənrza, Bilal Rizəvi, Nəzirə Musa, Səfinə Səadət, Nazənin Davdani, Şahin Heydər, Sima Cəmaləddin, Laden Razeqi və Şəhrbanu Cəfəriyə bu məcmuənin öz məqsədinə çatmasında misilsiz zəhmətlərinə görə təşəkkür edirik.

**İsa Cahangir**

**MSEN**

# Mündəricat

**Birinci mərhələ:** Düşüncə və qəlbdə hazırlıq

1. Yaşam kitabı 10
2. Böyük seçim 25
3. Hansı məqsəd? 34
4. Ən üstün hədəf 44
5. Səni necə səsləyim? 54
6. Məhbubun şükrü və zikri 66
7. İman pənahında 75
8. Əmin-amanlıq vadisində 84




**İkinci mərhələ:** Səfər niyyəti

9. Yaxşı yaşamaq niyyəti 98
10. İradədə qətiyyətli olmaq 109
11. Oyaqlar sırasında 118




**Üçüncü mərhələ:** Yolda addımlamaq

12. Yol getmək qaydası 131
13. Məhbubun hüzurunda 148
14. Birlik və yoldaşlıq 163
15. Dostluğun qaydası 172
16. İş – insanın cövhəri 179




**Kitabda verilmiş ərəbcə sözlərin tərcüməsi 192**
**İstifadə edilmiş ədəbiyyat siyahısı 195**

## Salam, hörmətli şagirdlər, əziz dostlar!

Bizim sərmayəmiz sizin yaradıcı düşüncələrinizdir. Biz belə bir sərmayənin olmasına inanır və bu inancımızın nəticəsi olaraq bu kitab çərçivəsində sizin də iştirak etməyinizi arzulayırıq. Bildiyiniz kimi, uca olan Allah Qurani-kərimdə Onun yolunda çalışanları Öz hidayət yollarına qovuşduracağını vəd verərək buyurmuşdur:

وَ الَّذينَ جاهَدوا فينا لَنَهدِيَنَّهُم سُبُلَنا

*"Bizim uğrumuzda çalışanları Öz yollarımıza qovuşduracağıq".*
*(Ənkəbut surəsi, 69-cu ayə)*

Bəli, Qurani-kərim hidayət kitabıdır. İnsanı xoşbəxt həyata aparan hidayət kitabı. Buna görə də belə bir həyatı tanımaq üçün ona doğru gedib ayələri barədə düşünmək lazımdır. Eləcə də yaxşı olar ki, məsumların yaşam tərzini öyrənib onların getdiyi yolla getməyə çalışaq.

Siz əvvəlki kitablarda Quran oxumağı və Allahın bu kitabının bir çox ayələrinin mənasını oxumusunuz. Din təlimləri dərsində isə dinin əsasları, İslam əxlaqı və bir sıra şəriət hökmləri ilə tanış olmusunuz. Orta səviyyəyə gəlib çatdığınız indiki mərhələdə isə bu iki dərsi birləşdirərək "Quran əsasında həyat yolu"-nu öyrənəcəksiniz. Tədricən bu səmavi kitabdan bəzi ayələri oxuyub onun hidayətləndirici təlimlərindən faydalanacaqsınız. Belə deyə bilərik ki, əvvəlki kitablarda keçdiyiniz Quran və din təlimləri bu kitabda birləşəcək. Beləliklə də Qurani-kərim sizin üçün dini biliklərə doğru yol göstərən bir çıraq rolunu oynayacaq. Ümid edirik ki, bu çıraq həmişə yolunuzun üzərində olacaq!

İndi isə bu kitabla bağlı bəzi qeydləri diqqətinizə çatdırmaq istəyirik:

**1.** Kitabın bəzi hissələri sinifdə sizin fəal iştirakınızla təkmilləşəcək. Bunlar aşağıdakı hissələrdən ibarətdir:

- Bəzi ayələri tərcümə etmək. Bununla siz hiss edəcəksiniz ki, bir qədər səy göstərməklə ayələri tərcümə edə bilib onun mənası barədə düşünmək olar.
- Bəzi dərslərdə verilmiş ayə və ya hədislər barəsində düşünmək sizin öhdənizədir.
- Bəzi dərslərdə nəzərdə tutulmuş nəticələr sizin ya fərdi, ya da qrup halında fəaliyyətiniz nəticəsində əldə ediləcək.
- Hər dərsin sonunda verilmiş "Düşünmə və araşdırma" bölməsi məhz sizin düşünmə, araşdırma və mütaliəniz nəticəsində yerinə yetiriləcək.

**2.** Hər dərs başlamazdan əvvəl müqəddimə verilmişdir. Həmin müqəddimədə keçiriləcək dərsin əsas mövzusu və məqsədi əhatə edilmişdir. Eləcə də həmin dərslə əvvəlki dərsin bağlılığı qeyd edilmişdir.

**3.** Bir çox dərsin sonunda verilmiş "Təklif" bölməsində yerinə yetirməyiniz tapşırılmış araşdırma, yaxud ədəbi və ya bədii fəaliyyəti nə qədər əhəmiyyət kəsb etsə də, onların yerinə yetirilməsi könüllüdür. Təbii ki, bu tapşırığı yerinə yetirən şagirdlər qiymətləndirmə zamanı nəzərə alınacaq.

**4.** Gözəl olan Allah gözəlliklərin yaradıcısı, incəsənət isə bu gözəllikləri ifadə edəndir. Siz yeniyetmələrə dini həyat tərzini öyrətmək istəyən bu kitab incəsənətə biganə qala bilməz. Bu baxımdan çalışmışıq ki, Qurani-kərimdən ilhamlanaraq kitabın elmi ehtivasını ədəbi və poeziya nümunələri ilə sizə təqdim edək. Ümid edirik ki, gələcəkdə bu kitab sizin də təkliflərinizlə daha faydalı və gözəl olacaq.

**5.** Bu kitabda verilənlərin öyrənilməsi üçün daha fəal bir mühitin yaradılması üçün dərsin hörmətini saxlamaq və müəllimlə şagirdlər arasında qarşılıqlı səmimiyyətin olması lazımdır. Buna görə də:

- Sinfin idarə olunması üçün müəllimin verdiyi proqrama tam olaraq riayət edin.
- Sinif yoldaşlarınızın fikirlərinə hörmətlə yanaşın.
- Sinif yoldaşlarınızın fikirlərini dəqiq şəkildə incələyin.
- Sinifdə başqalarından daha çox fikir bildirən dörd-beş nəfərin təsiri altına düşməyin. Siz də öz fikirlərinizi yürütməklə müzakirələrdə müstəqil olduğunuzu göstərin.

**6.** Sizin Quran qiraətinizi möhkəmləndirmək məqsədilə müəllim Qurandan bəzi ayələri məşq etmək üçün seçə bilər. Belə olan halda, kitabda verilmiş ayələrlə yanaşı müəllimin seçdiyi hissələrin də ayələri qiymətləndirmə zamanı nəzərə alınacaq.

**7.** Bu dərs sizin daxili hisslərinizin və yaradıcılıq qabiliyyətinizin özünü göstərmə meydanıdır. Sizin bu dərsdə qazancağınız uğur öz təfəkkür, düşüncə, zövq və yaradıcılıq səviyyənizdən asılıdır. Əgər bu kitab sizə düşünmək üçün imkan yaradarsa, deməli, uğur əldə ediləcək. Əslində, biz dərsləri sadəcə bir neçə dəfə oxuyub əzbərləmək və bununla da imtahanda uğur qazanmanızı istəmirik. Siz o imtahana önəm verin ki, sizə dərk etmək, düşünmək, araşdrma aparmaq imkanı versin.

Deyilənləri nəzərə alaraq, bu dərsdə kiçik summativ qiymətləndirmə zamanı aşağıdakı məqamlara diqqət yetiriləcək:

**1.** Quran ayələrinin düzgün oxunuşu
**2.** Kitabda tərcüməsi verilməyən ayələrin tərcüməsi
**3.** Sinif işlərinin yerinə yetirilməsi və mətndən suallar
**4.** Sual-cavabda və qrup işlərində iştirak
**5.** Hər dərsin sonunda verilmiş "Düşünmə və araşdırma" bölməsindəki suallara cavab

Diqqət: Bir çox dərsin sonunda verilmiş "Təklif" bölməsini yerinə yetirən, məqalələr yazan, ədəbi və bədii sahədə yeniliklər edən şagirdlər qiymətləndirmə zamanı nəzərə alınacaq.

Yekun qiymətləndirməyə gəlincə, hər yarım ildə bir dəfə yekun qiymətləndirmə nəzərdə tutulur. Yekun qiymətləndirmədə Quran ayələrinin qiraəti şifahi, kitabın digər materialları isə yazılı şəkildə aparılır. Yazılı qiymətləndirmədə müəllim kitabın müxtəlif dərslərindən ayələrin mənası, dərsin məzmunu, "Düşünmə və araşdırma" bölməsindən müxtəlif suallar təqdim edir. Suallar əsasən elə formada tərtib edilir ki, şagird düşünə, fikir yürüdə və təhlil apara bilsin. Buna görə də kitabı elə oxumalısınız ki, bütün suallara cavab verə biləsiniz.

**8.** "Daha çox bilək" və "Təklif" bölməsində, eləcə də səhifənin aşağısında haşiyədə verilənlər sizə daha ətraflı məlumat vermək məqsədi güdür. Hörmətli müəllim dərsdə həmin məlumatlardan suallar verib düzgün cavab verənləri həvəsləndirici qiymətlərlə qiymətləndirə bilər. Kiçik və böyük summativ qiymətlərndirmələrdə isə onlardan sual verilməməlidir. Tərcüməsi kitabda verilmiş Quran ayələri, habelə "*" işarəsi ilə işarələnmiş sinif işləri də yalnız kiçik summativ qiymətləndirmələr üçün nəzərdə tutulmuşdur.

**9.** Siz bu kitabda "Həyat yolu"nun ilk dərslərini öyrənəcəksiniz. Sonrakı dərsləri isə növbəti kitablarda öyrənəcəksiniz. Əgər bu kitab sizə həqiqət yolunda yürümək üçün kiçik bir cığır açarsa, onu özünüzdə saxlayın ki, gələcəkdə digər kitablarla birlikdə İslami həyat tərzi barəsində əlinizdə mükəmməl bir toplu olsun. Həm də unutmayın ki, bu kitabda sizin yaradıcı fikirlərinizin izləri vardır. Ola bilsin gələcəkdə həmin izlərə baxıb iftixar hissi keçirəsiniz.

Allah yardımçınız olsun! Müəlliflərdən

# Gülün açmasının sirri nədir?

Bitkinin toxumunda nə sirr vardır ki, torpağı yarıb oradan asanlıqla baş qaldıraraq cücərməyə başlayır? Təbii ki, bu sirri Uca Allahın toxuma verdiyi qabiliyyətdə axtarmaq lazımdır. Toxum torpağa səpildiyi andan etibarən cücərib inkişaf etməyə, təbiətin gözəlliyini daha da artırmağa hazırdır. Başqa sözlə desək, toxum cücərib inkişaf etməklə, gözəllik və təravət kəsb etməklə kamilliyə çatır, öz potensialını büruzə verir ki, Allahın onun üçün nəzərdə tutduğu əsas məqsədə çatsın.

**İndi yaxşı olar ki, özümüzdən soruşaq:**

1. Bəs biz insanların kamilliyi nədədir və son məqsədimiz nədir?
2. Bizdə hansı kamilliyin qabiliyyət və potensialı vardır?
3. Həmin qabiliyyəti necə üzə çıxarıb inkişaf etdirmək olar?



و فِی‌الاَرضِ آیاتٌ لِلموقِنین
وَ فی اَنفُسِکُم اَفَلا تُبصِرون

“Yerdə (Allaha) tam yəqinliklə inananlar üçün (Onun əzəmət və qüdrətinə, vəhdaniyyətinə dəlalət edən) əlamətlər vardır. Sizin özünüzdə də (sizi yaradanın birliyini sübut edən) əlamətlər vardır. Məgər görmürsünüz?”

Zariyat surəsi, 20-21-ci ayələr

# 1-ci mərhələ: Düşüncə və qəlbdə hazırlıq



## Dərs 1

# Yaşam kitabı

Qurani-kərim insanların həyat kitabı olub onları ən doğru yola yönəldir. Uca Allah bu müqəddəs kitabda bizimlə söhbət edərək insanlara xitab etmişdir. Yeniyetməlik və gənclik dövrü yaradanın sözlərinə diqqət yetirmək üçün ən gözəl dövrdür. İmam Sadiq (əleyhissəlam) buyurur:

“Gənc mömin Quran oxuduqda Quran onun ətinə və qanına qarışır. Allah onu Quranın daşıyıcıları və yazarları olan böyük mələklərlə eyni səviyyədə tutur. Qiyamətdə isə Quran onu (çətinliklər və əzabdan) qoruyacaq”. *(Üsuli-kafi, c. 4, səh. 405)*

Bu baxımdan biz Allahın bu kitabına üz tutaraq həyatımızı onun əsasında tənzimləmək istəyirik. Bu, əlinizdəki kitabda sona qədər mülahizə edəcəyiniz bir metod olacaq.

## Qiraət

Aşağıda verilmiş ayələri diqqətlə və gözəl şəkildə oxuyun.

أَعوذُ بِاللهِ مِنَ الشَّيطانِ الرَّجيمِ
بِسمِ اللّٰهِ الرَّحمنِ الرَّحيمِ

| | |
|---|---|
| قَدْ جاءَكُمْ مِنَ اللّٰهِ | ...................................... |
| نورٌ وَ كِتابٌ مُبينٌ | ...................................... |
| يَهْدى بِهِ اللّٰهُ | Allah Öz lütfünə sığınanları |
| مَنِ اتَّبَعَ رِضْوانَهُ سُبُلَ السَّلامِ | onunla əmin-amanlıq |
| | yollarına yönəldər. |
| وَ يُخْرِجُهُمْ مِنَ الظُّلُماتِ | ...................................... |
| اِلَى النّورِ بِاِذْنِهِ | ...................................... |
| وَ يَهْديهِمْ اِلٰى صِراطٍ مُسْتَقيمٍ | ...................................... |

Maidə surəsi, 15-16-cı ayələr

| | |
|---|---|
| هٰذا بَيانٌ لِلنّاسِ | ...................................... |
| وَ هُدًى وَ مَوْعِظَةٌ لِلْمُتَّقينَ | ...................................... |

Ali İmran surəsi, 138-ci ayə

| | |
|---|---|
| وَ نَزَّلْنا عَلَيْكَ الْكِتابَ | ...................................... |
| تِبْيانًا لِكُلِّ شَيْءٍ | ...................................... |

وَ هُدًى وَ رَحْمَةً وَ بُشْرىٰ ................................

لِلْمُسْلِمينَ ................................

Nəhl surəsi, 89-cu ayə

وَ اَنْزَلْنا اِلَيْكَ الذِّكْرَ ................................

لِتُبَيِّنَ لِلنّاسِ ما نُزِّلَ اِلَيْهِمْ ................................

وَ لَعَلَّهُمْ يَتَفَكَّرونَ ................................

Nəhl surəsi, 44-cü ayə

كِتابٌ اَنْزَلْناهُ اِلَيْكَ ................................

مُبارَكٌ mübarək, (xeyir-bərəkətli)

لِيَدَّبَّروا ءاياتِهِۦ ................................

وَ لِيَتَذَكَّرَ اُولُوا الْاَلْبابِ ................................

Sad surəsi, 29-cu ayə

وَ اوحِيَ اِلَيَّ هٰذَا الْقُرْءانُ ................................

لِاُنْذِرَكُمْ بِهِۦ ................................

وَ مَنْ بَلَغَ ona (gələcəkdə) yetişəcək kimsələri

Ənam surəsi, 19-cu ayə

كَما اَرْسَلْنا فيكُمْ رَسولًا مِنْكُمْ ................................

يَتْلو عَلَيْكُمْ ءاياتِنا ................................

وَ يُزَكّيكُمْ ................................

وَ يُعَلِّمُكُمُ الْكِتابَ وَ الْحِكْمَةَ ................................

| | |
|---|---|
| وَ يُعَلِّمُكُمْ ما لَمْ تَكونوا تَعْلَمون | .................................. və bilmədiklərinizi öyrətmək üçün. |

Bəqərə surəsi, 151-ci ayə

## Tərcümə

Aşağıdakı izahların köməyi ilə yuxarıda verilmiş ayələrin tərcüməsini tamamlayın.

| | | | |
|---|---|---|---|
| لِيَدَّبَّروا : | düşünəsiniz deyə | مُبين : | açıq-aydın |
| أُولُواالْاَلْبابِ : | ağıl sahibləri | تِبيان : | açıqlayan |
| لِتُبَيِّنَ : | bəyan edəsən, açıqlayasan | يَتَذَكَّر : | ibrət götürsünlər |
| نُزِّلَ : | nazil olmuş | كَما : | habelə |

## Allahın ayələri barədə düşünmək

Qurani-kərimi insanlara düz yolu göstərmək üçün nazil etmiş mehriban Allah bizi bu kitabı oxuyub onun ayələri barədə düşünməyə dəvət edir. Belə ki, Quranın hidayətindən yalnız onun ayələri barədə dərindən düşünməklə səadaət yoluna qədəm qoyub addımlamaq mümkündür.

Söz nə qədər dərin mənalı, hikmətli olarsa, onun barəsində bir o qədər çox düşünmək lazım gələr. Bildiyimiz kimi, Allahın kəlamı da sözlərin ən alisi, ən hikmətlisidir. Allahın kəlamının digər sözlər üzərindəki üstünlüyü Yaradanın yaranmış üzərindəki üstünlüyünə bənzəyir. (Biharul-ənvar, c. 92, səh. 19)

Bizim kiçik və fani varlığımız uca Allahın əzəməti qarşısında heç nə sayılmadığı kimi, ən böyük alimin sözləri də Allah kəlamının əzəməti qarşısında heç nədir. Lakin bu kitab bütün insanların hidayəti üçün

göndərildiyinə görə hamı öz elmi bacarığı, iman və təqva dərəcəsi səviyyəsində ondan faydalana bilər. Buna görə də onun ayələri barədə düşünmək, onun tükənməz bilik və mərifət bulağından faydalanmağın həddi-hüdudu yoxdur. Bu, heç vaxt bitib tükənməz. Yetər ki, Allahın gözəl ayələrini dinləyib başdan-ayağa ondan faydalana və səadət yolunda yürüyə bilək deyə, qəlbimizin qapısını onun üzünə açaq.

### Ayələrdəki mesaj (1)

Dərsdə verilmiş ayələrdən hansı bizi daha çox düşünməyə dəvət edir? Bu dəvət hansı ifadə ilə bəyan edilmişdir?

..........................................................................................................

........................................................................................................

## Quran ayələri barədə düşünməyin mərhələləri

Quran ayələri barədə düşünmək sadə və ümumi mərhələdən başlayıb daha çətin mərhələlərə qədər gedib çıxır. Quran ayələrini başa düşüb anlamaq eynilə yaradılış səhnəsində Allahın nişanələrini dərk edib anlamağa bənzəyir. Allahın təbiətdə yaratdıqlarına – göylərə, yerə, ağaclara, güllərə, quşlara, balıqlara, müxtəlif heyvanlara və digər varlıqlara baxan insanların hər biri öz bacardığı qədər nə isə anlayıb ibrət götürür. Bu və digər varlıq barəsində ətraflı məlumatı isə yalnız həmin sahənin mütəxəssisləri bilirlər. Bu, müxtəlif ali səviyyədə olan kitabların yazılmasının əsas səbəbi olmuşdur.

Quran ayələri barədə hər insanın Allahın tükənməz süfrəsindən faydalanması üçün zəruri hesab edilən düşünməyin sadə mərhələsi onun ali səviyyəsində olan və "təfsir" adlanan mərhələsi ilə tamamilə fərqlənir. Quran təfsirinin müxtəlif elm sahələrinə ehtiyacı var. Böyük müfəssirlər məhz bu elmləri öyrəndikdən sonra Quranın bütün ayələrini təfsir etməyə başlayıb oradakı həqiqətləri üzə çıxarırlar.

Ayə barədə düşünməyin sadə mərhələsində bəzi vaxtlar ayədəki mesajı əldə etmək onun mənasını anlamaq üçün kifayət edir. Misal üçün, “بِسْمِ اللهِ الرَّحْمَنِ الرَّحِيمِ” (Bağışlayan və mehriban Allahın adı ilə) ayəsini oxuyan istənilən şəxs başa düşür ki, Allah bağışlayan və mehribandır. Bəzən isə ayədəki ifadələr, ayənin əvvəli və axırı barədə azacıq düşünməklə ayədə nə deyilmək istədiyini bilmək olur. Məsələn, “وَالَّذِينَ جَاهَدُوا فِينَا لَنَهْدِيَنَّهُمْ سُبُلَنَا وَإِنَّ اللهَ لَمَعَ الْمُحْسِنِينَ” (Bizim uğrumuzda çalışanları Öz yollarımıza qovuşduracağıq. Şübhəsiz ki, Allah yaxşı əməllər edənlərlədir!) ayəsinə diqqət yetirdikdə məlum olur ki, Allah yolunda çalışan insanlara Allah Öz yolunu göstərir. Bəzən bir qədər də artıq düşünmək lazım gəlir və hər hansı ayədə nəzərdə tutulan mənanı başa düşməkdən ötrü onunla əlaqədar digər ayələrə də müraciət etmək gərəkdir.

Beləliklə, hər hansı ayənin üzərində nə qədər çox düşünülsə, bir o qədər Quranın çatdırmaq istədiyi mesajları daha yüksək səviyyədə başa düşmək olur.

## Düşünmə vasitələri və yolları

Ağıl insanların onun vasitəsilə düşünüb həqiqəti kəşf edə, yaxşıları pislərdən ayırd edə bilmələri üçün Allahın bizə bəxş etdiyi bir nemətdir. Bilik ağıl qüvvəsindən istifadə edərək əldə edilən nəticədir. Əgər Quranın bizə çatdırmaq istədiyi mesajları başa düşüb həyatımızı onun əsasında qurmaq istəyiriksə, ağlımızı işə salmalı, təfəkkür və düşüncə, eləcə də öyrənmək yolu ilə bu həqiqətləri əldə etməliyik. Təbii ki, Allahdan həmişə bu yolda bizə kömək etməsini, bizi Öz hidayətinə [illegible] yönəltməsini istəməliyik.

### Ayələrdəki mesaj (2)

Dərsdə verilmiş ayələr barədə düşünün və görün onlardan hansı bizi düşünmə vasitələrinə doğru istiqamətləndirir?

..................................................................................................

..................................................................................................

Quranın mesajlarını daha tez və daha rahat şəkildə, bir ayənin özündən əvvəlki və sonrakı ayələrlə nə kimi bağlılığı olmasını başa düşməkdə düşünmə metodları bizə yaxından kömək edir. Bu metodlardan növbəti dərslərdə tədricən istifadə ediləcək. İndi də onlardan bəzi nümunələrə diqqət yetirəcəyik.

## Ayələrdəki mesaj (3)

Dərsdə verilmiş ayələr barədə düşünməklə aşağıdakı suallara fikirləşərək cavab verin. Cavablarınızda istifadə etdiyiniz ayənin nömrəsini qeyd edin.

1. Qurani-kərimin nazil edilməsində məqsəd nədir?

**Cavab:** "Maidə" surəsinin 15-16-cı ayələrinə görə Quranın göndərilməsində əsas məqsəd insanların doğru yola hidayət olunması olmuşdur.

2. Hansı xüsusiyyətlərə sahib olmaqla Qurani-kərimin hidayətindən faydalanmaq olar?

3. Qurani-kərimin hidayətinin nəticələri nədən ibarətdir?

| | |
|---|---|
| **1.** ............................................ | **5.** ............................................ |
| **2.** ............................................ | **6.** ............................................ |
| **3.** ............................................ | **7.** ............................................ |
| **4.** ............................................ | **8.** ............................................ |

4. Qurani-kərimin hidayətinin zaman və məkan əhatəsi nə qədərdir?

Zaman əhatəsi baxımından ______________________________
______________________________________________________
Məkan əhatəsi baxımından ______________________________
______________________________________________________

### Qurani-kərimin ən gözəl müəllimi

Bu müqəddəs kitab barəsində düşünmək üçün bizim ilk və ən gözəl müəllimimiz həzrət Muhəmməd Peyğəmbərdir (s). Quran ayələri onun mübarək qəlbinə nazil olmuş və Allah-taala ayələrin həm zahiri, həm də batini mənasını ona öyrətmişdir.

## Ayələrdəki mesaj (4)

Dərsdə verilmiş ayələrdən hansı həzrət Peyğəmbəri (s) Quranın müəllimi olaraq təqdim edir?

Həzrət Muhəmməd Peyğəmbər (s) bizə həm Quran ayələri barədə düşünməyi öyrətmiş, həm camaatın müxtəlif ayələr barədə verdiyi sulları cavablandırmış, həm də Quranda buyrulmuş şəriət qaydalarına necə əməl etməyin yolunu göstərmişdir. Misal üçün, Allah-taala müsəlmanlara namaz qılmağı əmr edibsə, onu necə qılmağın yolunu həzrət Peyğəmbər (s) göstərmişdir.

## Daha çox bilək

Həzrət Muhəmməd Peyğəmbər (s) özündən sonra Quranın təlimlərini öyrətməyi Əmirəl-möminin Əliyə (ə) həvalə etmişdi. Həzrət (s) məşhur "Səqəleyn" hədisində müsəlmanları Quran və onun əsl daşıyıcıları və Allah elminin biliciləri olan ailəsindən möhkəm yapışmağa səsləmiş, Quranla Əhli-beyt arasında sarsılmaz bir bağlılıq olduğunu bildirmişdi. Habelə həzrət Peyğəmbər (s) bir çox başqa yerlərdə də Əmirəl-möminin Əlinin (ə) elmi üstünlüklərindən danışmış, onu "elm şəhərinin qapısı" adlandırmışdır.

### Quranın qiraət və ayələri barədə düşünmə qaydaları

Bu kitabın Allah kəlamı olduğu üçün heç bir kəlam onunla müqayisə oluna bilməz. Buna görə də onu xüsusi şəraitdə, müəyyən ədəb qaydalarına riayət edərək oxuyub ayələri barədə düşünmək lazımdır. Quran oxumağın ədəb qaydalarına riayət etmək onu göstərir ki:

1. Allahın əzəmətini və Onun kəlamının necə dəyərli olduğunu anlayırıq.
2. Allahı və Onun kəlamını qəlbən sevirik.

Buna görə də əlimizi Allah kəlamına toxundurduqda mütləq dəstəmazlı olmaq lazımdır. *(Vaqiə surəsi, 79-cu ayənin məzmunu).* Eləcə də yaxşı olar ki:

1. Quran oxunarkən sakit qalıb onu dinləyək. *(Əraf surəsi, 204-cü ayənin məzmunu).*
2. Quran oxumağa başlarkən "أَعُوذُ بِاللهِ مِنَ الشَّيْطانِ الرَّجِيمِ" (Qovulmuş şeytandan Allaha sığınıram) deyək *(Nəhl surəsi, 98-ci ayənin məzmunu).*
3. Quran oxuyarkən dəstəmazlı olaq.
4. Quran oxuyarkən, eləcə də ayələri barədə düşünərkən Quranın qarşısında ədəbli əyləşək.
5. Quranı yerə qoymayaq, rəhil və s. bu kimi nisbətən hündür yerə qoyaq.
6. Gündəlik Qurandan bir neçə ayə oxuyaq. Oxuduqlarımızın mənasını başa düşdükdən sonra isə onların barəsində düşünək.
7. Quranla daha yaxından ünsiyyətdə ola bilmək üçün onun mənasını başa düşək.

## Bu dərsdə öyrəndiyimiz düşüncə nümunələri

**1. Ayədəki mesajın başa düşülməsi:** Bir neçə ayə üzərində dayanıb əsil mənalarını öyrəndik.

**2. Ayələrdən sualımıza cavab tapmaq:** dərsdə qeyd olunan ayələr üzərində bir qədər düşünməklə verilmiş bir neçə suala cavab tapdıq. Məsələn, belə bir sual verildi: Qurani-kərimin hidayətinin zaman və məkan əhatəsi nə qədərdir? Dərsdəki ayələrə diqqət yetirməklə bu sualın cavabı aydın oldu. Bəzi vaxtlar Quran ayələri barədə başqalarının verdiyi suallara cavab verir və ya mötəbər mənbələrdən istifadə edərək cavabı axtarıb tapmağa çalışırıq. Bəzi hallarda isə bu və ya digər ayə barədə özümüz sual veririk.

**3. Bir neçə ayə arasında bağlılıq yaratmaq:** Dərsdə verilmiş bir və ya bir neçə ayənin ifadələri arasında əlaqə yaratmaqla Quran ayələri barədə düşünməyin nəticələrini əldə etmiş oluruq.

### Daha çox bilək

Miladi 1871-ci ildə İngiltərənin baş naziri Vilyam Qladston parlamentdə çıxışı zamanı biz müsəlmanların müqəddəs kitabı Quranı qaldıraraq demişdir: "Nə qədər ki tribunalarda Muhəmmədin (s) adı çəkilir, nə qədər ki Kəbə evi var, nə qədər ki Quran müsəlmanların bələdçisidir, müsəlman ölkələrində bizim yürütdüyümüz siyasətin baş tutması mümkünsüzdür".

Həmin il britaniyalı məşhur kəşfiyyatçı Hemfer belə demişdir: “Müsəlmanlar Qurana və hədisə böyük dəyər verirlər. Onların fikrincə, Quran və hədislərdə deyilənlərə əməl etmək savab iş sayılıb onları Cənnətə aparar. Buna görə də Quranın müəyyən dəyişikliklərə məruz qaldığını, oraya nəyinsə artıldığı və ya azaldığını bəhanə edib onun barəsində müəyyən iradlar ortaya atmaq lazımdır. Eləcə də Quranda yəhudi və xristianların, kafirlərin əleyhinə olan ayələri ondan çıxartmaq lazımdır”.

O vaxtlar İngiltərə özünü Böyük Britaniya adlandırır və bir çox müsəlman ölkəsini öz işğalı altında saxlayırdı. Geridə qaldığını anlayıb müstəqillik uğrunda çalışan müsəlmanlara qarşı mübarizə aparırdı. Həmin dövrdə Seyyid Cəmaləddin Əsədabadi kimi bəzi müsəlman alimləri müsəlmanların geriliyinin səbəbini Quran təlimlərinə arxa çevirməkdə görür və müsəlmanları bu müqəddəs kitabın ayələri barədə düşünməyə səsləyirdilər. Bu çağırışın nəticəsi olaraq müsəlman dünyasında, sanki bir oyanış baş qaldırıb imperialistlərə qarşı mübarizə başladı. Oyanışın əsas səbəbini bilən imperialistlər elə o vaxtdan belə qərara gəldilər ki, müsəlmanların müqədəs kitabı Qurani-kərimə qarşı müxtəlif formalarda mübarizə aparsınlar. Bu mübarizə bu günə qədər davam etməkdədir. “Şeytan ayələri” kitabının yazılması, 2005-ci ildə Danimarkanın “Yullands-Posten” jurnalında, ardınca da bir sıra digər Avropa qəzetlərində dərc olunmuş karikaturalar, Niderland parlamentinin üzvü tərəfindən hazırlanmış “Fitnə” filmi kimi həzrət Muhəmməd Peyğəmbərə (s) və Qurana qarşı çəkilmiş çoxsaylı filmlər, İslama qarşı təşkil edilmiş oyunlar, qondarma məzhəblər ortaya atma, 2008-ci ildə İslam dinini və həzrət Peyğəmbəri (s) təhqir edən rəsm müsabiqələri təşkil etmək bu mübarizənin müxtəlif təzahürləridir.

Bəs belə olan halda, bizim vəzifəmiz nədir? İslamın düşmənləri internet və ya müxtəlif televiziya kanalları vasitəsilə cürbəcür filmləri bizə sırımağa çalışdığı, dinimizə və Peyğəmbərimizə (s) qarşı istədikləri formada hörmətsizlik etdiyi bir halda, dini təəssübkeşliyimiz, şərəf və ləyaqətimiz bizə əlimizi-əlimizin üzərinə qoyub sakit dayanmağa imkan verirmi? Hər birimiz öz elmi bacarığımız qədər qollarımızı çırmalayıb mübarizə meydanına daxil olaraq öz müqəddəs kitabımızın müdafiəsinə qalxmalı deyilikmi?

Təbii ki, dünya imperialistlərinə qarşı mübarizənin ən gözəl yolu gündəlik həyatımızda Quran oxuyub onun ayələri barədə dərindən düşünməyə yer verməkdir. Çalışmalıyıq ki, Quranın göstərişlərinə əməl edib bu səmavi kitabın həyatımızdan çıxmasına imkan verməyək.

## Daha çox bilək

**İmam Sadiq (əleyhissəlam) hər dəfə Quran oxumaq üçün onu əlinə götürdükdə bu daunı oxuyardı:**

اَللّٰهُمَّ اِنّی اَشْهَدُ اَنَّ هٰذا کِتابُكَ
الْمُنْزَلُ مِنْ عِنْدِكَ عَلٰی رَسولِكَ
مُحَمَّدِبْنِ عَبْدِاللّٰهِ وَ کَلامُكَ النّاطِقُ
عَلٰی لِسانِ نَبِیِّكَ جَعَلْتَهُ هادِیًا
مِنْكَ اِلٰی خَلْقِكَ وَ حَبْلًا مُتَّصِلًا
فیما بَیْنَكَ وَ بَیْنَ عِبادِكَ.

“Allahım, mən şəhadət verirəm ki, bu Sənin dərgahından peyğəmbərin Muhəmməd ibn Abdullaha nazil etdiyin kitabın, Sənin peyğəmbərinin dilindən deyilmiş kəlamındır. Sən onu Öz dərgahından hidayətedici, Özünlə bəndələrin arasında bağ (qırılmaz vasitə) qərar vermisən.

اللّٰهُمَّ اِنّی نَشَرْتُ عَهْدَكَ وَ کِتابَكَ.
اللّٰهُمَّ فَاجْعَلْ نَظَری فیهِ عِبادَةً وَ
قِراءَتی فیهِ فِکْرًا وَ فِکْری فیهِ
اعْتِبارًا، وَاجْعَلْنی مِمَّنِ اتَّعَظَ بِبَیانِ
مَواعِظِكَ فیهِ وَاجْتَنَبَ مَعاصیكَ
وَ لاتَطْبَعْ عِنْدَ قِراءَتی عَلٰی سَمْعی
وَ لاتَجْعَلْ عَلٰی بَصَری غِشاوَةً
وَ لاتَجْعَلْ قِراءَتی قِراءَةً لاتَدَبُّرَ فیها
بَلِ اجْعَلْنی اَتَدَبَّرُ ءایاتِهِ وَاَحْکامَهُ
ءاخِذًا بِشَرایِعِ دینِكَ وَلاتَجْعَلْ
نَظَری فیهِ غَفْلَةً وَ لاقِراءَتی هَذرًا
اِنَّكَ اَنْتَ الرَّئوفُ الرَّحیمُ.

Allahım, mən Sənin kitabını və əhdini açdım. Ona baxışımı ibadət, onu oxumağımı düşüncə, onun barəsində düşünməyimi ibrətli et! Məni Sənin ondakı öyüdlərindən faydalananlardan, günahlardan çəkinənlərdən qərar ver! Allahım, Quran oxuyarkən qulağımı möhürləmə, gözümə pərdə çəkmə, oxumağımı düşüncəsiz oxunuş etmə! Oxuyarkən ayələri və hökmlərini düşünərək oxumağı, Sənin dininin hökmlərinə əməl etməyi nəsib et! Qurana baxışımı qəflət, onu oxumağımı əbəs etmə! Sən, həqiqətən də mehriban və mərhəmətlisən!”

Biharul-ənvar, c. 92, səh. 207

Nə üçün İmam Sadiq (ə) düşünmədən qiraət etməyi bəyənmir və Allahdan onu belə oxunuşdan uzaq etməsini arzu edir? Bunun cavabını İmam özü vermişdir. Yuxarıdakı duanı oxuyub sualın cavabını tapın.

Biz müsəlmanlar Quran oxuyarkən necə rəftar edirik? Siz özünüz necə rəftar edirsiniz? Bu duanı oxuduqdan sonra hansı qərara gəlmisiniz?

Heç bilirsinizmi ki, əgər bu gün ən aşağı mərhələdən başlasanız, növbəti günlərdə hansı gözəl irəliləyişlər baş verə bilər?!

# İlk addım

## Qurani-kərimdən faydalanmaq üçün proqram hazırlamaq

Qurani-kərim yaşam kitabı olub bizi xoşbəxtliyə doğru aparır. Biz öz yolumuzu tapıb səadətə doğru addımlaya bilək deyə, Allah tərəfindən bizə hədiyyə olaraq göndərilmişdir.

Ey mehriban Allah! Çalışacağıq ki, Sənin kitabındakı göstərişlərdən faydalanaraq və bizim üçün seçdiyin məsum rəhbərlərin yolu ilə gedərək bizim üçün nəzərdə tutduğun məqsədə və bizə göstərdiyin yola çataq. Bu yolla getməklə xoşbəxtlik və səadət nəsibimiz olsun!

**Allahım, Özün bizə yardımçı ol!**

# Dərs 2

## Böyük seçim

Həzrət İbrahim (əleyhissəlam) Allahın ən böyük peyğəmbərlərindən biridir. Onun əhvalatı Quranın bir neçə surəsində təkrar edilmişdir. Bu surələrdən birində İbrahim peyğəmbərin (ə) böyük seçimi qeyd edilmişdir.

Allahın kitabını açırıq, oradakı ayələri oxuyub onların barəsində düşünməyə başlayırıq:

1. Həzrət İbrahim (ə) peyğəmbərin böyük seçimi nə olub?
2. O öz seçimini hansı meyara əsasən etmişdir?

# Qiraət

"Ənam" surəsinin 74-80-ci ayələrini diqqətlə və gözəl şəkildə oxuyun.

أَعوذُ بِالله مِنَ الشَّيطانِ الرَّجيم

بِسمِ اللَهِ الرَّحمنِ الرَّحيم

| | |
|---|---|
| وَ اِذْ قالَ اِبْراهيمُ لِاَبيهِ ءازَرَ | ................................ |
| اَتَتَّخِذُ اَصْنامًا ءالِهَةً | Sən bütləri tanrılarmı qəbul edirsən? |
| اِنّى اَراكَ وَ قَوْمَكَ | ................................ |
| فى ضَلالٍ مُبينٍ | ................................ |
| 74 | |
| وَ كَذٰلِكَ نُرى اِبْراهيمَ | Beləcə, İbrahimə göstərdik ki, |
| مَلَكوتَ السَّماواتِ وَالْاَرْضِ | ................................ |
| وَ لِيَكونَ مِنَ الْموقِنينَ | ................................ |
| 75 | |
| فَلَمّا جَنَّ عَلَيْهِ اللَّيْلُ | Gecənin qaranlığı (onu) bürüdükdə |
| رَاٰى كَوْكَبًا | ................................ |
| قالَ هٰذا رَبّى | ................................ |
| فَلَمّا اَفَلَ | ................................ |
| قالَ لا اُحِبُّ الْاٰفِلينَ | ................................ |
| 76 | |
| فَلَمّا رَاٰى الْقَمَرَ بازِغًا | ................................ |
| قالَ هٰذا رَبّى | ................................ |
| فَلَمّا اَفَلَ | ................................ |
| قالَ لَئِنْ لَمْ يَهْدِنى رَبّى | "Doğrudan da, əgər Rəbbim məni doğru yola yönəltməsəydi, |
| لَاَكونَنَّ مِنَ الْقَوْمِ الضّالّينَ | mən zəlalətə düşənlərdən olardım", - söylədi. |
| 77 | |

| | |
|---|---|
| ................................ | فَلَمّا رَاَى الشَّمْسَ بازِغَةً |
| ................................ | قالَ هٰذا رَبّى |
| ................................ | هٰذا اَكْبَرُ |
| ................................ | فَلَمّا اَفَلَتْ |
| Ey camaatım, mən, həqiqətən, | قالَ يا قَوْمِ اِنّى بَرىءٌ |
| ................................ uzağam! | مِمّا تُشْرِكونَ |

78

| | |
|---|---|
| .........................batildən haqqa tapınaraq | اِنّى وَجَّهْتُ وَجْهِىَ |
| ................................ | لِلَّذى فَطَرَالسَّماواتِ وَالْاَرْضَ |
| ................................ | حَنيفًا |
| ................................ | وَ ما اَنَا مِنَ الْمُشْرِكينَ |

79

| | |
|---|---|
| Tayfası onunla (İbrahimlə) mübahisəyə girişdi. | و حاجَّهُ قَوْمُهُ |
| (İbrahim) dedi: “Allah məni doğru yola saldığı halda, | قالَ اَتُحاجّونّى فِى اللّٰهِ |
| siz Onun barəsində mənimlə mübahisə edirsiniz?” | |
| ................................ | وَ قَدْ هَدانِ |
| ................................ | وَ لا اَخافُ ما تُشْرِكونَ بِهٖ |
| ................................ | اِلّا اَنْ يَشاءَ رَبّى شَيْئًا |
| Rəbbim hər şeyi elmlə (Öz əzəli elmi ilə) ehtiva etmişdir. | وَسِعَ رَبّى كُلَّ شَىْءٍ عِلْمًا |
| ................................ | اَفَلا تَتَذَكَّرونَ |

80



اِنّی وَجَّهْتُ وَجْهِیَ لِلَّذی

فَطَرَ السَّماواتِ وَ الْاَرْضَ حَنیفًا

## Tərcümə

Aşağıdakı izahların köməyi ilə yuxarıda verilmiş ayələrin tərcüməsini tamamlayın.

| | |
|---|---|
| اَراكَ (اَرىٰ + كَ) : | səni görürəm |
| لِـيَـكونَ : | olsun |
| بازِغًا، بازِغَـةً : | açıq, doğan |
| فَـطَـرَ : | yaratdı |
| اَفَـلَ : | batdı, gözdən itdi |
| تُـشْـرِكـونَ : | şərik qoşursunuz |
| لِلَّـ ى : لِـ + الَّـذى | ------Ona------- |
| هَـدانِ : هَدانى : هَدىٰ + نـ + ى : | məni doğru yola yönəltdi |
| اَخافُ : | qorxuram |

## Ayələrdəki mesaj

**Verilmiş ayələr barəsində yaxşı düşünərək aşağıdakı suallara cavab verin.**

1. Nə üçün Ay, Günəş və ulduz kimi cismlər ibadət edilməyə layiq deyillər?

..............................................................................................................

..............................................................................................................

2. Həzrət İbrahim (ə) öz yaşayışı üçün hansı yolu seçdi?

..............................................................................................................

..............................................................................................................

3. Nə üçün həzrət İbrahim (ə) məhz bu yolu seçdi? O, gördüyü işinin doğru olduğunu necə əsaslandırdı?

..............................................................................................................

..............................................................................................................

## Özün barədə düşün

Hər bir insanın istənilən vaxt seçim imkanı vardır. Lakin həyatda seçim etmək üçün ən gözəl vaxt yeniyetməlik dövrüdür. Həzrət İbrahim (ə) peyğəmbərin yeniyetməlik dövrü çox böyük bir seçimlə başlamışdır. O, tək olan Allaha ibadət edib camaatı da Yaradana pərəstiş etməyə dəvət edə bilməkdən ötrü əmisi Azərdən ayrıldı. Yəqin ki, siz də həyatınızda belə seçim halları ilə qarşılaşıb bunun nə qədər əhəmiyyətli olduğunu görmüsünüz. Əgər bu seçim həddən artıq önəmli məsələlərlə bağlı olursa onun əhəmiyyəti daha çox nəzərə çarpır. Bütün insanlar həyatı sevir və öz xoşbəxtliyini axtarır. Bizim xoşbəxtlik axtarışımızın uğuru özümüz barədə düşünməkdən asılıdır. Necə ki həzrət İbrahim (ə) özü və gələcəyi barədə düşünərək, eyni zamanda Allahdan yardım diləyərək ən gözəl seçimi etdi.

Görəsən, həzrət İbrahimin (ə) seçiminin təməli bizim hər birimizdə yoxdurmu? Hərə özü barədə səmimi şəkildə düşünüb özünü o böyük şəxsiyyətin yerinə qoyarsa, həmin seçimi etmiş olmazmı?

*Azacıq özünə fikir ver,*
*Bax gör haradasan, kimsən?*

Bu suallara cavab tapmaq üçün özümüz barədə düşünmək istiqamətindən ötrü iki addım atmalı olacağıq:

**Birinci addım:** Hər bir insanın kamilliyə və yaxşılıqlara çatmaq imkanı var və onları əldə etdiyi miqdarda sevinmiş olur. Elm, ədəb, şücaət, şərəf, alicənablıq bu qəbil yaxşılıqlardandır. Bir alim hansısa bir elmi faktı kəşf etdikdə və ya dolaşıq bir elmi məsələni həll etdikdə bundan zövq alır. Şücaətli insan öz şücaətindən razı qalır. Bu gözəl və bəyənilmiş xislətləri bütün insanlar sevir və buna nail olmağı arzulayırlar. Sanki daxildən bir qüvvə insanı həmin xislətlərə doğru çəkib aparır.

## Adlandırma

**Siz bu istəyə nə ad verə bilərsiniz?**

**İkinci addım:** Gəlin bir insandakı bacarıqları bitki və heyvanlardakı bacarıqlarla müqayisə edək. Əgər hansısa bir heyvan və ya bitkidən - Sən hara yetişmək istərdin? – deyə soruşa bilsək, o bizə bir və ya bir neçə məhdud cavab verəcək.

Məsələn, bir buğda dənəsi özündə onlarla dənəsi olan sünbülə çevrilmək istəyir. Yaxud kiçik bir xurma ağacı böyüyüb xurmalarını insanların şirin ağızla yediyi qocaman bir ağac olmaq istəyir. Heyvanların da hərənin özünə görə bir arzusu vardır - meşədəki aslan balasından tutmuş yumurtadan yenicə çıxmış cücəyə qədər. İstənilən halda, bitkilərlə heyvanların istək və bacarığı məhdud bir çərçivədə olur. İnsanın istək və bacarığı isə müxtəlif və çoxşaxəlidir, digər varlıqlarınkından tamamilə fərqlənir. İnsan gül kimi təravətli, ceyran kimi cəld, meh kimi lətif, qaya kimi sərt ola bilər.

Üstəlik, heyvanlar və bitkilər müəyyən bir kamal həddinə yetişdikdə dayanırlar. Sanki yolun sonuna çatıblar, daha heç bir arzu və istəkləri yoxdur. İnsan isə tükənməz istəyə malikdir. Onun öz istəklərinə çatmaq həvəsi nəinki tükənmir, əksinə, günbəgün daha da artır. O, heç bitib tükənməyən bir şeyin ardıncadır.

## Adlandırma

A. İnsanın bu iki xüsusiyyəti üçün hansı adı seçərdiniz?

1. ..........................................................................................

2. ..........................................................................................

B. Həzrət İbrahim peyğəmbərin (ə) ulduza sitayiş edənlərə verdiyi cavab bu xüsusiyyətlərdən hansına işarədir?

## Bu dərsdə öyrəndiyimiz düşüncə nümunələri

**Ayələrdən cavab əldə etmə:** Misal üçün, "Həzrət İbrahim (ə) öz yaşayışı üçün hansı yolu seçdi?" sualına.......................... surəsinin........ ayəsindən cavab tapmaq mümkündür.

Quran ayələri barədə bu cür düşünmə metodu ağıl qüvvəsinin yaxşı yetişdirilməsinə, habelə İslam maarifini gözəl bilən ustadlara ehtiyacı vardır. Qurani-kərimdə məntiqi əsaslarla, eyni zamanda çox sadə tərzdə təqdim edilmiş kifayət qədər tutarlı sübutlar vardır. Bu səmavi kitabla ünsiyyətdə olmaq bu cür subutları daha çox görüb dərk etməyimizə imkan verir. Eləcə də bizim əqli təfəkkür və düşüncə səviyyəmizi inkişaf etdirir.

## Təklif

1. Dərsdə verilmiş əhvalata dair təqdimat hazırlayıb sinif yoldaşlarınız üçün oxuyun.

2. Quran qissələrinin qeyd olunduğu kitablardan həzrət İbrahim (ə) peyğəmbərin əhvalatını oxuyub sinifdə danışın. Bu məqsədlə aşağıda adları qeyd edilmiş kitablara müraciət edə bilərsiniz:

a) Peyğəmbərlərin əhvalatları, Mustafa Zamani.

b) Peyğəmbərlərin əhvalatları, Əli Musəvi Gərmarudi.

3. Həzrət İbrahim peyğəmbərin (ə) həyatı ilə bağlı ən çox diqqətinizi çəkmiş bir əhvalatı səhnələşdirin.

4. Məsələnin həlli:

Bəzi insanlar belə hesab edirlər ki:

"Gənclər müxtəlifliyi sevirlər. Onların bu istəyinə qarşı çıxanlar gəncləri başa düşə bilmirlər. Gənclərin bu müxtəliflik istəyi onların yeni dəblər ardınca getməsinə gətirib çıxarır. Yeni dəblərə qarşı çıxanlar isə gənclərin müxtəliflik sevmə istəyini anlaya bilmirlər".

Belə düşünən insanlar aşağıdakı suallarla qarşı-qarşıyadır ki, gərək onlara cavab versinlər:

1- Bu cür müxtəliflik istəyi gənci qeyd etdiyimiz böyük seçimə aparıb çatdıra bilərmi?

2- Gənc olan şəxs istənilən dəbdən istifadə etmək üçün onu öz həyatına uyğunlaşdıra bilməzmi?

3- Bu baxış o anlama gəlmirmi ki, gənc olan şəxs hələ kifayət qədər düşüncə və ayırd etmə bacarığına yiyələnməyib və daha çox hissiyyata qapılır?

4- İnsanın sonsuzluq istəyindən irəli gələn müxtəliflik istəyi bu kimi işlərdə istifadə edildikdə insanı əsas məqsədlərindən yayındırmırmı?

5- Dəb seçimi üçün hər hansı bir meyar və tərz müəyyənləşdirmək mümkün deyilmi? Əgər mümkündürsə, o hansı meyar və tərzdir?

6- Hər hansı dəbi seçməzdən qabaq onun meydana gəlmə səbəbini bilmək yaxşı olmazmı?

**Bu məsələ barədə dostlarınızla düşünüb fikrinizi bildirin.**

# Dərs 3

## Hansı məqsəd?

Quran ayələri üzərində düşünərək öyrəndik ki, insan sonsuz istəyə malik bir varlıqdır. Onun bitib-tükənməyən istəkləri vardır. Lakin insanların dünyasına nəzər saldıqda olduqca maraqlı bir vəziyyətlə qarşılaşırıq. Onların məqsədləri arasında elə ciddi fərqlər vardır ki, ilk baxışda insan çaşbaş qalır. Görəsən, bu seçimlərdən hansı düzgündür? Bəzi insanlar pul, var-dövlət ardınca qaçdığı halda bəziləri dünya sirlərini çözməyə çalışırlar. Bəziləri vəzifə həvəsində olduğu halda, bəziləri incəsənətin müxtəlif sahələrinə meyil edib öz bacarığını nümayiş etdirirlər. Başqa biriləri isə müxtəlif idman sahələrində qəhrəmanlıq ardınca gedirlər və s.

Bu fərqliliyin səbəbi nədir?

Nə üçün insanların fərqli maraqları var?

Bu kimi məsələlər barədə mühakimə yürütmək üçün hər hansı bir meyar varmı?

Ümumiyyətlə, insanların arzu və məqsədini sıralamaq mümkündürmü?

Həyatın məqsədini seçmək hər bir insanın ən başlıca seçimidir. Bizim həyatdakı bütün hərəkətlərimizi tənzimləyən, onlara xüsusi bir rəng qatan məhz bu seçimdir. Buna görə də həyatdakı əsas məqsədimizi müəyyənləşdirə bilməkdən ötrü bir daha Qurani-kərimin ayələri üzərində düşünüb Allahın hidayətindən faydalanmaq lazım gəlir.

## Qiraət

Aşağıda verilmiş ayələri diqqətlə və gözəl şəkildə oxuyun.

أعوذُ بالله مِنَ الشَّيطانِ الرَّجيم
بِسمِ اللهِ الرَّحمنِ الرَّحيم

مَنْ كانَ يُريدُ الْعاجِلَةَ ..................................

عَجَّلْنا لَهُ فيها ما نَشاءُ istədiyimiz neməti orada tezliklə verərik.

لِمَنْ نُريدُ ..................................

ثُمَّ جَعَلْنا لَهُ جَهَنَّمَ ..................................

يَصْلاها مَذْمومًا مَدْحورًا O, (Cəhənnəmə) qınanmış, (Allahın mərhəmətindən) məhrum edilmiş halda (xar, zəlil vəziyyətdə) daxil olar!

وَ مَنْ اَرادَ الْآخِرَةَ ..................................

وَ سَعى لَها سَعْيَها ..................................

وَ هُوَ مُؤْمِنٌ ..................................

فَأُولٰئِكَ كانَ سَعْيُهُمْ مَشْكورًا ..................................

İsra surəsi, 18-19-cu ayələr

فَمِنَ النّاسِ مَنْ يَقولُ ..................................

رَبَّنا آتِنا فِى الدُّنْيا ..................................

وَ ما لَهُ فِى الْآخِرَةِ مِنْ خَلاقٍ Belə şəxslərin axirətdə heç bir payı yoxdur!

وَ مِنْهُمْ مَنْ يَقولُ ................................

رَبَّنا ءاتِنا فِى الدُّنْيا حَسَنَةً ................................

وَ فِى الْأخِرَةِ حَسَنَةً ................................

وَ قِنا عَذابَ النّارِ ................................

أُولٰئِكَ لَهُمْ نَصيبٌ مِمّا كَسَبوا — Belə şəxsləri qazandıqlarına (qazandıqları əməllərinə) görə (axirətdə) mükafat gözləyir.

وَ اللّٰهُ سَريعُ الْحِسابِ ................................

Bəqərə surəsi, 200-202-ci ayələr

وَما اوتيتُمْ مِنْ شَىْءٍ — Sizə verilən hər hansı bir şey

فَمَتاعُ الْحَياةِ الدُّنْيا — (var-dövlət, övlad, xoş güzəran) ancaq bu fani

وَ زينَتُها — dünyanın malı və bərbəzəyidir.

وَما عِنْدَ اللّٰهِ خَيْرٌ وَ اَبْقى ................................

اَفَلا تَعْقِلونَ ................................

Qəsəs surəsi, 60-cı ayə

إنّا هَدَيْناهُ السَّبيلَ ................................

إمّا شاكِرًا وَ إمّا كَفورًا ................................

İnsan surəsi, 3-cü ayə

كُلُّ نَفْسٍ بِما كَسَبَتْ رَهينَةٌ — Hər kəs öz əməlinin girovudur!

Muddəssir surəsi, 38-ci ayə

## Tərcümə

| | | | |
|---|---|---|---|
| نُرِيدُ : | istəyirik | ءاتِنا : | bizə ver, bizə bəxş et |
| الْعاجِلَة : | ötəri iş, dünya | سَعٰى : | çalışdı, səy göstərdi |
| كَفور : | nankor | | |

### Diqqət

İnsanla bitkilər və heyvanlar arasındakı fərqlərdən biri də öz kamal həddinə çatıb potensialından istifadə edə bilmək bacarığıdır. Bitkilərin potensialı təbii, heyvanların potensialı isə instinkt olaraq inkişaf edir. İnsanın potensialı isə onun bir sıra cismani cəhətləri ilə yanaşı, həm də özü tərəfindən inkişaf etdirilir. Allah insana həddən artıq nemət bəxş etmişdir. Bu nemətlərin arasından ikisini – düşünmə bacarığı və seçim qabiliyyətini xüsusi qeyd etmək lazımdır. İnsan düşünmə bacarığı sayəsində yaxşılıqları ayırd edib onlara çatmaq yolunu müəyyənləşdirə bilir. Seçim qabiliyyətinə malik olduğuna görə yaxşılıqlar arasında seçim edib səadət yolunda addımlaya bilər. Buna görə də Allah-taala insanı bitki və heyvanlardan fərqli şəkildə yönləndirmişdir. Belə ki, insana xoşbəxtlik və səadət yolunu göstərmiş, həmin yolda addımlamağı isə onun öz ixtiyarına buraxmışdır. Deməli, insanın aqibətini onun öz seçimi müəyyənləşdirir. İnsanın xoşbəxt, yoxsa bədbəxt olması onun seçim edərkən verəcəyi qərardan asılıdır. İnsan belə bir önəmli qərar vermək məsuliyyəti daşıyır. Bu məsuliyyətdən və onun verəcəyi nəticədən heç bir vəchlə boyun qaçırmaq mümkün deyil.

Bəs insan bu seçim qarşısında qaldıqda hansı addımı atır? Onu ciddiyə almamaq, səhlənkar yanaşmaq olarmı? Ən gözəl məqsədə nail olmaqdan və ömür boyu bu məqsəd uğrunda çalışmaqdan ötrü həmişə bu barədə düşünmək, ağlımızı işə salmaq və Allahdan kömək istəmək lazım deyilmi?

## Ayələrdəki mesaj (1)

Dərsdə verilmiş ayələrdən hansı bizə seçim məsuliyyətimizi xatırladır? Verilmiş ayələrdəki mesajları qeyd edin.

Ayələr…........

Mesajlar:

1. ...............................................................................

2. ...............................................................................

3. ...............................................................................

## Məlumat toplamaq

1. Dostlarınızın, yaxınlarınızın və digərlərinin haqqında eşitdiklərinizin əsasında müxtəlif arzu və istəklər haqqında bir siyahı hazırlayın.

2. Bir-birinə yaxın olan arzu və istəkləri bir-birinin yanında yazaraq onları ayrı-ayrı hissələrə ayırın. Hər hissəyə uyğun bir ad seçin.

**Məqsəd və istəklərin fərqli olmasının əsas səbəbi baxışların fərqli olmasıdır.**

Hər bir insan özünəməxsus baxışı ilə müəyyən bir bacarığın ardınca gedib konkret bir məqsəd güdür. Baxışlar fərqli olduğuna görə məqsədlər də fərqli olur.

Kimsə başqalarını sevməyin dəyərli olduğunu düşünürsə, deməli, başqalarına məhəbbət göstərməyə çalışacaq. Özünü başqalarından üstün hesab edən insan isə başqalarının onun

qulluğunda durmasını istəyəcək. Kimsə kiçik işlərin önəmli olduğunu düşünərsə, həmin kiçik işlərin ardınca gedəcək. Həddən artıq böyük önəm kəsb edən yüksək dəyərləri tanıyıb onlara diqqət yetirən insan da onlara yetişməyi qarşısına məqsəd qoyacaq. "Böyük insanların məqsədləri də böyük olur. Onların istəyi bu tezliklə başa çatıb tükənmir". *(Ayətullah əl-üzma Seyyid Əli Xamneinin gənclərlə görüşündəki çıxışından sitat).*

## Əsas məqsədlərin seçilməsi meyarları

Dediklərimizdən belə nəticə əldə edirik ki, məqsədlərin düzgün seçilib onların ardınca getmək üçün müəyyən meyarlar olmalıdır. Bunlar elə meyarlar olmalıdır ki, onların vasitəsilə məqsədlərin dəyərini müəyyənləşdirib hər birini öz dəyərinə uyğun şəkildə sıralaya bilək. Məhz belə olduqda həyatın məqsədlərini düzgün seçməyi bacaracaq və ömrümüzü həmin məqsədə çatmaq üçün sərf edəcəyik. Bundan sonra isə həyatımız öz bəhrəsini verəcək və biz xoşbəxtlik meyvəsini dərəcəyik.

İnsanların xoşbəxt olmasını istəyən mehriban və mərhəmətli Allah Qurani-kərimdə bu məsələ ilə bağlı bizə tövsiyə vermiş, əsas məqsədi əsas olmayandan ayırd etməyin yolunu göstərmişdir. Eyni zamanda, bu yolların nəticəsini də bəyan etmişdir. Axı Uca Allah bizə hamıdan daha yaxın və hamıdan daha mehribandır.

.

## Ayələrdəki mesaj (2)

| Düzgün seçim meyarlarını əldə etmək üçün dərsdə verilmiş ayələr üzərində düşünün. Düşündükdən sonra ayələri bir-biri ilə əlaqələndirərək onlarda verilmiş mesajları tamamlayın. Bu mesajların əldə edildiyi ayələri müəyyənləşdirin. | **Mesajla bağlı olan ayələr** |
|---|---|
| 1. Bəzi məqsədlər və istəklər tükənir.<br>2. Kimsə onları həyatında əsas məqsəd olaraq seçərsə, onlardan bəzisinə çata bilər.<br>3. Kimsə yalnız bu məqsədləri seçərsə, ..........<br>...............................................<br>4. Bəzi məqsədlər əbədi olub tükənməzdir.<br>5. Kimsə onları həyatında əsas məqsəd olaraq seçərsə və........................., öz məqsədinə çatar.<br>6. Əbədi olub tükənməyən məqsədlərə Allaha yaxınlaşmaqla çatmaq mümkündür.<br>7. Əbədi olub tükənməyən məqsədlər axirət məqsədləridir.<br>8. Tükənən məqsədlər dünyəvi məqsədlərdir.<br>9. Axirət məqsədlərini əsas götürmək insanın dünyəvi nemətlərdən faydalanmasının qarşısını almır.<br>10. Dünyəvi məqsədləri əsas götürmək insanın axirət məqsədlərinə yetişməsinin qarşısını alır. | ...................<br>...................<br>...................<br>...................<br>...................<br>...................<br>...................<br>...................<br>...................<br>...................<br>İsra surəsi 18 və Bəqərə surəsi 200-cü ayələri |
| Nəticə: İnsanın hazırladığı proqram həm axirət, həm də dünyəvi məqsədləri əhatə etməlidir. Lakin elə tənzimlənməlidir ki, .......... məqsədləri əsas götürülsün. Dünyəvi nemətlər isə sadəcə ............ olub axirət məqsədlərinə tabe olsun. | |

Gördüyünüz kimi, burada söhbət hər ikisi yaxşı hesab edilən və həyatımız üçün zəruri sayılan əsas və ikinci dərəcəli məqsədlərdən gedir. Önəmli olan odur ki, ikinci dərəcəli məqsədi əsas məqsədin yerinə qoymayaq. Başqa sözlə desək, ikinci dərəcəli məqsədlərə o qədər bağlanmayaq ki, əsas məqsədə çatmağımıza mane olsun. Dünyəvi məqsədlər uğrunda çalışmaq nəinki pis sayılmır, əksinə, zəruri və yaxşıdır. Sadəcə diqqət yetirməliyik ki, dünyəvi məqsədlərə nail olmaqdan ötrü günaha düşməyək. Eləcə də dünyəvi məqsədlərə o qədər aludə olmayaq ki, əbədi gözəllikləri unudaq.

## Ayırıb fərqləndirin

"Məlumat toplamaq" tapşırığı əsasında topladığınız məqsəd və istəkləri verilmiş ayələrdən öyrəndiklərinizə uyğun olaraq bir-birindən ayırıb fərqləndirin.

| İkinci dərəcəli məqsəd və istəklər | Əsas məqsəd və istəklər |
| --- | --- |
| 1. ................................... | 1. ................................... |
| 2. ................................... | 2. ................................... |
| 3. ................................... | 3. ................................... |
| 4. ................................... | 4. ................................... |
| 5. ................................... | 5. ................................... |
| 6. ................................... | 6. ................................... |
| 7. ................................... | 7. ................................... |
| 8. ................................... | 8. ................................... |

**Sual forması:** Kimsə sizə: "Mən rəssamlıq, yaxud mühəndislik və ya dülgərliyə meylim var və istəyirəm ki, bunu həyatımın başlıca məqsədinə çevirim" – deyərsə, siz ona nə cavab verərsiniz?

## Sıralama

Aşağıdakı cədvəldə hamımızın xoşlayıb istədiyimiz və tükənməz məqsədlərdən sayılacaq bir sıra yaxşı cəhətlər verilmişdir. Təbii ki, onlar əhəmiyyət baxımından eyni dərəcədə deyil. Bəziləri birinci dərəcəli olduğu halda bəziləri də sonrakı dərəcələrdə gəlir. Siz öz düşüncənizə əsasən, onları dərəcələri baxımından sıralayın və əhəmiyyət nöqteyi-nəzərdən onları 1, 2, 3 və ya 4 rəqəmi ilə qeyd edin.

| Yaxşı cəhətlər | sıra | Yaxşı cəhətlər | sıra | Yaxşı cəhətlər | sıra | Yaxşı cəhətlər | sıra |
|---|---|---|---|---|---|---|---|
| - Allaha bəndəlik<br>- Allah qarşısında xüzulu (müti) olmaq<br>- Ədalət<br>- Allaha yəqin<br>- Ağıllı olmaq<br>- Allahın mərhəmətinə ümid<br>- Allaha təvəkkül<br>- Söz deyil, əməl adamı olmaq<br>- Allaha şükr etmək<br>- Həlimlik və səbirli olmaq<br>- Allaha ehtiyac hiss etmək<br>- Əməldə səmimi olmaq<br>- Allahın əmrinə tabe olmaq<br>- Çox mehriban olmaq<br>- Qohumlara qarşı mehriban olmaq | | - Güzəştə getmək və bağışlamaq<br>- Şücaət<br>- Allah qarşısında xüşulu (müti) olmaq<br>- Zalımlara qarşı düşmən olmaq<br>- Yaradıcılıq<br>- Güzəşt<br>- Şərəf və böyüklük<br>- Müdriklik<br>- Qüdrət və bacarıq<br>- Elm<br>- Mərhəmət<br>- Məzluma kömək etmək<br>- Hümmətli olmaq<br>- Bəsirət<br>- Dinləmək qabiliyyəti | | - İstedad<br>- Qənaət<br>- Zahirin və batinin təmiz olması<br>- Şəhvət hissinə qalib gəlmək<br>- Allahın əzabından qorxmaq<br>- Zalımlara qarşı güclü olmaq<br>- Zirəklik və tədbir<br>- Allaha şükür edən bəndə olmaq<br>- Yaşayış xərclərini azaltmaq<br>- Allah sevgisi<br>- Abadlığı sevmək<br>- Camaatın qayğısına qalmaq<br>- Camaatın çətinliklərində onlara əl tutmaq<br>- Camaata qarşı səmimi olmaq<br>Qonaqpərvərlik | | - İffətli olmaq<br>- Camaata qarşı gülərüz olmaq<br>- Camaatın eyiblərinin üstünü örtmək<br>- Kinli olmamaq<br>- Mürüvvətli və alicənab olmaq<br>- Namusun qeyrətini çəkmək<br>- Camaatla xoş rəftar etmək<br>- İntizamlı olub qanuna riayət etmək<br>- Ata-anaya yaxşılıq etmək<br>- Camaat haqqında xoş düşünmək<br>- Səbirli olmaq<br>- Ruhdan düşməmək<br>- Camaatın xeyrini istəmək<br>- Elmi ruha malik olmaq<br>- Allahdan razı qalmaq | |

## Düşünmə və araşdırma

1. Dərsdəki əsas meyarı bir-bir qeyd edin.

| Sıra | Dərsdəki əsas mesajlar |
|---|---|
| ........... | ........................................................................................ |
| ........... | ........................................................................................ |
| ........... | ........................................................................................ |
| ........... | ........................................................................................ |
| ........... | ........................................................................................ |
| ........... | ........................................................................................ |

2. İnsanın bacarıq və istəklərinin çox olması faydalıdır, yoxsa zərərli? Niyə?

3. Həyatda maddi baxımdan irəli gedib rifaha çatmaq istədiyimiz halda dünyada axirət məqsədlərini necə əsas götürə bilərik?

4. Nə üçün insanın taleyinin məsuliyyəti onun öz öhdəsindədir?

5. Sizcə, xoşbəxt insan kimdir?

## Təklif

Dərsdə öyrəndiklərimizə əsasən, hər insanın həyatda üç seçimi vardır:

1. Yalnız ötəri məqsədləri seçib başqa məqsədlərə etinasız yanaşmaq.
2. Yalnız tükənməyən məqsədləri seçib ötəri məqsədlərə biganə yanaşmaq.
3. Həyatda tükənməz məqsədləri əsas məqsəd olaraq seçib ötəri məqsədlərə də lazımi qədər diqqət yetirmək.

Ətrafınızda olan, eləcə də keçmişdə yaşayan insanlar barəsində düşünün. Verilmiş hər üç seçim barədə nümunələr tapıb onların seçiminin nəticəsi barədə izah verin.

## Dərs 4

# Ən üstün hədəf

Üçüncü dərsdə iki cür məqsədlər arasındakı fərq aydın oldu. Öyrəndik ki, məhz Quran ayələri sayəsində həyatdakı əsas məqsədlərimizi düzgün seçə bilərik.

Burada çox vacib bir sual meydana çıxır. İndi istəyirik ki, həmin sual barəsində müzakirə aparaq. Sual bundan ibarətdir: Əsas hədəflər arasında ən üstün və kamil olanı hansıdır?

Bu suala cavab tapmaqla həzrət İbrahim peyğəmbərin (ə) nəyə görə Günəşə, Aya və ulduza sitayiş edənlərlə yoldaşlıq etməməsinin və tamam başqa bir yol seçməsinin səbəbi aydın olur.

## Qiraət

Aşağıda verilmiş ayələri diqqətlə və gözəl şəkildə oxuyun.

اَعوذُ بِالله مِنَ الشَّيطانِ الرَّجيم
بِسمِ اللَهِ الرَّحمنِ الرَّحيم

اَللّٰهُ لا اِلٰـهَ اِلّاهُوَ ..................................
لَهُ الْاَسْماءُ الْـحُسْنٰى ..................................

Taha surəsi, 8-ci ayə

اِنّى وَجَّـهْـتُ وَجْـهِـىَ لِـلَّـذى ..................................
فَـطَرَ الـسَّـماواتِ وَ الْاَرْضَ حَـنـيـفًا ..................................
وَ ما اَنَا مِـنَ الْـمُـشْرِكيـنَ ..................................

Ənam surəsi, 79-cu ayə

وَعَـدَ الـلّٰـهُ الْـمُـؤْمِـنيـنَ وَالْـمُـؤْمِـناتِ ..................................
جَـنّـاتٍ تَـجْـرى مِـنْ تَـحْـتِـهَـا الْاَنْـهـارُ ..................................
خـالِـديـنَ فـيـهـا ..................................
وَ مَـسـاكِـنَ طَـيِّـبَـةً فـى جَـنّـاتِ عَـدْنٍ ..................................
وَ رِضْـوانٌ مِـنَ الـلّٰـهِ اَكْـبَـرُ ..................................
ذٰلِـكَ هُـوَ الْـفَـوْزُ الْـعَـظيـمُ ..................................

Tövbə surəsi, 72-ci ayə

| | |
|---|---|
| ................................. | ما عِنْدَكُمْ يَنْفَدُ |
| ................................. | وَ ما عِنْدَاللّهِ باقٍ |
| (Allah yolunda əziyyətlərə) dözənləri | وَلَنَجْزِيَنَّ الَّذينَ |
| etdikləri ən yaxşı əməllərin | صَبَروا اَجْرَهُمْ |
| müqabilində mükafatlandıracağıq! | بِاَحْسَنِ ما كانوا يَعْمَلونَ |

Nəhl surəsi, 96-cı ayə

## Tərcümə

Aşağıdakı izahların köməyi ilə yuxarıda verilmiş ayələrin tərcüməsini tamamlayın.

| | | | |
|---|---|---|---|
| razılıq | رِضوان : | ən gözəl | اَلْحُسْنى : |
| | | tükənir | يَنْفَدُ : |

Çoxumuz Mövlananın aşağıdakı gözəl beytini eşitmişik:

*Əhməd adı cümlə ənbiyanındır,*
*Yüz varkən doxsan da əldə hazırdır.*

Beytin məzmunu:

Əhməd adı bütün peyğəmbərlərin adıdır

Yüz əldə edilibsə, deməli, doxsan da əldə edilmişdir.

*("Əhməd" İslam peyğəmbərinin Quranda qeyd edilmiş başqa bir adıdır. Bu beytdə məqsəd odur ki, həzrət Peyğəmbər (səllallahu əleyhi və alih) digər peyğəmbərlərin hamısından üstün olub. Belə ki, o həzrət başqa peyğəmbərlərin bütün üstün cəhətlərini özündə cəmləndirmişdir. Buna görə də, sanki o bütün peyğəmbərləri təmsil edir).*

İnsanın həyatdakı məqsədləri də eynilə bu cürdür. İstər tez bir vaxtda aradan gedən ötəri məqsədlər olsun, istərsə də uzun müddət qalan məqsədlər. Misal üçün, alpinizm idman növünü seçən insan həm öz sağlamlığını təmin etmiş olur, həm də təbiətdəki gözəl mənzərələri seyr edir. Eyni zamanda, dözümlülük və iradəsini də artırmış olur. Beləcə o, üç məqsədə birdən nail olur.

Adətən bacarıqlı insanlar öz məqsədlərini elə seçirlər ki, necə deyərlər, "bir güllə ilə bir neçə dovşanı birdən vursunlar". İnsanın varlığı bir çox maddi və mənəvi məqsədlər məcmusudur. İnsanın müxtəliflik istəməsini və istəklərinin tükənməz

olduğunu nəzərə alaraq, həyatda seçəcəyimiz hədəf bu iki xüsusiyyətə nə qədər cavab verə bilərsə, onda məqsədimiz daha kamildir. Deməli, bizim əsas məqsədimiz elə bir məqsəd olmalıdır ki, müxtəlif bacarıqlarımızı özündə əhatə etmiş olsun, konkret bir bacarıqla kifayətlənməsin, varlığımızdakı kiçik fidanı barlı-bəhrəli böyük bir ağaca çevirə bilsin.

Əmirəl-möminin Əliyə (ə) fikirn verin. O, həzrət Peyğəmbərin (s) nəzarəti və tərbiyəsi altında böyüdüyü üçün bütün üstün cəhətləri özündə cəmləmişdir. Onun şəxsiyyətinə diqqət yetirdikdə görürük ki, o, həzrət Peyğəmbərdən (s) sonra elm, şücaət, natiqlik, mehribanlıq, mərdlik, ibadət, haqsevərlik və ədalət sahəsində bənzərsiz olmuşdur. Görəsən, o özü üçün hansı məqsədi seçmişdir ki, bütün bu üstünlüklərin hamısına nail ola bilmişdir? Bir daha Allahın kitabına müraciət edirik ki, öz sualımıza cavab tapa bilib həzrət Peyğəmbər (s) və Əmirəl-möminin Əlini (ə) özümüzə örnək seçmək üçün qətiyyətlə qərar verə bilək. Bununla da həzrət İbrahim peyğəmbərin (ə) yürüdüyü yolda yürüyək.

## Ayələrdəki mesaj

Dərsdə verilmiş ayələr üzərində düşünərək izah edin:

1. Verilmiş ayələrin hansından başa düşmək olar ki, Allah bütün gözəl sifətlərə sahibdir? Niyə?

……………………………………………………………………………………

2. Verilmiş ayələrin hansından bilmək olar ki, tükənməz sifətlərin hamısının mənbəyi Allahdır? Niyə?

……………………………………………………………………………………..

3. Verilmiş ayələrin hansından bilmək olar ki, Allah bütün kamilliklərin mənbəyidir? Niyə?

……………………………………………………………………………………..

4. Verilmiş ayələrin hansından bilmək olar ki, Cənnətin yaxşılıqlarının dərəcələri vardır? Niyə?

……………………………………………………………………………………

5. Verilmiş ayələr arasında bağlılıq yaradaraq necə bilmək olar ki, ən gözəl məqsəd Allaha yaxınlaşmaqdır?

……………………………………………………………………………………..

Allaha yaxınılaşmaq dedikdə məkan və zahiri baxımdan yaxınlıq nəzərdə tutulmur. Ola bilər iki nəfər eyni yerdə və məkan baxımdan bir-birinə çox yaxın olsunlar, ancaq bir-birinə qarşı qətiyyən yaxınlıq hiss etməsinlər. Allaha yaxın olmaq dedikdə həqiqi yaxınlıq başa düşülür. Allah bütün gözəllik və yaxşılıqların mənbəyidir. İnsanlar nə qədər gözəllik kəsb etsələr, Allahın gözəllik bəxş edən sifətini tərənnüm edib Ona bir o qədər yaxınlaşarlar.

Bizim din rəhbərlərimiz, başda həzrət Muhəmməd peyğəmbər (s) olmaqla qəlbən yalnız Allaha bağlanmışlar. Həyatlarını yalnız Ona qovuşmağa həsr etmişlər. Onunla təklikdə, xəlvətdə münacat edir, Ona olan sevgilərini ən gözəl ifadələrlə çatdırmışlar. İmam Zeynül-Abidin (ə) münacatlarından birində belə deyir:

| | |
|---|---|
| Ey arzulayanların qəlbinin istəyi, | يَا مُنَى قُلُوبِ الْمُشْتَاقِينَ |
| ey aşiqlərin son arzusu! | وَ يَا غَايَةَ آمَالِ الْمُحِبِّينَ |
| Səni sevməyi Səndən istəyirəm. | أَسْأَلُكَ حُبَّكَ |
| Eləcə də Səni sevənləri sevməyi, | وَ حُبَّ مَنْ يُحِبُّكَ |
| məni Sənə yaxınlaşdıracaq hər bir işi sevməyi Səndən istəyirəm. | وَ حُبَّ كُلِّ عَمَلٍ يُوصِلُنِي إِلَى قُرْبِكَ |
| İstəyirəm ki, Özünü mənim yanımda Səndən başqa hər şeydən daha sevimli edəsən, | وَ أَنْ تَجْعَلَكَ أَحَبَّ إِلَيَّ مِمَّا سِوَاكَ |
| Sənə olan sevgimi Öz razılığına doğru yönəldəsən, | وَ أَنْ تَجْعَلَ حُبِّى إِيَّاكَ قَائِداً إِلَى رِضْوَانِكَ |
| Sənə olan sevgimi Sənə itaətsizliyimdən üstün qərar ver! | وَ شَوْقِى إِلَيْكَ ذَائِداً عَنْ عِصْيَانِكَ |

Məfatihul-cinan, Sevənlərin münacatı

İstənilən şəxs azacıq düşündükdə görər ki, öz zatında gözəlliklər və yaxşılıqların mənbəyini axtarır. Ona çatmayınca rahatlıq tapmır. Sanki daxilində bir mənəvi boşluq hiss edir. Rahatlıq tapmayana qədər sakit dayanmayacaq. Deməli, insanın ən son istəyi Allahın müqəddəs zatıdır. Ondan başqa hansı bir varlıq ən böyük sevgiyə layiq ola bilər ki? Ondan başqa hansı bir varlıq insanın sonsuz ruhunu sirab edə bilər? İnsanın ruhu tükənməzdirsə, yaxşılıq və gözəllikləri də tükənməz olaraq istəyir. Buna görə də yaxşı olar ki, insanın ən son istəyi Allaha yaxınlıq olsun.

Təbii ki, bu məqsəd çox ali bir hədəf olub xoşbəxtliyi təmin etdiyi kimi, insandan güclü iradə də tələb edir. Dənizin dibindəki gövhəri çıxarmaq zəhmət tələb etdiyi kimi, ən böyük məhbuba qovuşmaq da güclü iradə tələb edir.

Yenidən ikinci dərsdə həzrət İbrahimin (əleyhissəlam) həyatı ilə bağlı qeyd etdiyimiz əhvalata qayıdırıq. Həzrət (ə) Günəşin, Ayın və ulduzların çıxdıqdan sonra batmasını müşahidə etdikdən sonra buyurur: "Mən batan şeyləri sevmirəm". Bununla İbrahim (ə), əslində, camaata başa salır ki, həyatda ötəri məqsəd ardınca getmək lazım deyil. Yalnız tükənməyən, sonsuz məqsədə doğru gedib dünyanın yaradanı olan varlığa sevgi bəsləmək lazımdır. Bütün gözəllik və yaxşılıqların mənbəyi də məhz Odur. Buna görə də O, insanın ən gözəl, ən kamil məhbubu və məqsədi olmalıdır.

*Ey dost, şəkər yaxşı, ya şəkər icad edən?*
*Nurlu qəmər yaxşı, ya qəmər icad edən?*
*Ey bağ, sən gözəlsən, ya səndə olan güllər,*
*Ya yüz ətirli nərgiz, qönçə icad edən?!*
*Ey əql, sən üstünsən elm və hikmətdə,*
*Ya hər an yüz hikmətlə əqli icad edən?*
*Ey eşq, gərki sən sərgərdan, pərişansan,*
*Verib sənə xilqətdə atəşdən kəmərbəndi.*
*Bihuş oldu əqlim, mən Ona heyranam,*
*Gah sındırar qəddim, gah başdan icad eylər.*
*Lütfündən könül bağı, Xosrov-Şirin oylağı,*
*Bir damla təfəkkürdən yüz gövhər icad eylər.*

(Mövlana, Şəms dastanı)

## Bu dərsdə öyrəndiyimiz bəzi düşüncə nümunələri

**1. Verilmiş suallara ayələrdən cavab tapmaq:** Dərsdə beş dənə sual verilmişdi. Müvafiq ayələr barədə düşünərək sualların cavabını tapın.

**2. Bir neçə ayə arasında bağlılıq yaratmaq:** "Taha" surəsinin 8-ci ayəsi ilə ................................ arasındakı bağlılıqdan məlum oldu ki, Allah-taala bütün kamilliklərin və yaxşılıqların mənşəyidir.

....................... ayə ilə ........................... ayə arasındakı bağlılıqdan məlum oldu ki, Allaha yaxınlıq və Onun razılığını qazanmaq həyatdakı üstün hədəfdir.

# İkinci addım

## Məqsəd seçimi

Həyata dərindən nəzər saldıqda öz məqsədlərimi daha yaxşı tanıyıb Allaha olan mərifətimi artırmaq istəyirəm. Allaha yaxınlıq ən ali məqsəddir. Ona olan mərifətimin artması üçün Onun Özündən yardım diləyirəm. Eyni zamanda, Onu yaxşı tanıyaraq əbədi səadətə çatmış insanların, yəni həzrət Peyğəmbər (s) və onun pak Əhli-beytinin (ə) həyatına müraciət edirəm. Onların hamısına Allahın salamı olsun!

**Allahım, çalışacağam ki, gündəlik ibadətlərimdə bu gözəl cümləni bütün varlığımla ifadə edim:**

**ايّاک نَعبُدُ وَ ايّاک نَستَعينُ**

**(Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik!)**

## Düşüncə və araşdırma

1. Aşağıda verilmiş cədvəldə əsas mesajları ardıcıllıqla qeyd edin.

| Sıra | Dərsdəki əsas mesajlar |
|---|---|
| ............ | ............................................................................................ |
| ............ | ............................................................................................ |
| ............ | ............................................................................................ |
| ............ | ............................................................................................ |
| ............ | ............................................................................................ |
| ............ | ............................................................................................ |

2. İnsanların böyüklüyü və onların həyatının əzəmətli olması nəyə bağlıdır? Niyə?

3. Aşağıdakı boşluqları doldurun:

A. Əgər məqsəd və istəklərimi düzgün seçərəmsə və hər birini ........... ....................... müəyyən edərəmsə, varlığım ...................................

B. Ən üstün məhbub ............................. çünki ..................................

4. İkinci dərs ilə dördüncü dərsin arasında nə kimi əlaqə var?

## Təklif

1. Qurana müraciət edərək "Vaqiə" surəsinin 11 və 88, "Mutəffifin" surəsinin 22 və 28, "Ali İmran" surəsinin isə 45-ci ayələri üzərində düşünün və görün ki, Allah "müqərrəb olanlar" (Allaha yaxın olanlar) barəsində nə buyurur?

2. Heç öz həyatınızın böyük seçimi bardə düşünmüsünüzmü? Bu barədə düşünün və qərarınızı verin.

## İzah edin



# Dərs 5

## Səni necə səsləyim?

Keçən dərslərimizdə həyatda insanın əsas hədəflərinin nədən ibarət olduğunu, insanın ən gözəl məhbub və məqsədinin də hansı olduğunu öyrəndik. Uca Allaha olan sevgimizi artırmaqdan və Ona yaxınlaşmaqdan ötrü Yaradanımızı daha dərindən və daha artıq tanımalıyıq. Bu səbəbdən, hazırki dərsdə Allahı yaxşı tanımağın yollarını araşdıracağıq. Hansı yollarla Onun sifətlərini daha yaxşı dərk edə bilərik?

## Qiraət

أَعوذُ بِالله مِنَ الشَّيطانِ الرَّجيم

بِسمِ اللَّهِ الرَّحمنِ الرَّحيم

| | |
|---|---|
| ................................ | فاطِرُ السَّماواتِ وَالْاَرضِ |
| sizin üçün özünüzdən (öz cinsinizdən) | جَعَلَ لَكُمْ مِنْ اَنْفُسِكُمْ اَزْواجًا |
| zövcələr, heyvanlardan da (erkək və dişi olmaqla) | وَمِنَ الْاَنْعامِ اَزْواجًا |
| cütlər yaratmışdır. O sizi bu minvalla çoxaldır. | يَذْرَؤُكُمْ فيهِ |
| ................................ | لَيْسَ كَمِثْلِهِ شَيءٌ |
| ................................ | وَهُوَ السَّميعُ الْبَصيرُ |

Şura surəsi, 11-ci ayə

| | |
|---|---|
| Ən yüksək sifət yalnız Ona məxsusdur | وَلَهُ الْمَثَلُ الْاَعْلى |
| ................................ | فِى السَّماواتِ وَالْاَرْضِ |
| ................................ | وَهُوَ الْعَزيزُ الْحَكيمُ |

Rum surəsi, 27-ci ayə

| | |
|---|---|
| Yerdə (Allaha) tam yəqinliklə inananlar üçün əlamətlər vardır. | وَ فِى الْاَرْضِ ءاياتٌ لِلْموقِنينَ |
| Sizin özünüzdə də (sizi yaradanın birliyini sübut edən) əlamətlər vardır. | وَ فى اَنْفُسِكُمْ |
| Məgər görmürsünüz? | اَفَلا تُبْصِرونَ |

Zariyat surəsi, 20-21-ci ayələr

| | |
|---|---|
| Sənin Rəbbin - yenilməz qüvvət sahibi (mülkündə hər | سُبْحانَ رَبِّكَ رَبِّ الْعِزَّةِ |
| şeyə qalib) olan Rəbbin (müşriklərin) Ona aid etdikləri sifətlərdən | عَمّا يَصِفونَ |
| tamamilə uzaqdır! | |

Saffat surəsi, 180-ci ayə

| | |
|---|---|
| .................................. | وَ ءايَةٌ لَهُمُ الْاَرْضُ الْمَيْتَةُ |
| Biz onu (yağışla) dirildir, | اَحْيَيْناها |
| .................................. | وَ اَخْرَجْنا مِنْها حَبًّا |
| .................................. | فَمِنْهُ يَأْكُلونَ |

Yasin surəsi, 33-cü ayə

| | |
|---|---|
| .................................. | وَ جَعَلْنا فيها جَنّاتٍ |
| .................................. | مِنْ نَخيلٍ وَ اَعْنابٍ |
| .................................. | وَ فَجَّرْنا فيها مِنَ الْعُيونِ |

Yasin surəsi, 34-cü ayə

| | |
|---|---|
| Onların meyvələrindən yesinlər. | لِيَأْكُلوا مِنْ ثَمَرِهِ |
| Halbuki onların yaranmasında heç bir rol oynamırlar. | وَ ما عَمِلَتْهُ اَيْديهِمْ |
| .................................. | اَفَلا يَشْكُرونَ |

Yasin surəsi, 35-ci ayə

| | |
|---|---|
| سُبْحانَ الَّذى | ................................... |
| خَلَقَ الْاَزْواجَ كُلَّها | ................................... |
| مِمّا تُنْبِتُ الْاَرْضُ | Yerin yetişdirdiklərindən, |
| وَ مِنْ اَنْفُسِهِمْ | ................................... |
| وَ مِمّا لا يَعْلَمونَ | ................................... |

Yasin surəsi, 36-cı ayə

| | |
|---|---|
| وَ ءايَةٌ لَهُمُ اللَّيْلُ | ................................... |
| نَسْلَخُ مِنْهُ النَّهارَ | Biz gündüzü ondan sıyırıb çıxardan kimi |
| فَاِذا هُمْ مُظْلِمونَ | onlar zülmət içində olarlar. |

Yasin surəsi, 37-ci ayə

| | |
|---|---|
| وَ الشَّمْسُ تَجْرى | ................................... |
| لِمُسْتَقَرٍّ لَها | özü üçün müəyyən olunmuş yerdə |
| ذلِكَ تَقْديرُ الْعَزيزِ الْعَليمِ | ................................... |

Yasin surəsi, 38-ci ayə

وَ الْقَمَرَ قَدَّرْناهُ مَنازِلَ
حَتّى عادَ كَالْعُرْجونِ الْقَديمِ

Biz ay üçün də mənzillər müəyyən etdik. Nəhayət, o (həmin mənzilləri başa vurduqdan sonra) dönüb xurma ağacının quruyub əyilmiş köhnə budağı kimi (hilal şəklində) olar.

Yasin surəsi, 39-cu ayə

## Tərcümə

Aşağıdakı izahların köməyi ilə yuxarıda verilmiş ayələrin tərcüməsini tamamlayın.

| | | | |
|---|---|---|---|
| فَاطِر | Yaradan | الْعُيُون | bulaqlar |
| الْمَيْتَة | ölü | مِمّا | MİN+ MA |
| يَأْكُلُونَ | yeyirlər | فَجَّرْنا | qaynatdıq |
| نَخِيل | xurma ağacları | تَجْرى | seyr edər |
| اَعْناب | üzüm bağları | تَقدير | təqdir, əzəli hökm |
| حَبّ | toxum, dən | | |

## Mətn barədə düşünmə

Allah ilə münacatdan ibarət olan aşağıdakı mətni əvvəlcə oxuyun. Sonra isə onun ifadələri barədə dərindən düşünərək verilmiş sualları cavablandırın.

- Mən Sənin vəsfində nə deyə bilərəm?! Mən Səni necə səsləyim? Sənə bəndə olduğumu necə ifadə edim?

*Ey xəyal, müqayisə, güman və düşüncədən üstün olan!*
*Bütün gördüklərimiz, eşitdiklərimiz və oxuduqlarımızdan üstün olan![1]*

Səni hansı sözlərlə dilimə gətirim?
Dərin düşüncələr və uca məramlar Sənin müqəddəs dərgahına yol tapa bilməz.
Mərifət yolunun yolçuları Səni layiq olduğun kimi tanıya bilməmişlər.

ما عَرَفناكَ حَقَّ مَعرِفَتِك

Səni layiq olduğun kimi tanıya bilmədik.[2]

*Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih)*

---

1. Sədi Şirazi
2. Biharul-ənvar, c. 71, səh. 3

Məhdud düşüncələr öz tükənməz Yaradanını tam olaraq necə dərk edə bilər? Naqis olan məxluq kamil olan Xaliqi tam olaraq necə anlaya bilər?

• • Allahım, düşüncə gözlərinin Sənin bənzərsiz zatını görməyə imkanı çatmaz. Mən Səni layiq olduğun kimi anlaya bilməkdən məhrumam. Sənə sadəcə varlıq olaraq baxıram. Sənin sifətlərini məxluqatdakı sifətlərdə axtarıram. Varlıq kitabını vərəqləyib Sənin gözəl adlarını oxuyuram.

Allahım, bu ucsuz-bucaqsız dünyanın hər nöqtəsində Sənin adın zümzümə edilir. Hər insanda, hər şeydə Sənin nişanən vardır, Səndən danışır və Sənə doğru gedir. Dünyadakı gözəlliklər Sənin camalının təcəllisidir, yaxşılıqlar Sənin kamalından xəbər verir, ucalıqlar Sənin əzəmətindən nişanədir.

İlahi, əgər Sən Özün bu gözəlliklərin və kamalın sahibi olmasaydın, başqalarına necə gözəllik və kamal bəxş edərdin?

Ey mənim Allahım, Səni bütün gözəlliklərin adı ilə, bütün gözəl adlarınla səsləyirəm. *(“وَلِلّٰهِ الأَسْمَاءُ الْحُسْنَى فَادْعُوهُ بِهَا” - Ən gözəl adlar (əsmayi-hüsna) Allahındır. Onu bu adlarla çağırıb dua edin.- ayəsinə işarədir. (Əraf surəsi, 180-ci ayə)*

Allahım, varlıq kitabı ilə yanaşı həyat kitabını da vərəqləyirəm. Bu Sənin kitabındır. Onu mənə Sən Özün hədiyyə etmisən. O kitabda da bizi varlıq kitabını vərəqləməyə dəvət etmisən. Həyat kitabının bəzi nişanələrini bizim üçün izah etmisən ki, həmin nişanələrin arasında Sənin gözəl adlarını tapaq.

Allahım, mənim üçün ən gözəl adlar o adlardır ki, Sən Özün-Özünü həmin adlarla çağırıb kitabının hər bir səhifəsini onlarla bəzəmisən. Mən bu adların hər birini bu kitabda axtarıb tapacaq, Səni məhz o adlarla səsləyərək ürək sirlərimi deyəcəyəm.

• • Ey mənim Allahım, Sənin lütf və mərhəmətin dünyada yayılsa da, yaxşılıqların bütün dünyanı bürüsə də bilirəm ki, Sən onların heç biri kimi deyilsən. Çünki Sən yaradansan, onlar isə yaradılmışlar. Sən nurun mənbəyisən, onlar isə nurun şüası. Sən ucsuz-bucaqsız bir okeansan, onlar isə dağlardan axan xırda sellərdir. Hamısı naqisdir, Sən isə kamilsən, hamı məhduddur, Sən isə tükənməzsən, hamı fanidir, Sən isə əbədisən.

Belə olduğu halda, Səni Səndən başqası ilə necə müqayisə etmək olar? O ki qalsın Sənin üçün bənzər və oxşar təsəvvür edilməsinə! Elə isə, ey mənim Allahım, Səni Səndən başqa heç kim və heç nə ilə müqayisə etmədən yaşayış və həyat kitabında gözəl adlarını tapmaqda mənə yardımçı ol! Onları qəlbimin səhifəsinə yazım, hər səhər günümə onlarla başlayıb hər axşam onları dilə gətirməklə günümü onlarla başa vurum!



Verilmiş mətni mütaliə etdikdən sonra aşağıdakı sualları cavablandırın:

1. Münacatın birinci hissəsi barədə düşünərək deyin görək, nə üçün Allahı layiq olduğu kimi tanımaq olmaz? Hansı ayə bu həqiqətə işarə edir?

Müqəddimə: ..............................................................................
..............................................................................
..............................................................................
..............................................................................

Nəticə: ..............................................................................
..............................................................................

Ayə: ..............................................................................
..............................................................................

2. Münacatın ikinci hissəsinə diqqət yetirərək Allahı tanımaq və Onu vəsf etmək üçün hansı yolun tövsiyə edildiyini izah edin. Niyə? Hansı ayələr bu həqiqəti ifadə edir?

Müqəddimə: ..............................................................................
..............................................................................
..............................................................................
..............................................................................

Nəticə: ..............................................................................
..............................................................................

Ayə: ..............................................................................
..............................................................................

3. Münacatın üçüncü hissəsi barədə düşünərək deyin görək, nəyə görə Allah məxluqlar kimi deyil? Hansı ayələr bu həqiqəti bəyan edir?

Müqəddimə: ..............................................................................
..............................................................................
..............................................................................
..............................................................................

Nəticə: ..............................................................................
..............................................................................

Ayə: ..............................................................................
..............................................................................

## Ayələrdəki mesaj

Aşağıdakı cədvəldə Allahın bəzi adları verilmişdir. Hər bir adın izahını verin və qarşısında ona uyğun gələn ayənin nömrəsini qeyd edin.

| | | |
|---|---|---|
| مُحْيِي | | |
| قادِر | Allah məxluqatı diriltməyə, ulduzları nizamlı şəkildə hərəkətə gətirməyə və ... qadirdir. | Yasin 33, 39 |
| رازِق | | |
| خالِق | | |
| مُدَبِّر | | |
| مُقَدِّر | | |
| حَكيم | | |
| رَحيم | | |
| عَليم | | |

## Bu dərsdə öyrəndiyimiz düşüncə nümunələri

**1. Ayəni meyar götürmək:** Bu dərsdə təqdim olunmuş mətn dərsdə verilmiş ayələrdən istifadə edərək hazırlanmışdır. Məlum olur ki, mətndə qeyd olunanlar verilmiş ayələr əsasında əldə edilir.

**2. Ayədən məfhumun əldə edilməsi:** Bu dərsdə verilmiş ayələrin köməyi ilə “قادِر” ,“مُحْيِي” və “رازِق” kimi məfhumlar başa düşülür.

## Düşünmə və araşdırma

1. Aşağıdakı cədvələ uyğun bir cədvəl tərtib edərək Allahın Tövhid və Həmd surələrində, habelə Bəqərə surəsinin 255-256-cı və Ali İmran surəsinin dördüncü ayələrindəki ad və sifətlərini[1] qeyd edin.

| Sıra | Surənin adı | Allahın adı və sifəti |
|---|---|---|
| 1 | Tövhid | اللّه، أَحَد ....... |
| 2 | Həmd | اللّه، رَبّ ....... |
| 3 | ....... | ....... |
| ....... | ....... | ....... |
| ....... | ....... | ....... |

1. Allahın bir sıra adları vardır. Bu adlar Onun sifətlərindən götürülmüşdür. Məsələn, Allahın elm və qüdrət sifətləri olduğu üçün Onu “Alim” və “Qadir” adlandırırıq. Bunu nəzərə alaraq, “Allahın ad və sifətlərini yazın” dedikdə, ad, yoxsa sifət kimi yazılmasının heç bir fərqi yoxdur.

2- Aşağıdakı cədvəlin bir sütununda Qurani-Kərimdən bəzi ayələr, digər sütunda isə bəzi cümlələr yazılmışdır. Hansı cümlənin hansı ayənin məzmununa uyğun olduğunu müəyyən edin.

| | | |
|---|---|---|
| 1 | وَخَلَقَ كُلَّ شَىْءٍ فَقَدَّرَهُ تَقْدِيرًا<br>Furqan surəsi, 2 | Sən mənimlə birlikdə olduğun halda mən Səndən necə qəflətdə qala bilərəm? |
| 2 | وَ إِيَّاكَ نَسْتَعِينُ<br>Həmd surəsi, 5 | Səndən başqa kimə üz tuta bilərəm? |
| 3 | قُلْ اَعوذُ بِرَبِّ الْفَلَقِ<br>Fələq, 1 | Səndən başqa kimdən mədəd diləyə bilərəm? |
| 4 | وَ نَحْنُ اَقْرَبُ اِلَيْهِ مِنْ حَبْلِ الْوَرِيدِ<br>Qaf surəsi, 16 | Sənsiz heçdirlər, yoxsuldurlar. Sənsiz yoxluğa məhkumdurlar. |
| 5 | قُلْ اِنَّ صَلاتى وَ نُسُكى وَ مَحْياىَ وَ مَماتى لِلّٰهِ رَبِّ الْعالَمينَ<br>Ənam surəsi, 162 | Bizə elə bir gözəl həyat nəsib et ki, Səni yad edərək Sənin üçün və Sənə doğru yaşayaq! |
| 6 | كُلُّ مَنْ عَلَيْها فانٍ وَ يَبْقىٰ وَجْهُ رَبِّكَ ذُوالْجَلالِ وَ الْاِكْرامِ<br>Rəhman surəsi, 26-27 | Hədləri Sən müəyyən etmisən. Hər bir məxluqun nəsibini də Sən təyin etmisən. |

## Təklif

1. Kumeyl və ya Cövşən-kəbir duasından bəzi hissələri oxuyub onların barəsində düşünərək Allahın on beş sifətini qeyd edin.

2. Ümid edirik ki, siz bu dərsin mətnində veriləndən daha gözəl şəkildə Allahla münacat edib həm Onu vəsf edəcək, həm də öz istəklərinizi Ona bildirəcəksiniz.

Yazdığınız gözəl mətni və ya şeiri qeyd edin.



## Dərs 6

# Məhbubun şükrü və zikri

Keçən dərsdə öyrəndik ki, iki yolla Allahın sifətlərini dərk edə bilərik: biri yaradılış kitabında təfəkkür edərək, digəri isə həyat kitabında (Quranda) təfəkkür etməklə.

Misal üçün, məxluqat arasındakı nizam-intizamı və onların yaradılışında bir məqsəd olduğunu gördükdə başa düşürük ki, Allah hikmət sahibidir. Eləcə də Qurani-kərimi açıb "Bismillahir Rəhmanir Rəhim" cümləsi ilə qarşılaşdıqda başa düşürük ki, Allah mehriban və mərhəmətlidir. Bu yolla Allahın varlığındakı gözəllikləri görüb Ona olan sevgimizi daha da artırırıq.

Bunun davamı olaraq hazırki dərsdə öyrənmək istəyirik ki:

1. Allahın hansı sifətləri vardır? Niyə?
2. Allah hansı sifətlərdən pak və uzaqdır? Niyə?

## Qiraət

Aşağıda verilmiş ayələri diqqətlə və gözəl şəkildə oxuyun:

أَعوذُ بالله مِنَ الشَّيطان الرَّجيم
بِسمِ اللَّهِ الرَّحمنِ الرَّحيم

هُوَ اللّٰهُ الَّذى لا اِلٰهَ اِلّا هُوَ ................................

عالِمُ الْغَيْبِ وَ الشَّهادَةِ ................................

هُوَ الرَّحْمٰنُ الرَّحيمُ ................................

Həşr surəsi, 22-ci ayə

هُوَ اللّٰهُ الَّذى لا اِلٰهَ اِلّا هُوَ ................................

الْمَلِكُ الْقُدّوسُ mülkün (bütün məxluqatın) sahibi, müqəddəs (pak) olan, (bəndələrinə)

السَّلامُ الْمُؤمِنُ salamatlıq, əmin-amanlıq bəxş edən, (hər şeydən) göz-qulaq olub (onu)

الْمُهَيْمِنُ الْعَزيزُ qoruyan, yenilməz qüvvət sahibi, (hamını istədiyi hər hansı bir şeyə)

الْجَبّارُ الْمُتَكَبِّرُ məcbur etməyə qadir olan, (hər şeydən) böyük (hər şeyin fövqündə) olan

سُبْحانَ اللّٰهِ عَمّا يُشْرِكونَ ................................

Həşr surəsi, 23-cü ayə

هُوَ اللّٰهُ الْخالِقُ الْبارِئُ الْمُصَوِّرُ ................................

لَهُ الْاَسْماءُ الْحُسْنىٰ ................................

يُسَبِّحُ لَهُ ما فِى السَّماواتِ وَ الْاَرْضِ ................................

وَ هُوَ الْعَزيزُ الْحَكيمُ ................................

Həşr surəsi, 24-cü ayə

| | |
|---|---|
| Cinləri (Allah) yaratdığı halda, (kafirlər və cahillər) | وَ جَعَلوا لِلّٰهِ شُرَكاءَ الْجِنَّ |
| onları Allaha şərik qoşdular, (nəyə inandıqlarını, nə danışdıqlarını) | وَ خَلَقَهُمْ |
| bilmədən (özlərindən) Onun üçün oğullar və qızlar | وَ خَرَقوا لَهُ بَنينَ وَ بَناتٍ |
| uydurub düzəltdilər. | بِغَيْرِ عِلْمٍ |
| .................................. | سُبْحانَهُ وَ تَعالىٰ عَمّا يَصِفونَ |

Ənam surəsi, 100-cü ayə

## Tərcümə

Aşağıdakı izahların köməyi ilə yuxarıda verilmiş ayələrin tərcüməsini tamamlayın.

الشَّهادَة : aşkar

المُصَوِّر : (hər şeyə) surət verən

يُشْرِكونَ : (Allaha) şərik qoşurlar

تَعالىٰ : yüksəkdə durur

بارِئ : yoxdan var edən

## Ayələrdəki mesaj

1. Allah bütün yaxşı və gözəl sifətlərə, adlara malikdir.
2. Bu sifətlərdən bəzisi ibarətdir:.......................................
.......................................................................................
3. Allah nöqsan və çatışmazlıqdan xəbər verən istənilən sifətdən uzaqdır.
4. Bu sifətlərdən bəzisi bunlardır: ......................................
.......................................................................................

İndi isə bu mesajlar barəsində düşünək:

Birincisi: Nə üçün Allah bütün yaxşı sifətlərə malikdir?

Bunun səbəbi aşağıdakı kimidir:

Müqəddimə: Allah kamil bir varlıqdır. Kamil olan varlıq bütün yaxşı sifətləri özündə əhatə etməlidir. Əgər yaxşı sifətlərin hamısına malik olub yalnız birinə malik olmasa, yenə də naqis sayılar. Naqis olduğu üçün kamillikdən çıxıb başqasına möhtac olar.

Nəticə: Deməli, Allah bütün yaxşı sifətlərə malikdir.

İkincisi, Nə üçün Allah nöqsan sifətlərindən uzaq olmalıdır?

Bu sualın da cavabına birinci sualın cavabında qeyd edilmiş səbəblə aydınlıq gəlir.

Allahın barəsində hər hansı bir nöqsanı qəbul etmək Onun kamil olmadığı, başqasına möhtac olduğu anlamına gəlir. Halbuki ehtiyacı olan yalnız məxluqlardır. Onların hamısı Allaha möhtacdır. Allah isə ehtiyacdan uzaqdır.

Burada qarşıya belə bir sual çıxa bilər: Əgər dünyadakı məxluqlar Allahın nişanələridirlərsə və onların vasitəsilə onları yaradanın sifətlərini dərk edə biliriksə, onda məxluqatda gördüyümüz bütün sifətləri Allaha aid etmək olarmı? Misal üçün, Allahın cisim olduğunu, zaman və məkana aid olduğunu söyləmək olarmı?

Bu suala cavab olaraq qeyd edirik: Məxluqatdakı bütün gözəlliklər Allah tərəfindən onlara verilmişdir.

Yalnız o varlıq başqalarına kamal və gözəllik bəxş edə bilər ki, özü onlara malik olsun. Deməli, Allah bütün yaxşılıqların mənbəyidir.

Məxluqatın naqis olmasından qaynaqlanan sifətlərə gəldikdə isə onların heç biri Allahda yoxdur. Məsələn, elmin olmaması anlamına gələn nadanlıq, ədalətin olmaması anlamına gələn zülm (haqsızlıq), qüdrətin olmaması anlamına gələn zəiflik (bacarıqsızlıq), məkan və zaman məhdudluğu anlamına gələn cisimlik, bunların hər biri bir növ nöqsan və çatışmazlıq sayılır. Bunlar Allahın sahib ola biləcəyi şeylər deyil.

Bundan belə nəticəyə gəlirik ki: Allaha aid edilən sifətlər iki hissəyə bölünür:

1. Kamal xüsusiyyəti daşıyan sifətlər. Məsələn, qüdrət, elm, ədalət, mərhəmət, ruzi vermək, həyat, mehribanlıq, bağışlamaq, hikmət, izzət, kəramət. Belə sifətlərə "sübuti sifətlər" deyilir. Onları Allaha aid edirik, yəni Allah bu sifətlərə malikdir.

2. Nöqsan və çatışmazlıq xüsusiyyəti daşıyan sifətlər. Məsələn, nadanlıq, acizlik, yoxsulluq, ölüm, ata-anaya möhtac olmaq, övlada möhtac olmaq. Belə sifətlərə "səlbi sifətlər" deyilir. Belə ki, Allahda belə sifətlər yoxdur, O bu kimi sifətlərdən uzaq və pakdır.

## Ayırıb fərqləndirin

Bundan əvvəlki və hazırki dərsdə verilmiş ayələrdə və tapşırıqlarda qeyd edilmiş sifətləri tapın. Onlardan hansının sübuti, hansının səlbi sifət olduğunu müəyyən edib aşağıdakı cədvəl formasında yazın.

| Sübuti sifətlər | Səlbi sifətlər |
|---|---|
| ........................................ | ........................................ |
| ........................................ | ........................................ |
| ........................................ | ........................................ |

**Həmd və təsbih**

"Həmd" Allaha şükür etmək, "təsbih" isə Onu pak hesab etməkdir. "Əlhəmdu lillah" dedikdə "şükür yalnız Allaha məxsusdur" mənası nəzərdə tutulur. "Subhanəllah" dedikdə isə onu nəzərdə tuturuq ki, Allah hər bir nöqsan və çatışmazlıqdan uzaq və pakdır. O varlıq şükür edilməyə layiqdir ki, bütün gözəllik və yaxşılıqlara sahib olsun. İmam Əlini (əleyhissəlam) şücaət, elm, ibadət və ədalətinə görə, Əbuzəri ədalətsevərliyinə görə, İbn Sinanı dərin təfəkkür qabiliyyətinə görə, Ayətullah Ruhullah Musəvi inqilab, mübarizə və arifliyinə görə alqışlayırıq. Bilirik ki, dünyadakı bütün yaxşılıq və gözəlliklər Allah tərəfindəndir. Deməli, əsl şükür və həmd də yalnız Ona məxsusdur!

"İlahi, Sən dünyanın Rəbbisən", "Sən mərhəmətli və bağışlayansan" dedikdə Ona həmd etmiş oluruq. Allaha həmd edərkən Onun sübuti sifətlərini bəyan etmiş oluruq. Allahı təsbih etdikdə isə Onu səlbi sifətlərdən uzaq hesab etmiş oluruq.Yəni demək istəyirik ki, İlahi, Sənin heç nəyə ehtiyacın yoxdur, Sənin şərikin yoxdur, Sənin övladın yoxdur və s.

Beşinci dərsin adı "Səni necə səsləyim?" idi. İndi isə biz artıq Allahı necə səsləməli olduğumuzu öyrənmişik. Onu gözəl adları ilə səsləyir və bütün pis sifətlərdən uzaq olduğunu bildiririk.

## Ayırıb fərqləndirin

Növbəti səhifədə verilmiş şeir formasında olan gözəl münacata diqqət yetirin. Orada şair Allahın sübuti və səlbi sifətlərindən istifadə etmişdir. Həmin sifətləri seçib bir-birindən fərqləndirin.

Sübuti sifətlər: ...............................................................................

...................................................................................................

Səlbi sifətlər: .................................................................................

...................................................................................................

*Sahiba! Zikrin söylərəm ki, Sən paksan, Xudasan,*
*Getmərəm başqa yol ilə ki, orda məndən cudasan!*
*Cəhdlərim dərgahına doğru, Sənə və lütfünə heyran*
*Söylərəm mən vahidliyindən ki, zatında ucasan.*
*Sən həkimsən, kərimsən, əzimsən və rəhimsən,*
*Bürüyüb aləmi fəzlin ki, gözəl tərifə layiq.*
*Hər möhnətdən uzaqsan, dərdi-dövrandan uzaqsan,*
*Arzu, istəklə bərabər, sorğu-sualdan da uzaqsan.*
*Səni vəsf edənlər aciz, dərk və idrakdan uzaqsan,*
*Demərəm ki, misalsan, olan hər əmsaldan uzaqsan.*
*Xəlq yox idi, Sən var idin, nəhayət də olacaqsan,*
*Hərəkətlər Sənə yaddır, var-gəl etməkdən uzaqsan.*
*Bütün izzət və cəlalı, bütün elmi və yəqini,*
*Mükafat və cəzanı, həm zavalı Sən bilirsən,*
*Həm də qeybi Sən bilənsən,  günaha qələm çəkənsən,*
*Çox olanlardan azaldıb, az olanlara qatansan.*
*Bənzərin, bərabərin yox, biniyazsan hər bir şeydən,*
*"Mülk kimindir?!" - söyləsən Sən, deyərəm: "Layiqi Sənsən!"*
*Dil-dodağım, Sənai, hamısı tövhiddən əsərdir,*
*Atəşdən qurtulmaq üçün deyilən söz bir kəsərdir.*

Sənai



## Bu dərsdə öyrəndiyimiz düşüncə nümunələri

**1. Ayədəki mesajın əldə edilməsi:** ............................................. ayəsindən öyrəndik ki, Allah bütün gözəl sifətlərə sahibdir.

.................................. ayəsi üzərində düşünərək öyrəndik ki, Allahda nöqsan xüsusiyyəti daşıyan sifətlərin heç biri yoxdur.

**2. Nümunələr tapmaq:** ............................... ayələrini oxuyaraq bəndələri üçün salamatlıq, onlara əmin-amanlıq bəxş etməyin və yenilməz qüvvət sahibi olmağın gözəl sifətlərdən olduğunu öyrəndik. Şəriki olmaq, övladı olmaq kimi sifətlərin isə nöqsan sifətlərindən olduğunu bildik.

**3. Bir Quran mesajını əsaslandırma:** Quran ayələrindən bu iki mesajı əldə edib Allahın gözəl sifətlərə sahib, nöqsan sifətlərdən isə uzaq olduğunu bildikdən sonra bunun səbəbi də izah edildi.

## Düşünmə və araşdırma

**A.**

1. Allahın bəzi sifətlərlə vəsf edilməsinin meyarı nədir?
2. Nə üçün bəzi sifətləri Allaha aid etmək olmaz?
3. Allahın sifətləri ilə insanların sifətləri arasında nə kimi fərq var?

**B.**

Allaha həmd edilməsini ehtiva edən dörd cümlədən ibarət bir münacat yazın. Allahın nöqsan sifətlərdən uzaq olduğunu ehtiva edən dörd cümlədən ibarət təsbih yazın.

## Təklif

1.Bilirsiniz ki, Allah cisim deyil. Onun şəriki də yoxdur..

Bu iki səlbi sifət barədə araşdırma aparıb əldə etdiyiniz nəticəni məqalə şəklində yazaraq sinifdə oxuyun.

2. Ali İmran surəsinin 54 və 150, Maidə surəsinin 57, Ənam surəsinin 87 və 89, Əraf surəsinin 155, Yusuf surəsinin 64, Ənbiya surəsinin 89, Həcc surəsinin 58 və Muminun surəsinin 109-cu ayələrinə müraciət etməklə Allahın Özünü ən üstün adlandırdığı sifətləri tapın.



## Dərs 7

# İman pənahında

Təkcə məqsəd tanımaq ona doğru hərəkət etmək üçün kifayət etmir. Quran həmin məqsədə inanmağı da lazım bilmişdir. Hazırki dərsdə imanın rolunu müəyyənləşdirib aşağıdakı suallara cavab tapmağa çalışacağıq:

1. İmanın mahiyyəti nədir?
2. Məqsədi tanımaqdan əlavə nə üçün ona inanmaq lazımdır?
3. Tanımaqla iman arasında nə fərq var?

## Qiraət

**Aşağıda verilmiş ayələri diqqətlə və gözəl şəkildə oxuyun.**

اَعوذُ بِالله مِنَ الشَّيطانِ الرَّجيم
بِسمِ اللهِ الرَّحمنِ الرَّحيم

| | |
|---|---|
| ................................ | اِنَّ هٰذَا الْقُرْءانَ |
| ən doğru yola yönəldir, | يَهْدى لِلَّتى هِىَ اَقْوَمُ |
| ................................ | وَ يُبَشِّرُ الْمُؤْمِنينَ |
| ................................ | الَّذينَ يَعْمَلونَ الصّالِحاتِ |
| ................................ | اَنَّ لَهُمْ اَجْرًا كَبيرًا |

İsra surəsi, 9-cu ayə

| | |
|---|---|
| ................................ | مَنْ عَمِلَ صالِحًا |
| kişi və qadına | مِنْ ذَكَرٍ اَوْ اُنْثى |
| ................................ | وَ هُوَ مُؤْمِنٌ |
| xoş həyat nəsib edəcək və etdikləri | فَلَنُحْيِيَنَّهُ حَياةً طَيِّبَةً |
| ən yaxşı əməllərə görə | وَ لَنَجْزِيَنَّهُمْ اَجْرَهُمْ |
| mükafatlarını verəcəyik. | بِاَحْسَنِ ما كانوا يَعْمَلونَ |

Nəhl surəsi, 97-ci ayə

| | |
|---|---|
| Bədəvi ərəblər: “Biz iman gətirdik!” - dedilər. | قَالَتِ الْاَعْرابُ اٰمَنّا |
| (Ya Peyğəmbər! Onlara) de: “Siz (qəlbən) iman gətirmədiniz!” | قُلْ لَمْ تُؤْمِنُوا |
| Ancaq: “Biz islamı qəbul etdik!” - deyin. | وَ لٰكِنْ قُولُوا اَسْلَمْنا |
| Hələ iman sizin qəlblərinizə daxil olmamışdır. | وَ لَمّا يَدْخُلِ الْايمانُ فى قُلُوبِكُمْ |
| ................................ | وَ اِنْ تُطيعُوا اللّٰهَ وَ رَسُولَهُ |
| O sizin əməllərinizdən heç bir şey əskiltməz. | لا يَلِتْكُمْ مِنْ اَعْمالِكُمْ شَيْئًا |
| ................................ | اِنَّ اللّٰهَ غَفُورٌ رَحيمٌ |

Hucurat surəsi, 14-cü ayə

## Tərcümə

Aşağıdakı izahların köməyi ilə yuxarıda verilmiş ayələrin tərcüməsini tamamlayın.

| | | | |
|---|---|---|---|
| itaət etsəniz | تُطيعوا : | müjdə verir | يُبَشِّرُ : |

### Öz mərifətimizi əməli şəkildə necə həyata keçirə bilərik?

Bir çox hallarda insan hər hansı bir işin fayda verəcəyini bilsə də onu həyata keçirməkdə səhlənkarlığa yol verir. Eləcə də bəzi işlərin ziyan verəcəyini bilir, ancaq yenə də həmin işləri görür. Məsələn, bilirik ki, gün ərzində bir neçə dəqiqə idmanla məşğul olmaq və ya axşam tez yatıb səhər tez durmaq gün ərzində insanı daha enerjili saxlayır, ancaq bir çoxumuz bunu həyata keçirmirik.

Bu və ya digər qanunu pozan insanlar səhv etdiklərini yaxşı bilir, öz səhvini etiraf edirlər. Əməlinin necə ziyan verəcəyindən də xəbərdardır, bununla belə yenə də öz işlərindən qalmırlar.

Bir sıra işlərin müsbət nəticə verəcəyini bildiyimiz halda, bəs nə üçün onlara əməl etmirik? Eləcə də əksinə, bəzi işlərin mənfi nəticə verəcəyini bildiyimiz halda nəyə görə həmin işlərdən uzaq durmuruq?

Bu suallara cavab tapmaqdan ötrü bir daha dərsin əvvəlində təqdim etdiyimiz ayələrə müraciət edək.

## Ayələrdəki mesaj

| Dərsin əvvəlində təqdim edilən ayələr üzərində düşünərək aşağıdakı cümlələri tamamlayın. | Ayənin nömrəsi |
|---|---|
| 1. İmanla yaxşı əməl arasında bağlılıq vardır. "..............." "..................." nəticəsidir. | |
| 2. İman yaxşı əməlin qiymətləndirilməsi üçün bir meyardır. Çünki ........................................................................................ | |
| 3. Ola bilər kimsə dildə iman gətirdiyini bildirsin, əslində isə imansız olsun. Çünki iman ............... bağlı olan bir həqiqətdir və onun yeri ........... | |

Beləliklə, aydın oldu ki, yaxşı bir iş nəticəsində böyük bir məqsədə çatılır və ya insan səadətə aparan yola gedib çıxır. Bu iş yalnız o vaxt baş tutar ki, öz bilgimizə imanımız olsun, qəlbən inanaq. Elm və bilgi insana yolu göstərən çırağa bənzəyir. İnsanın sadəcə çırağa malik olması onun həmin yolda addımlaması üçün yetərli deyil. İnsanın öz bildiyinə imanı, qəlbən inanması onu həmin məqsədə doğru getməsinə zəmin yaradır. Başqa sözlə desək, iman insanı əmələ tərəf sövq edən aparıcı qüvvədir. Məhz bunu nəzərə alaraq, İmam Əli (əleyhissəlam) belə buyurmuşdur:

*"İman ilə əməl əkiz qardaş,*
*bir-birindən*
*ayrılmayan yoldaşdır".*

الْايمانُ وَ الْعَمَلُ
اَخَوانِ تَوْاَمانِ
وَ رَفيقانِ لايَفْتَرِقانِ

*Ğürərül-hikəm və dürərül-kəlim, c. 2, səh. 136*

**İmanın mahiyyəti**

İndi ortaya belə bir sual çıxır: İman nədir və onun yeri haradır?

İnsan öz ağıl və düşüncəsi ilə fikirləşib elm əldə edir. Deməli, elmin yeri insanın ağıl və düşüncəsidir. Qurani-kərim imanın yerinin qəlbdə olduğunu bildirir. Ağıl dərk etmək üçün bir vasitədir. Ağıl Allahın ayələri barədə düşünərək yaxşını pisdən ayırd edib bizə tanıtdıra bilər. Lakin yaxşılıqları seçib onlara doğru getmək üçün ağlın onları tanıması kifayət etmir. Buna görə də bu işdə qəlb mütləq ağıla kömək etməlidir.

Qəlb insan varlığının əsas mərkəzidir. Nəyəsə rəğbət bəsləyir və ya kimisə seviriksə, yaxud nəyəsə ikrah edib və ya kiməsə nifrət bəsləyiriksə, bu bilavasitə qəlbə bağlı olan bir məsələdir. Gah eşq, məhəbbət, sevgi ilə dolan, gah da nifrət, kin-küdurət və düşmənçilikdən coşub-daşan məhz qəlbdir. Bəzən son dərəcə arxayın olan, bəzən isə narahatlıqdan çırpınan da qəlbdir. Bəzi hallarda yəqinlə dolu olan, bəzən isə şübhə içində qalan qəlbdir. İnsan qəlbən nəyəsə inandısa mütləq inandığına çatmağa can atacaq. Belə olduqda, insanın bütün varlığını bir rahatlıq, arxayınlıq bürüyüb onu istədiyinə doğru addım atmağa sövq edəcək. “Əmin-amanlıq” sözü ilə eyni kökdən olan “iman”ın mənası da məhz bu izaha uyğun gəlir.

**İman, yəni inam, haqqa sevgi ilə müşayiət olunan və insanı inandığına doğru hərəkətə gətirən qəlbi bağlılıq və arxayınlıq deməkdir.**




**Bununla da Qurani-kərimdən çox böyük bir dərs öyrənmiş oluruq:** Həyatımız üçün nəzərdə tutduğumuz məqsədə inanıb ona doğru getmək istəyiriksə, qəlbimizi həmin məqsədi qəbul etməyə hazır etməliyik.

## Adlandırma

İnsanın əmələ nail olmasında imanın rolunu nəzərə alaraq, bu rola nə ad vermək olar?

Qəlb yalnız o vaxt həyat yolunu qəbul etməyə hazır olur ki, pisliklərdən uzaq olub yaxşılıqlarla zinətlənsin. Qurani-kərim bu yaxşılıqları və pislikləri bizə tanıtdırmışdır. Aşağıda onlardan bəzisini diqqətinizə çatdırırıq:

**Yaxşılıqlar**

1. Həyatın həqiqətini və gözəlliklərini müşahidə edə bilməsi üçün qəlbin görməsi.[1]
2. Qəlbin təfəkkür nəticəsində əldə edilmiş şeyin üzünə açıq olması.[2]
3. Qəlbin günah və mənəvi xəstəliklərdə salamat qalması.[3]
4. Qəlbin həyatın gözəl məqsədlərinə və Allahı yad etməyə diqqəti.[4]

**Pisliklər**

1. Haqqa qarşı inadkar olub onu inkar etməsi.[5]
2. Qəlbin sərtləşməsi və yaxşılıqları, gözəllikləri hiss etməməsi.[6]
3. Qəlbin həqiqətlərin və təfəkkür nəticəsində əldə edilmiş şeyin üzünə bağlanması.[7]
4. Qəlbin həyatın gözəl məqsədlərindən və Allahı yad etməkdən qəflətdə qalması.[8]

## Səbəb tapma

Qəlb üçün qeyd edilmiş yaxşılıqları və pislikləri araşdıraraq deyin görək, nə üçün bu xüsusiyyətlər imanın güclənməsi və ya zəifləməsində qəlbə lazımi hazırlıq verir?

Bunların hər biri haqqında fikir mübadiləsi aparın:

---

1. Həcc surəsi, 46-cı ayə.
2. Muhəmməd surəsi, 24-cü ayə.
3. Şüəra surəsi, 89-cu və Bəqərə surəsi, 10-cu ayə.
4. Kəhf surəsi, 28-ci ayə.
5. Nəhl surəsi, 22-ci ayə.
6. Maidə surəsi, 13-cü ayə.
7. Bəqərə surəsi, 7-ci ayə.
8. Kəhf surəsi, 28-ci ayə.

**Mərifət, iman və əməl arasındakı bağlılıq**

Biz yaxşılıqlara əməl etmək üçün əvvəlcə onları tanıyıb qəlbən inanmalı olsaq da, yaxşı əməli yerinə yetirməyin özü də insanın həm imanını gücləndirir, həm də mərifətini daha da artırır. Buna görə də deyə bilərik ki, bu üç məfhumun qarasında qarşılıqlı əlaqə vardır. Belə ki, onların hər biri digərini möhkəmləndirir.




İman qəlbdə cücərib inkişaf edən bir ağacdır. Yaxşı əməllər isə onun qol-budağıdır. İndi yaxşı olar ki, özümüzdən soruşaq:

Bizim qəlbimizdə kim özünə yuva qurub?

Qəlbimiz hansı dost üçün atır və kimin sevgisi ilə döyünür?

Qəlb varlıq aləminin ən müqəddəs yeridir. Bu müqəddəs yerdə kim var?

**Bu dərsdə öyrəndiyimiz düşüncə nümunələri**

1. **Ayələrdən sualımıza cavab tapmaq:** Belə bir sual verildi ki, nə üçün təkcə bilgi əmələ çevrilə bilmir? .................. ayələrindən məlum oldu ki, iman da bilgiyə kömək etməlidir.

2. **Mesajı əldə etmək:** .......... ayəsindən bu mesajı əldə etdik ki, əməlin dəyərləndirilməsi üçün meyar imandır.

3. **Bir neçə ayə arasında bağlılıq yaratmaq:** Qəlbin yaxşılıq və pislikləri aşkara çıxsın deyə, bir neçə ayə arasında bağlılıq yaradıldı.

## Düşünmə və araşdırma

**A.**

1. İman bilgi və əməl arasında necə bağlılıq yaradır?
2. Bir işin ziyanını bildikdən sonra onu tərk etməkdə qəlbimiz hansı rolu oynayır?

**B.**

Mərhum ustad şəhid Murtaza Mütəhhəri "İnsan və iman" əsərində bilgi ilə imanın fərqlərini bəyan etmişdir. Adı çəkilmiş kitabdan istifadə edərək orada qeyd edilmiş fərqləri aşağıdakı cədvəl formasında tərtib edin:

| Sıra | Bilgi | İman |
|---|---|---|
| 1 | ............Bacarmaq............ | ........Yaxşı istəmək........ |
| 2 | .................................... | .................................... |
| 3 | .................................... | .................................... |
| 4 | .................................... | .................................... |
| 5 | .................................... | .................................... |

## Təklif

1. Allaha və İslam dininə iman bir sıra fərdi və ictimai təsirlərə malikdir. Bu təsirlər fərdin və cəmiyyətin həyatında özünü göstərməlidir. Həmin təsirlərlə tanış olmaq üçün Qurani-kərimin aşağıda verilmiş ayələrinə müraciət edərək onları qeyd edin:

Bəqərə surəsinin 25, 62, 103, 121, 126, 156, 165, 172, 208, 254 və 267-ci ayələri; Ali İmran surəsinin 114, 118, 130, 149-cu ayələri; Nisa surəsinin 39, 59, 76, 135, 144, 152 və 175-ci ayələri; Maidə surəsinin 69 və 81-ci ayələri; Ənam surəsinin 48, 54 və 92-ci ayələri; Əraf surəsinin 27-ci ayəsi; Ənfal surəsinin 2-ci ayəsi; Tövbə surəsinin 18-ci ayəsi.

2. İmanın dahi şəxsiyyətlərin, xüsusilə də həzrət Muhəmməd Peyğəmbərin (s) və məsum İmamların (ə) həyatındakı təsirləri barədə mütaliə edərək nəticə barədə sinifdə məlumat verin.

3. Özünüzün, yaxud dost və tanışlarınızın halı ilə bağlı xatirələriniz barədə təqdimat yazıb sinifdə oxuyun.

4. Dərsdəki ən gözəl cümlələrdən istifadə edərək onları səhnələşdirin.

## İzah edin




..........................................................................................

..........................................................................................

..........................................................................................



# Dərs 8

## Əmin-amanlıq vadisində

Keçən dərsdə imanın mahiyyəti və zərurəti ilə tanış olduq. Lakin imanla bağlı üç məsələ hələ də bizim üçün qaranlıq qalıb:

1. Öz bilgimizi iman mərhələsinə necə çatdıraq?
2. Öz imanımızı necə gücləndirək?
3. Allaha imanın bizə nə kimi faydaları vardır?

## Qiraət

**Aşağıda verilmiş ayələri diqqətlə və gözəl şəkildə oxuyun**

أعوذُ بالله منَ الشَّيطانِ الرَّجيم
بِسمِ اللّهِ الرَّحمنِ الرَّحيم

قَدۡ اَفۡلَحَ الۡمُؤۡمِنونَ ................................

الَّذينَ هُمۡ فى صَلاتِهِمۡ خاشِعونَ ................................

وَ الَّذينَ هُمۡ عَنِ اللَّغۡوِ مُعۡرِضونَ ................................

وَ الَّذينَ هُمۡ لِلزَّكاةِ فاعِلونَ ................................

Muminun surəsi, 1-4-cü ayələr

اِنَّ فى خَلۡقِ السَّماواتِ وَالۡاَرۡضِ ................................

وَاخۡتِلافِ الَّيۡلِ وَ النَّهارِ ................................

لَاَياتٍ لِاُولِى الۡاَلۡبابِ ................................

Ali İmran surəsi, 190-cı ayə

يا اَيُّهَا الَّذينَ ءامَنُوا ................................

اذۡكُرُوا اللّٰهَ ذِكۡرًا كَثيرًا ................................

وَسَبِّحوهُ Onu (Allahı) səhər-axşam təqdis edib

بُكۡرَةً وَ اَصيلًا şəninə tə'riflər deyin.

Əhzab surəsi, 41-42-ci ayələr

| | |
|---|---|
| يـا اَيُّـهَـا الَّـذيـنَ ءامَـنُـوا | ................................ |
| اذْكُـروا نِـعْـمَـةَ الـلّـهِ عَـلَـيْـكُـمْ | ................................ |

Əhzab surəsi, 9-cu ayə

| | |
|---|---|
| اِنَّـمَـا الْـمُـؤْمِـنـونَ الَّـذيـنَ | .......................... |
| ءَامَـنـوا بِـالـلّـهِ وَ رَسـولِـهِ | ................................ |
| ثُـمَّ لَـمْ يَـرْتـابـوا | (iman gətirdikdən) sonra heç bir şəkk-şübhəyə düşməyən, |
| وَ جـاهَـدوا بِـاَمْـوالِـهِـمْ وَاَنْـفُـسِـهِـمْ | ................................ |
| فـى سَـبـيـلِ الـلّـهِ | ................................ |
| اُولٰـئِـكَ هُـمُ الـصّـادِقـونَ | ................................ |

Hucurat surəsi, 15-ci ayə

| | |
|---|---|
| اَحَـسِـبَ الـنّـاسُ | İnsanlar (möminlər) yalnız: |
| اَنْ يُـتْـرَكـوا | "İman gətirdik!" |
| اَنْ يَـقـولـوا ءامَـنّـا | - deməlirilə onlardan əl çəkilib |
| وَ هُـمْ لايُـفْـتَـنـونَ | imtahan olunmayacaqlarınımı sanırlar? |

Ənkəbut surəsi, 2-ci ayə

| | |
|---|---|
| اِنَّـمَـا الْـمُـؤْمِـنـونَ الَّـذيـنَ | ................................ |
| اِذا ذُكِـرَ الـلّـهُ وَجِـلَـتْ قُـلـوبُـهُـمْ | Allah adı çəkiləndə (Onun heybət və əzəmətindən) |
| وَ اِذا تُـلِـيَـتْ عَـلَـيْـهِـمْ ءاياتُـهُ | ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu |
| زادَتْـهُـمْ ايـمـانًـا | zaman həmin ayələr onların imanlarını daha da artırar. |

وَ عَلىٰ رَبِّهِمْ يَتَوَكَّلونَ ...................................

Ənfal surəsi, 2-ci ayə

اَلَّذينَ ءامَنوا ...................................

وَ تَطْمَئِنُّ قُلوبُهُمْ بِذِكْرِ اللّٰهِ ...................................

اَلا بِذِكْرِ اللّٰهِ تَطْمَئِنُّ الْقُلوبُ ...................................

Rəd surəsi, 28-ci ayə

## Tərcümə

Aşağıdakı izahların köməyi ilə yuxarıda verilmiş ayələrin tərcüməsini tamamlayın.

اِخْتِلاف : gəlib-getmə

أُولِي الْأَلْبابِ : ağıl sahibləri

**Gözəl fürsət**

Heç indiyə qədər öz yeniyetməlik vaxtınız barədə düşünmüsünüzmü? Ruhi, psixoloji və bioloji xüsusiyyətlərinizi nəzərə almısınızmı? Onların nə qədər dəyərli olması barədə fikirləşmisinizmi? Onu da bilirsinizmi ki, yeniyetməliyin elə xüsusiyyətləri var ki, məhz onların sayəsində xoşbəxtliyi əldə etmək istiqamətində edilən o böyük seçim məhz bu dövrə təsadüf edir.

Anadan olan uşaq dünyaya təmiz və pak qəlb ilə gəlir. Onun qəlbini heç bir günah qaraltmayıb. Bu paklıq adətən yeniyetməlik və gənclik dövrünə qədər davam edir. Lakin sudan daha təmiz, aynadan daha şəffaf və gül ləçəyindən daha incə olan həmin qəlb tədricən çirklənə bilər. Bu dəyişiklik, istər az olsun, istər çox, əksər insanlarda baş verir.

Xoş o yeniyetmə və gənclərin halına ki, öz qəlblərinin təmizliyini qoruyub saxlayır, ömürlərinin sonuna qədər onu təravətli saxlayırlar. İnsanın qəlbi nə qədər təmiz olarsa, Allahın mərhəmət qapıları onun üzünə bir o qədər açıq olar. Buna görə də uşaqlar, yeniyetmələr və gənclər mələkut aləminə daha yaxındırlar. Yeniyetmə və gənclərin təmiz qəlbləri, sanki göyə açılmış bir pəncərədir. Fürsət başa çatmamış həmin pəncərədən göylərə qalxıb oraları seyr etmək mümkündür.

*Mərhum Ruhullah Musəvi buyurmuşdur:*

*"Siz gənclər indidən nəfsinizə qarşı mübarizə aparmağa başlamalısınız. Gənclik qüvvənizin əlinizdən çıxmasına imkan verməyin. Gənclik qüvvəsi əldən çıxdıqda insanda pis əxlaq daha çox özünü büruzə verməyə başlayır. Onda artıq nəfsə qarşı mübarizə aparmaq da çətinləşir. Nəfsə qarşı mübarizədə gənclər daha tez qələbə qazana bilərlər...*

*Nəfsinizi islah etmək üçün gənclik fürsətini əldən verməyin. Nəfsin insana təlqin etdiyi, şeytanın da dəstəklədiyi budur: "Gözlə, yaşlandıqda özünü islah edərsən! Nə qədər ki cavansan, istifadə et, ömrünün sonlarında tövbə edərsən!" Bu, şeytanın vəsvəsəsi olub nəfsin vasitəsilə insana təlqin edilir. İnsan nə qədər ki gəncdir, nə qədər ki, gənclik qüvvələri öz fəaliyyətini itirməyib, nə qədər ki, fəsad rişələri onda kök atıb dərinləşməyib, özünü islah edə bilər".*

İlahi, bizə bu fürsətdən istifadə etməyi nəsib et! Qəlbimiz çirklənib yadların məskəninə çevrilməzdən qabaq onu Sənin sevginin məskəninə çevirməyi bizə qismət et!

*Keşik çəkərəm qəlb evinə mən gecə-gündüz,*
*Qoymaram daxil ola Ondan qeyrisi içəri!*

Qurani-kərim və məsum rəhbərlərimiz bizə iman əldə etməyin yollarını öyrətmişlər. Bu yollar bizi həm bilgi mərhələsindən iman mərhələsinə çatdırır, həm də imanımızın möhkəmlənməsinə səbəb olur. Onlardan bir neçəsini qeyd edirik:

**1. Allahın varlıq aləmindəki nişanələri barədə düşünmək:**

Varlıq aləmində olanların hamısı Allahın gözəllik, elm, qüdrət və mərhəmət nişanələridir. Bu nişanələrə diqqət yetirmək insanın qəlbində Allahı yada salır, Onun bizə olan lütf və mərhəmətini xatırladır. Nəhayət, insanın Allaha olan sevgisini artırıb möhkəmləndirir.

### Ayələrdəki mesaj (1)

Dərsdə verilmiş ayələr üzərində düşünün, görün onlardan hansı bizi bu yola yönəldir? Həmin ayələrdə hansı mesajların verildiyini müəyyən edin.

**2. Allahı mütəmadi olaraq xatırlayıb zikr etmək:**

Gün ərzində Allahı nə qədər çox yad edəriksə, bu Onunla bağlılığımızı daha da artırar. Günün başlanğıcında, gün ərzində, dərsdə, işdə, günün sonunda mütəmadi olaraq Allahı xatırlamalıyıq. Belə olduqda, Allahla aramızdakı bağlılıq kifayət qədər möhkəm və sarsılmaz olacaq. Gündəlik beş vaxt qılınan namazların hikmətindən biri də elə Allahı bütün gün ərzində yad etməkdir.

### Ayələrdəki mesaj (2)

Dərsdə verilmiş ayələr barədə düşünün, görün onlardan hansı bizi bu yola yönəldir? Həmin ayələrdə hansı mesajların verildiyini müəyyən edin.

## Nümunə tapma:

Bəzi işləri görmək insana Allahı xatırladır. Bəzi işlər isə insanı Allahdan uzaq salıb Onu unutdurur. Dostlarınızla fikir mübadiləsi apararaq bu işləri müəyyənləşdirib aşağıdakı cədvəli tamamlayın.

| Allahı xatırladan işlər | Allahı unutduran işlər |
|---|---|
| 1. Quran oxumaq və onun ayələri barədə düşünmək. | 1. Həyatda gözəl məqsədi olmayan insanlarla dostluq etmək. |
| 2. ................................... | 2. ................................... |
| 3. ................................... | 3. ................................... |
| 4. ................................... | 4. ................................... |
| 5. ................................... | 5. ................................... |
| 6. ................................... | 6. ................................... |

### 3. Allahın nemətlərini xatırlamaq:

Həyatımıza diqqət yetirsək, Allahın lütf və mərhəmət nişanələrini açıq şəkildə görə bilərik. Hər bir insanın həyatında bu nişanələrdən kifayət qədər və hərənin özünə uyğun şəkildə vardır. Allahın nemətlərini xatırlamaq insanın qəlbində Allah sevgisini daha da artırır, insanı Yaradana daha da yaxınlaşdırır.

## Ayələrdəki mesaj (3)

Dərsdə verilmiş ayələr barədə düşünün, görün onlardan hansı bizi bu yola yönəldir?

### 4. Yaxşı işlər görüb pis işlərdən uzaq olmaq:

İnsanın görəcəyi istənilən yaxşı əməl onun qəlbini nurlandırır. Eləcə də insanın edəcəyi istənilən günah onun qəlbini çirkləndirib qaraldır. Bu çirk tədricən üst-üstə yığılaraq həqiqət nurunun qəlbə saçmasının qarşısını alır.

Çalışmalıyıq ki, yaxşı işlər yerinə yetirməklə qəlbimizi daha da nurlandıraq, günahlardan uzaq olmaqla Allaha olan sevgimizi daha da artırıb Onunla əlaqəmizi daha da möhkəmləndirək.

## Ayələrdəki mesaj (4)

Dərsdə verilmiş ayələr barədə düşünün görün onlardan hansı bizi bu yola yönəldir? Həmin ayələrdə hansı mesajların verildiyini müəyyən edin.

**İman ağacının bəhrəsi**

İman ağacının toxumu qəlbimizdə cücərdikcə və yavaş-yavaş onun yarpaqları qəlbimizi işıqlandırdıqca varlığımızı qəribə bir dəyişiklik bürüyəcək. Sanki yenidən dünyaya gəlmiş bir insan kimi olacağıq. Quran bu yeni dünyaya gəlişi belə vəsf edir:

"Heç (küfrlə) ölü olub diriltdiyimiz, sonra insanlar arasında gəzmək üçün özünə bir nur (islam dini) verdiyimiz kəs zülmət içində qalıb oradan çıxa bilməyən kimsə kimi ola bilərmi?.."[1]

Təsəvvür edin, əgər iman cücərtiləri bir cəmiyyətin bütün üzvlərində özünü göstərərsə və imanlı bir cəmiyyət formalaşarsa, deməli, həmin cəmiyyət də yeni bir həyata qədəm qoyaraq Allahın nuru ilə irəli gedəcək. Bəli, Allah möminlərin başçısı, rəhbəridir. Onları zülmətdən nura doğru çıxarır. Kafirlərin rəhbəri isə azğın, itaətsizlər və şeytanlar olub onları nurdan zülmətə doğru aparırlar.[2]

1. Ənam surəsi, 122-ci ayə
2. Bəqərə surəsinin 257-ci ayəsinin məzmunu.

## Ayələrdəki mesaj (5)

Dərsdə verilmiş ayələr üzərində düşünərək aşağıdakı cədvəldə möminlərin xüsusiyyətlərini qeyd edin. Müvafiq ayənin nömrəsini aid olduğu surənin adı ilə birlikdə qeyd edin.

| Surə, ayə | Ayələrdəki mesaj |
|---|---|
| | ............................................................ |
| | ............................................................ |
| | ............................................................ |
| | ............................................................ |
| | ............................................................ |
| | ............................................................ |
| | ............................................................ |
| | ............................................................ |
| | ............................................................ |
| | ............................................................ |
| | ............................................................ |
| | ............................................................ |

### Daha çox bilək

Şəhid Murtaza Mütəhhəri ustadı mərhum Ayətullah Xomeyninin inamı və imanı haqqında belə demişdir:

“Mən təxminən on iki il bu böyük şəxsiyyətdən dərs almışam. Son Paris səfərim zamanı da onun ruhiyyəsi barədə elə şeylər anladım ki, mənim təkcə heyrətimin deyil, imanımın da artmasına səbəb oldu.

Parisdən geri qayıtdıqda dostlarım məndən nə gördüyümü

soruşdular. Onlara dedim: "Mən dörd cür inam gördüm. Biri öz məqsədinə inam idi. Bütün dünya yığışsa da, onu öz məqsədindən döndərə bilməz. İkincisi, tutduğu yola inamını gördüm. Heç kim və heç nə onu öz yolundan döndərə bilməz. Eynilə həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) öz məqsədinə və yoluna inamı olduğu kimi. Üçüncüsü, dediyi sözünə inamını gördüm. Nəhayət dördüncüsü və hamıdan önəmli olanı, Allahına olan inamını və imanını gördüm. O, xüsusi bir görüşdə mənə dedi: "Ay filankəs, bu işləri görən biz deyilik. Mən bu işdə Allahın əlinin olduğunu açıq-aşkar hiss edirəm". O, həqiqətən Allah yolunda addım atırdı. Allah da "إِن تَنصُرُوا اللَّهَ يَنصُرْكُمْ وَيُثَبِّتْ أَقْدَامَكُمْ" (Əgər siz Allaha (Allahın dininə və Peyğəmbərinə) yardım göstərsəniz, O da sizə yardım göstərər və sizi sabitqədəm edər)[1] ayəsinə uyğun olaraq ona Öz dəstəyini verir...

Bu yaxınlarda Fransa həkimləri təxminən son on beş ildə psixoloji gərginliyə düçar olmuş, cavan övladını itirmiş bu böyük şəxsiyyəti müayinə etdikdə təəccüblə bildirmişdilər ki, onun ürəyi iyirmi yaşlı gəncin ürəyi kimidir. O, Allah yolunda addımladığı andan etibarən Allahın Quranda vəd verdiyinə inanmış və bunu öz təcrübəsində də görmüşdür".

Dünya imperialistlərinə qarşı mübarizə apararaq qələbə çalmaq o böyük imanın nəticəsi deyildimi?!

1. Muhəmməd surəsi, 7-ci ayə

رَبَّنا اِنَّنا سَمِعْنا
مُنادِيًا يُنادى لِلْايمانِ
اَنْ ءامِنوا بِرَبِّكُمْ
فَـئامَنّا
رَبَّنا فَاغْفِرْ لَنا ذُنوبَنا
وَ كَفِّرْ عَنّا سَيِّئاتِنا
وَ تَوَفَّنا مَعَ الْاَبْرارِ.

“Ey Rəbbimiz! Həqiqətən, biz: “Rəbbinizə iman gətirin!”- deyə imana çağıran bir kimsəni (Peyğəmbəri) eşidən kimi imana gəldik. Ey Rəbbimiz! Artıq günahlarımızı bağışla, pis əməllərimizin (qüsurlarımızın) üstünü ört və canımızı yaxşı əməl sahibləri ilə bir yerdə al!”

Ali İmran surəsi, 193-cü ayə



# Üçüncü addım

**Allaha olan imanı möhkəmləndirməyə səy göstərmək**

Çalışacağam ki, əsas məqsədim olan Allaha imanımı, Ona olan bağlılığımı, eləcə də məni Ona çatdıracaq yola, bu yoldakı rəhbərlərə, Qiyamət gününə imanımı daha da möhkəmləndirim.

**İlahi, mənim qəlbimi Öz məskəninə çevir, canımı Öz məhəbbətinlə qarışdır!**

## Düşünmə və araşdırma

1. Nəyə görə yeniyetməlik və gənclik dövründə Allaha doğru yaxınlaşma sonrakı dövrlərdən daha asandır?
2. Sizcə, mərhum Ruhullah Musəvinin gənclərə tövsiyəsində ən önəmli məqam nədir?
3. Sizcə, imanın möhkəmləndirilməsində ən güclü amil hansıdır? Niyə?
4. Sizcə, hansı amil imanın zəifləməsində daha böyük rol oynayır? Niyə?
5. Qəlbi həmişəlik olaraq Allahın məskəninə necə çevirmək olar?

## Təklif

1. Əvvəlcə araşdırın görək "Nəhcül-bəlağə" kitabını kim toplayıb və bu kitab neçə hissədən ibarətdir? Sonra isə "Hikmətli kəlamlar" bölməsində "Mömin ..." ifadəsi ilə başlayan 325-ci kəlamı oxuyaraq möminin xüsusiyyətlərini qeyd edin. (Hikmətli kəlamın nömrəsi Feyzül-islamın tərcüməsinə uyğun olaraq verilmişdir.)

2. Həzrət Peyğəmbərin (səllallahu əleyhi və alih) həyatı boyunca və müxtəlif hadisələrlə əlaqədar olaraq imanından nümunələri gözəl bədii formada qeyd edin.

3. Böyük ictimai xidməti olan mömin bir insanın xüsusiyyətlərini bir neçə benddə qeyd etməli olsanız, onun hansı xüsusiyyətlərini qeyd edərsiniz?

4. Əgər özünüz, yaxud dostlarınız və ya hər hansı bir şəxslə bağlı sizin və ya onların imanının möhkəmlənməsinə, ya da zəifləməsinə səbəb olmuş bir hərəkət haqqında məlumatınız varsa, əhvalat şəklində qeyd edərək sinifdə oxuyun.

*Allahım! Bilirəm ki, Sənə doğru yola çıxmağa hazırlaşan yolçunun ən gözəl azuqəsi Sənə doğru gəlmək niyyətidir.*[1]

İmam Kazim (əleyhissəlam)

# İkinci mərhələ: Səfər niyyəti



1. Məfatihül-cinan, Rəcəb ayının iyirmi yeddinci gününün duası



## Dərs 9

# Yaxşı yaşamaq niyyəti

Birinci mərhələdə öyrəndik ki, həyatda əsas məqsədimiz əbədi yaxşılıqlara çatmaqdır. Onu da öyrəndik ki, bu yaxşılıqların hamısı Allahda cəmlənmişdir. Əslində bizim həyatdakı ən böyük hədəfiimiz məhz Ona qovuşmaqdır. Kim bu həqiqəti anlayıb həyatını bu məqsədə çatmaq uğrunda tənzimləyərsə, özü üçün olduqca gözəl bir həyat təmin etmiş olacaq.

Onu da öyrəndik ki, hər hansı bir məqsədə doğru hərəkət etmək üçün həmin məqsədə inam və iman olmalıdır. Həyatın əsas məqsədinə çatma yollarını tanımağı və həmin yolları qət etməyi də öyrənməyə çalışdıq.

İndi isə məqsədimizə doğru addımlamaq üçün niyyət və əzm mərhələsinə çatmışıq. Buna görə də, mütləq, bilməliyik ki:

- Əzm və qərarın mahiyyəti nədən ibarətdir?
- Hansı şeylərdən ötrü qərara gəlməliyik?

## Qiraət

Aşağıda verilmiş ayələri diqqətlə və gözəl şəkildə oxuyun.

أعوذُ بالله منَ الشَّيطان الرَّجيم
بِسم اللهِ الرَّحمنِ الرَّحيم

| | |
|---|---|
| قَدْ كانَتْ لَكُمْ اُسْوَةٌ حَسَنَةٌ | ................................ |
| فى إِبْراهيمَ وَالَّذينَ مَعَه، | ................................ |

Mümtəhənə surəsi, 4-cü ayə

| | |
|---|---|
| وَ مَنْ اَحْسَنُ دينًا | ................................ |
| مِمَّنْ اَسْلَمَ وَجْهَه، لِلّٰهِ | özünü Allaha təslim edən, İbrahimin hənif |
| وَ هُوَ مُحْسِنٌ | millətinə (dininə) tabe olan kəsdən din |
| وَاتَّبَعَ مِلَّةَ إِبْراهيمَ حَنيفًا | etibarilə daha gözəl kim ola bilər? |
| وَ اتَّخَذَ اللّٰهُ إِبْراهيمَ خَليلًا | ................................ |

Nisa surəsi, 125-ci ayə

| | |
|---|---|
| وَ مَنْ يَرْغَبُ | ................................ |
| عَنْ مِلَّةِ إِبْراهيمَ | ................................ |
| اِلّا مَنْ سَفِهَ نَفْسَه، | Özünü səfehliyə qoyanlardan başqa |

Bəqərə surəsi, 130-cu ayə

| | |
|---|---|
| .................................. | وَ مَنْ اَوْفى |
| Allahla etdiyi əhdi | بِما عاهَدَ عَلَيْهُ اللّهَ |
| .................................. | فَسَيُؤْتيهِ اَجْرًا عَظيمًا |

Fəth surəsi, 10-cu ayə

| | |
|---|---|
| .................................. | اِنَّ الَّذينَ يَشْتَرونَ |
| Allah ilə olan əhdlərini | بِعَهْدِاللّهِ وَاَيْمانِهِمْ |
| və andlarını ucuz bir qiymətə | ثَمَنًا قَليلًا |
| .................................. | اُولئِكَ لا خَلاقَ لَهُمْ |
| ..............bir pay yoxdur. | فِى الْاَخِرَةِ |
| .................................. | وَ لا يُكَلِّمُهُمُ اللّهُ |
| .................................. | وَ لا يَنْظُرُ اِلَيْهِمْ يَوْمَ الْقِيامَةِ |
| .................................. | وَلا يُزَكّيهِمْ |
| .................................. | وَلَهُمْ عَذابٌ اَليمٌ |

Ali İmran surəsi, 77-ci ayə

| | |
|---|---|
| .................................. | فَاصْبِرْ |
| Peyğəmbərlərdən əzm (və səbat, şəriət) sahibləri olanların səbir etdiyi kimi, | كَما صَبَرَ اُولُوا الْعَزْمِ مِنَ الرُّسُلِ |

Əhqaf surəsi, 35-ci ayə

| | |
|---|---|
| .................................. | وَ اِنْ تَصْبِروا |
| .................................. | وَتَتَّقوا |
| əlbəttə, bu, məqsədə müvafiq işlərdəndir. | فَاِنَّ ذلِكَ مِنْ عَزْمِ الاُمورِ |

Ali İmran surəsi, 186-cı ayə

## Tərcümə

Aşağıdakı izahların köməyi ilə yuxarıda verilmiş ayələrin tərcüməsini tamamlayın.

| | | | | | |
|---|---|---|---|---|---|
| vəfa edərsə | : أَوْفى | din, ayin | : مِلَّة | yaxşı, gözəl | : حَسَنَة |
| | | ona verəcək | : ه + يُؤْتى + سَـ + فَـ = فَسَيُؤْتِيهِ | | |
| danışar | : يُكَلِّمُ | satırlar | : يَشْتَرون | dost | : خَليل |
| | | səbir et | : اِصْبِر | baxar | : يَنْظُرُ |
| | | paklayar, təmizləyər | : يُزَكّي | səbir etsəniz | : تَصْبِروا |

### Daha çox bilək

Min illər bundan əvvəl Beynənnəhreyn ərazisindəki Hirə şəhərində İbrahim adlı yetkin bir gənc Aya, Günəşə və ulduza sitayiş edənlərə elə bir söz deyib ki, həmin söz indi də ürəyə yatıb insanı valeh edir. “Mən batan (qürub edən) şeyləri sevmirəm”.

Bu gənc hələ yeniyetməlik dövründə öz fikrini insanlara bir başqa formada bildirmişdi. Onda artıq öz niyyətində ciddi olub həyatını tək olan Allaha eşq üzərində qurmaq istəyən və məqsədini həyata keçirmək qərarına gəlmiş İbrahim əmisi Azəri bütə ibadət etməkdən və büt düzəltməkdən çəkindirmişdi. İbrahim Nəmrudun tərəfdarlarının bütxanasına girərək o dövrün hökmdarı Nəmrudun qəzəbinə tuş gələcəyindən qətiyyən qorxmadan bütləri sındırır. Təkcə ən böyük bütə dəyməyib onu salamat saxlayır. Bununla da o, bütpərəstlərə başa salır ki, bütlər aciz əşyalardan başqa bir şey deyil. Nəmrudun əmri ilə qalanmış nəhəng tonqal İbrahim üçün gülüstana çevrildikdən sonra o Babildən çıxaraq tarix boyunca əbədi yaşayacaq daha böyük bir iş naminə uzaq yerlərə gedir.

O, yola düşüb ucsuz-bucaqsız səhrada təkbaşına gedir. Səhraları, dərələri, dağları, çölləri geridə qoyduqdan sonra Fələstin ərazisinə yetişir. Uzun müddət oranın əhalisini tək olan Allaha ibadət etməyə dəvət edərək həmin diyarda tövhid toxumunu səpir.

Uzun illər Fələstində qaldıqdan sonra Allahın əmri ilə Məkkə

diyarına üz tutur. Ərəbistanın ucsuz-bucaqsız səhrasından keçib inanılmaz çətinliklərə sinə gərdikdən sonra Məkkəyə yetişir. Neçə il sonra Allahın evini inşa edərək oranı tövhid mərkəzinə çevirir.

Artıq yaşlanıb üzündə qocalıq nişanələri göründüyü bir vaxtda Kəbə divarına söykəndiyi halda üzündə tamamilə razılıq nişanəsi hiss olunurdu.

Onun baxışlarından, sanki hiss olunurdu ki, oğlu İshaqın nəslindən Musa və İsa kimi böyük peyğəmbərlər gələrək onun dinini növbəti nəsillərə çatdırırlar. Digər övladı İsmailin nəslindən isə Muhəmməd (s) adlı böyük bir peyğəmbər gələrək tövhid nidasını dünyanın ən ucqar yerlərinə də çatdırır!

Yeniyetməlik dövründə gəldiyi qərarı xatırlayır. Uzun bir həyatın enişli-yoxuşlu xatirələrini gözlərinin önündən keçirməyə başlayır. Səbir edərək əldə etdiyi uğurlarına görə məmnunluq hissi keçirir. Lakin təkəbbür və lovğalıqdan qətiyyən əsər-əlamət yoxdur. İndi artıq o özü də Allahın dostu idi. Allah onu Özünə dost seçmiş, onunla münacat edirdi. Allahın kiməsə: "Mən səni çox istəyirəm" – deməsindən daha böyük ləzzət ola bilərmi?!

Necə gözəl və uğurlu bir həyatdır! Nə möhkəm iradə və qətiyyətli əzmdir! Nə gözəl örnəkdir! İndi isə bizim növbəmizdir. Bir an öz-özlüyümüzdə düşünək: Hər birimiz bacardığımız qədər həzrət İbrahimin (əleyhissəlam) bu böyük qərarında onunla şərik olmağı bacarmarıqmı?!

Əlbəttə bacararıq! Elə isə ey mehriban Allah, bizə kömək ol ki, ən qısa zamanda həyatımızın ən gözəl qərarını verə bilək!



## Ayələrdəki mesaj

Dərsdə verilmiş ayələr üzərində düşünərək onların arasında bağlılıq yaradın və həzrət İbrahim peyğəmbərin (ə) həyatına qısaca nəzər salaraq aşağıdakı cədvəldə verilmiş sualları cavablandırın.

| Sual | Cavab | Ayə və həyatı |
|---|---|---|
| 1. Bu ayələrdə həzrət İbrahimin (ə) hansı fəzilətləri qeyd edilmişdir?? | 1. ................ 4. ................<br>2. ................ 5. ................<br>3. ................ 6. ................ | |
| 2. Bu fəzilətlər təkcə İbrahim peyğəmbər (ə) barəsindədir, yoxsa digər peyğəmbərlərə də aiddir? | ....................................<br>.................................... | |
| 3. Bu fəzilətlər onun həyatındakı iki böyük uğurun nəticəsi olmuşdur. Həmin iki uğur hansılardır? | Fərdi uğur: ...........................<br>Cəmiyyətdəki uğuru:................ | Həyatından götürülmüşdür |
| 4. O bu fəzilətləri hansı xüsusiyyətlərinə və gördüyü hansı işə görə qazanmışdı? | 1. Əzm və böyük bir qərar 4. ..............<br>2. ................ 5. ................<br>3. ................ 6. ................ | |
| 5. Kimsə öz həyatında İbrahim peyğəmbəri (ə) özünə örnək qərar vermək istəsə, nə etməlidir? | 1. ................ 3. ..............<br>2. ................ 4. .............. | |
| 6. İbrahim peyğəmbəri (ə) özünə örnək seçməyən insanı nə üçün Allah nadan hesab edir? | ....................................<br>.................................... | |
| 7. Əhdə vəfa etmək və onu yerinə yetirməyin şərti nədir? | 1. ..................................<br>2. .................................. | |
| 8. Həyatlarında Allahla olan əhdlərinə sadiq qalmayan insanlar hansı aqibətlə üzləşirlər? | 1. ................ 3. ..............<br>2. ................ 4. .............. | |

### Məqsədyönlü bir həyat yaşamaq qərarı

Mesajlardakı əsas mehvərlərdən biri uğurlu bir həyata başlamaq üçün əzm və ciddi qərarın olmasıdır. Əzmin mənası iradə, məqsədə doğru addımlamaq deməkdir. İnsan seçdiyini öz istək və iradəsi ilə həyata keçirməlidir. Bu baxımdan, əzm insanlıq gövhərinin, yəni ixtiyarın zahir olmasıdır.

İnsanların dərəcələrinin fərqi onların əzminin dərəcəsinin fərqli olmasından asılıdır. Etimad, səbirli olmaq, müqavimət göstərmək, çətinliklərə dözmək – bütün bunlar güclü iradə və əzmin nəticəsidir. Peyğəmbərlərin həyat tarixi bu iddianı təsdiq edir. Böyük iş böyük də iradə tələb edir. İradəsi olmayan insanlar həyatın azacıq çətinlikləri qarşısında davam gətirə bilməyib öz aqibətlərini hadisələrin gedişatının ixtiyarına buraxırlar. Xoşbəxt həyat yoluna qədəm qoymaq da möhkəm iradə istəyir ki, insan həyatın eniş və yoxuşlarında ruhdan düşməsin. Təsadüfi deyil ki, müdrik Loğman öz oğluna nəsihət edərək ona həyatın qayda-qanunlarını başa saldıqdan sonra belə buyurur:

وَ اصْبِرْ عَلى ما اَصابَكَ اِنَّ ذٰلِكَ مِنْ عَزْمِ الْاُمُورِ

"(Bu yolda) sənə üz verəcək müsibətlərə döz ki, bunlar vacib əməllərdən və mühüm işlərdəndir". (Loğman surəsi, 17-ci ayə)

## Allah-taala ilə əhd bağlamaq

Səadət yolunu tanıyıb hidayət yolunu getmək istəyən insan Allah-taala ilə əhd bağlayır ki, bu yolda sabitqədəm qalıb öz əhdinə qətiyyətlə sadiq qalacaq.

Uca Allahın bizim səadət yolumuzu Öz razılığı ilə birlikdə qərar verməsi necə də gözəldir! Yəni, Allah o vaxt bizdən razı qalacaq ki, biz səadət və xoşbəxtlik yolunda irəliləyək. Bizdən o vaxt narazı qalacaq ki, biz bədbəxtlik yoluna qədəm qoyaq və bədbəxtlik kölgəsi başımızın üstünü alsın. Deməli, bizim Allah-taala ilə əhd bağlamağımız həm Onun razılığını, həm də öz xoşbəxtliyimizi təmin edir.

Bəs necə bilmək olar ki, bəndəlik yolunda Allahın bizdən istədiyi yalnız bizim xoşbəxtliyimizə xidmət edir? Bu suala belə cavab vermək olar: Allah mütləq dərəcədə ehtiyacsızdır. Onun heç nəyə ehtiyacı yoxdur. Hər hansı bir çatışmazlığı yoxdur ki, bizdən istəməklə onu aradan qaldırmış olsun. Eləcə də bizim özümüzün Allaha vermək üçün heç nəyimiz yoxdur. Nəyimiz varsa, hamısını bizə O Özü verib, çünki O bizim səadətimizi istəyir. Bizə bildirir: "Mən sizin bu yolla getməyinizi istəyirəm, çünki sizin xoşbəxtliyinizin məhz bu yolda olduğunu bilirəm". Deməli, Allahın razılığı bizim səadətimizdə, Ona itaət itmək isə bizim səadətimizdir. Buna görə də deyə bilərik ki, bizim dindarlığımızın səviyyəsi Allah-taala ilə bağladığımız əhdimizə nə dərəcədə sadiq qalmağımızdan asılıdır. Öz əhdimizdə nə qədər sadiq olarıqsa, dindarlığımız da bir o qədər kamil olar.

## Müqayisə

Oxuduğunuz ayələr barədə düşünərək və öz təcrübənizə əsaslanaraq, iradəli insanların xüsusiyyətləri ilə iradəsiz insanların xüsusiyyətləri arasında müqayisə aparın və onların bir-birindən fərqini aşağıdakı cədvəldə qeyd edin.

| İradəli insanlar | İradəsiz insanlar |
|---|---|
| 1. ........................................ | 1. ........................................ |
| 2. ........................................ | 2. ........................................ |
| 3. ........................................ | 3. ........................................ |
| 4. ........................................ | 4. ........................................ |

İnsanla Allah-taala arasında bağlanan əhd adətən üç mərhələdə həyata keçirilir:

### 1. Yola qədəm qoymaq

İnsan əhdin bu mərhələsində öz həyat yolunu təyin edərək ümumiyyətlə gələcək taleyini müəyyənləşdirir. Ola bilər işin başlanğıcında Allahın göstərişləri barədə bir o qədər məlumatı olmadığı üçün müəyyən səhvlərə yol versin. Ancaq əsas yolu düzgün seçdiyi üçün tədricən düşüncə və əməllərini islah edib gələcəkdə daha mətin addımlarla irəliləyəcək.

Səadət yolunu getmək üçün görülməsi zəruri sayılan və onlarsız bu yolu getmək mümkünsüz olan əməllər “vacib əməllər” adlanır. Bu yolu getməyə mane olan və bizi xoşbəxtlikdən uzaqlaşdıran əməllər “haram əməllər” adlanır. Vacib əməllərə riayət edib haram əməllərdən uzaq olmaq səadət yolunu qət edib Allahın razılığını qazanmaq deməkdir. İnsanın Allah-taala ilə bağladığı əhdin əsl mahiyyəti də elə bundan ibarətdir. Bir sıra başqa işlər də vardır ki, onlara əməl etmək vacib deyil, lakin xoşbəxtliyə doğru gedən yolda insanın hərəkətini asanlaşdırır və onu səadətin daha yuxarı mərhələlərinə ucaldır. Belə əməllər “müstəhəb əməllər” adlanır. Bir sıra digər əməllər də vardır ki, insanın səadətə çatmasına mane olmasa da,

lakin onun səadət yolunda hərəkətini zəiflədir və insanın səadətin daha yuxarı mərhələlərinə çatmasına mane olur. Belə əməllərə “məkruh əməllər” deyilir. Sadaladığımız bu dörd qrup əməllərdən başqa həyatımızda elə işlər var ki, nə vacibdir, nə haram, nə müstəhəbdir, nə də məkruh. Məsələn, oyun oynamaq, yerimək, yemək, yatmaq, alış-veriş etmək və s. Bu cür əməllər “mübah əməllər” adlanır. Bu işləri yerinə yetirib-yetirməmək öz-özlüyündə mübahdır. Ancaq onlardan hər hansı birini yerinə yetirmək istədikdə mütləq onlarla bağlı şəriət qaydalarına riayət etməliyik. Məsələn, oyun oynamaq mübah olsa da, hər oyun mübah deyil. Misal üçün, qumar oynamaq haramdır, ona qətiyyən yaxın durmaq olmaz!

## Daha çox bilək

Əvvəlki kitablarda bu və ya digər şəriət qaydalarını öyrənməkdən ötrü müəyyən xüsusiyyətləri özündə ehtiva edən fəqihə müraciət etməyin vacib olduğu barədə bəzi məsələlər öyrənmisiniz. İndi isə əlavə olaraq qeyd edirik ki, dini həyat sürməyin əsas şərti vacib əməllərə riayət edib haram əməllərdən uzaq olmaqdır. Şəriət qanunları ilə bağlı mütəxəssis olmayan şəxsin vacib və haramları tanıması haqqında öhdəsinə düşən odur ki, fəqih və ya “müctəhid” adlanan şəxsə müraciət etsin. Buna görə də bu mövzu barədə kifayət qədər məlumatlı olan insanlarla məsləhətləşərək hər hansı bir müctəhidi özümüzə mərcəi-təqlid olaraq seçməli və onun verdiyi fitvalara əsasən davranmalıyıq. İşimizin daha rahat olması üçün təqlid edəcəyimiz müctəhidin “İzahlı şəriət məsələləri” əsərini (risaləsini) əldə edib oxuya, lazımi məsələlərlə bağlı həmin kitaba müraciət edə bilərik.

Gündəlik həyatımızda qarşılaşa biləcəyimiz bu və ya digər şəriət məsələləri ilə bağlı sualları din və ya Quran dərsi müəllimlərimizə, yaxud digər mərkəzlərdə çalışan din mütəxəssislərinə verib onlardan qaneedici cavab ala bilərik.

## 2. Allah-taala ilə bağlanmış əhdi yeniləmək

Hər gün səhər açılması ilə yeni bir gün başlayır, səadət yolunda addımlamaq üçün yeni bir fürsət yaranır. Hər səhər Allah qarşısında dayanaraq Onunla bağladığımız əhd-peymanı yeniləyir, Allahla öz aramızda qoyduğumuz qərarlara yenidən baxırıq. Əhdi gündəlik yeniləmə insanı qəflətə düşməkdən və səhlənkarlığa yol verməkdən saxlayıb səadət yolunda daha inamlı addımlarla irəliləməsinə şərait yaradır.

## 3. Əhdi təkmilləşdirmək

Həyat yolunda tədricən irəlilədikcə, əzm və iradəmiz daha da möhkəmləndikcə hiss edirik ki, yeni-yeni işlərə başlaya, müxtəlif yaxşı xüsusiyyətləri özümüzdə möhkəmlədə, yaxud da hansısa pis xüsusiyyəti özümüzdən uzaqlaşdıra bilərik. Misal üçün, qərara gəlirik ki, mütaliə və təfəkkür üçün daha çox vaxt ayıracağıq, valideynlərimizə daha çox ehtiram göstərəcəyik, başqalarına, xüsusilə də qohumlara və qonşulara yaxşılıq edəcəyik, namazlarımızı əvvəl vaxtında qılacağıq. Elə o gündən etibarən bu işlər barəsində bir proqram tərtib edir və Allah-taala ilə əhd bağlayırıq ki, bu işləri yerinə yetirməkdə səhlənkarlığa yol verməyək.

### Bu dərsdə öyrəndiyimiz düşüncə nümunələri

**1. Şərt ilə şərtlənən arasında əlaqəni öyrənmək:** Misal üçün, dərsdə verilmiş ayələrə əsasən məlum oldu ki, əhdə sadiq qalmağın şərti ........................dır.

**2. Ayələrdən suala cavab tapmaq:** Məsələn, dərsdə verilmiş ayələrdən “Qurani-kərimdə həzrət İbrahim peyğəmbərin (ə) hansı fəzilətləri qeyd edilmişdir?” – sualına cavab tapdıq.

**3. Bir neçə ayə arasında bağlılıq:** Misal üçün, həzrət İbrahim peyğəmbərin (ə) fəzilətlərini öyrənmək üçün .................... ayələri bir-biri ilə əlaqələndirdik.

## Düşünmə və araşdırma

A

1. Əzm və iradə ilə ixtiyarın nə kimi bağlılığı var?

2. Nə üçün iradəsi güclü olan insanları sevir, ancaq iradəsiz insanları sevmirik?

B

"Taha" surəsinin 130, "Loğman" surəsinin 17, "Yasin" surəsinin 60-61-ci ayələri barədə düşünərək ayələrdən hər birinin əhdin üç mərhələsindən hansına aid olduğunu qeyd edin.

## Təklif

1. Haqq uğrunda çalışmış möhkəm iradəli insanların həyatı ilə bağlı əhvalatlar bilirsinizsə, bu barədə təqdimat hazırlayıb sinifdə oxuyun.

## Qərar

Öz-özlüyünüzdə düşünərək Allah-taala ilə bağlamalı olduğunuz ən mühüm əhdi müəyyən edib onu bir cümlə ilə bildirin. Sonra isə müəyyən edin ki:

1. Hansı vaxtlar Allah-taala ilə bağladığınız əhdi yeniləyirsiniz?

2. Allah-taala ilə bağladığınız əhdi daha hansı əhdlərlə təkmilləşdirirsiniz?



## Dərs 10

# İradədə qətiyyətli olmaq

Ola bilər insan qədəm qoyduğu yolda vaxtında və qətiyyətli qərar verə bilmək üçün ilk əvvəl elə də möhkəm iradəyə malik olmasın. Buna görə də müxtəlif vasitə və yollardan istifadə edərək öz iradəsini möhkəmləndirməli və onu zəiflədəcək amillərdən uzaq durmalıdır. Müəyyən proqaramın müntəzəm olaraq həyata keçirilməsi insana arxayınlıq gətirdiyi kimi, əhdi pozmaq, ona dönük çıxmaq da ruhiyyəni zəiflədir. Axırda iş o yerə gəlib çatır ki, insan öz-özünə: “Mən bacarmıram, mən zəifəm”, – demək məcburiyyətində qalır.

İradənin qətiyyətli olması hansı amillərə bağlıdır?

## Qiraət

Aşağıda verilmiş ayələri diqqətlə və gözəl şəkildə oxuyun.

أَعوذُ بالله مِنَ الشَّيطانِ الرَّجيم

بِسمِ اللّهِ الرَّحمنِ الرَّحيم

وَ سارِعوا اِلىٰ مَغفِرَةٍ مِن رَبِّكُمْ ..............................

وَ جَنَّةٍ عَرْضُهَا السَّماواتُ وَ الْاَرْضُ ..............................

اُعِدَّتْ لِلْمُتَّقينَ ..............................

Ali İmran surəsi, 133-cü ayə

اُولٰئِكَ يُسارِعونَ فِى الْخَيْراتِ ..............................

وَ هُمْ لَها سابِقونَ — və bu işlərdə (başqalarından) öndə gedərlər.

Muminun surəsi, 61-ci ayə

وَاتَّقُوا اللّٰهَ وَ اعْلَموا ..............................

اَنَّ اللّٰهَ بِما تَعْمَلونَ بَصيرٌ ..............................

Bəqərə surəsi, 233-cü ayə

لا تُدْرِكُهُ الْاَبْصارُ ..............................

وَ هُوَ يُدْرِكُ الْاَبْصارَ ..............................

وَ هُوَ اللَّطيفُ الْخَبيرُ — O lətifdir (cismlikdən uzaqdır), (hər şeydən) xəbərdardır!

Ənam surəsi, 103-cü ayə

وَ اِنَّ عَلَيْكُمْ لَحافِظينَ ................................

كِراماً كاتِبينَ (Əməllərinizi) yazan və (Allah dərgahında)

يَعْلَمونَ ما تَفْعَلونَ çox hörmətli olan mələklər vardır.

İnfitar surəsi, 10-12-ci ayələr

اِنَّ الَّذينَ قالوا رَبُّنَا اللّٰهُ ................................

ثُمَّ اسْتَقاموا ................................

فَلا خَوْفٌ عَلَيْهِمْ ................................

وَلا هُمْ يَحْزَنونَ ................................

اُولٰئِكَ اَصْحابُ الْجَنَّةِ ................................

خالِدينَ فيها ................................

جَزاءً بِما كانوا يَعْمَلونَ ................................

Əhqaf surəsi, 13-14-cü ayələr

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحيمِ

وَالْعَصْرِ ................................

اِنَّ الاِنْسانَ لَفى خُسْرٍ ................................

اِلَّا الَّذينَ ءامَنوا ................................

وَ عَمِلُوا الصّالِحاتِ ................................

وَتَواصَوا بِالْحَقِّ ................................

وَتَواصَوا بِالصَّبْرِ ................................

Əsr durəsi, 1-3-cü ayələr

| | |
|---|---|
| اَلْاَخِلَّاءُ يَوْمَئِذٍ | o gün dostlar |
| بَعْضُهُمْ لِبَعْضٍ عَدُوٌّ | ………………..……………… |
| اِلَّا الْمُتَّقِينَ | ………………..……………… |

Zuxruf surəsi, 67-ci ayə

## Tərcümə

Aşağıdakı izahların köməyi ilə yuxarıda verilmiş ayələrin tərcüməsini tamamlayın.

| | | | | | |
|---|---|---|---|---|---|
| سارِعوا : | tələsin | اُعِدَّتْ : | hazırlanmışdır | اَبْصار : | gözlər |
| تُدْرِكُ : | dərk edir, görür | حافِظ : | nəzarətçi | تَواصَوا : | bir-birinə tövsiyə |
| عَرْض : | genişlik | خُسر : | ziyan | | |

## Ayələrdəki mesaj

Verilmiş ayələr üzərində düşünərək iradəmizi aşağıdakı amillərlə möhkəmləndirə bilərik:

**Ayələr:**

**1. Qərar verməkdə yubanmamaq**

İmam Sadiq (əleyhissəlam) buyurur:

“Yaxşı bir iş görmək fikrinə düşən insan onu tez yerinə yetirib yubatmamalıdır”. *(Biharul-ənvar, c. 71, səh. 217)*

Bir çox insanlar xüsusi mənəvi bir şəraitdə ciddi qərarlar vermək fikrinə düşürlər. Misal üçün, yoxsulluğun arzuolunmaz nəticələrini görmüş insan qərara gəlir ki, vaxtının bir hissəsini yoxsullara əl tutmağa

sərf etsin. Yaxud qədr gecələrinin təsiri altına düşərək mənəvi bir hal yaşadıqda Allahla əhd bağlayır ki, yol verdiyi səhvləri bir daha təkrar etməsin. Bəzi insanlar belə mənəvi mühitdən kənara çıxdıqdan sonra iradələri zəifləyir və əhdlərini unudurlar. Buna görə də hər hansı bir yaxşı iş qərarına gəldikdə onu yubatmaq olmaz, tez bir zamanda həyata keçirmək lazımdır.

Əmirəl-möminin Əli (ə) buyurmuşdur:

"Yaxşı işlərdə istisna olmaqla yubanmaq tələsməkdən daha yaxşıdır."

*(Ğürərül-hikəm və dürərül-kəlim, c. 2, səh. 89)*

**2. Allah və mələklər qarşısında mənəvi hazırlığa diqqət** **Ayələr:**

Əzəmətli Allah-taalanın hüzurunda özünü hiss etmək Onu öz əməllərimizə şahid görməyimizə, öz əhd-peymanımıza müxalif olan addımlardan çəkinməyimizə səbəb olur. Həmçinin, bizim əməllərimizi yazan mələkləri də hazır bilmək əhd-peymanı pozmaqdan çəkindirən amildir.

**3. Qərarda qətiyyətli olmağın nəticələrini nəzərə almaq** **Ayələr:**

Əhdə sadiq qalmağın və ondan irəli gələn uğurun gözəl nəticəsini, eləcə də əhdə dönük çıxmağın acı nəticəsini nəzərə almaq insanı öz qərarında qətiyyətli olmağa, əhdinə sadiq qalmağa daha da həvəsləndirir. Bu vəziyyət insana əhdinə dönük çıxmağa imkan vermir.

Əhdə və onu möhkəmləndirən amillərə diqqət yetirmək müsbət nəticə verdiyi kimi, onlara etinasız yanaşmaq, məhəl qoymamaq da öz mənfi nəticəsini verir. Əhdə etinasız yanaşmaq dedikdə məqsəd və ona çatmağın yollarına qarşı etinasız olmaq nəzərdə tutulur. Onu da bilmək lazımdır ki, "etinasızlıq"la "unutmaq" fərqli anlayışlardır. Əhdini unudan insan müqəssir deyil. Ancaq əhdinə qarşı laqeyd olan, ona etinasız yanaşan şəxs müqəssirdir.

*Qənimətdir, vermə hədər, əgər tapsan bir aqili,*

*Belə fürsət düşməz ələ, agah edər bir cahili.*

**Sədi**

**4. Uyğun və münasib dostun olması**

**Ayələr:**

Çoxumuz həyat təcrübəmizdə sınaqdan çıxarmışıq ki, məsələn, üzməyi, yaxud dağa dırmanmağı öyrənmək istədikdə və ya hər hansı önəmli bir işə girişdikdə yanımızda münasib dostların olması işimizə olduqca fayda vermişdir. Dostların dəstəyi, bizi ruhlandırması, nəzərdə tutduğumuz işin irəli getməsi üçün münasib yollar göstərməsi verəcəyimiz qərarın bizə asan görünməsinə səbəb olub bizi daha həvəslə irəli aparacaq.

## Ayələr arasındakı uyğunluq

"Əsr" surəsinin ayələri ilə "Zuxruf" surəsinin 67-ci ayəsi üzərində düşünərək onların arasında bağlılıq yaratmaqla ayələrdən münasib dostların olmasına dair üç mesaj qeyd edin.

Həyatımızda əsas örnəklərimiz sayılan və ən layiqli həyat yolu keçmiş din rəhbərlərimiz bizə bir sıra qaydalara tabe olmağı tövsiyə etmişlər. Yuxarıda qeyd etdiyimiz qaydaların davamı olaraq onlardan növbəti ikisini də nəzərinizə çatdırırıq:

**5. Mötədillik prinsipinə riayət etmək**

Həzrət Muhəmməd Peyğəmbər (s) Əmirəl-möminin Əliyə (ə) belə buyurmuşdur:

"Ey Əli, bu din sabit və mətindir. Ona mülayimliklə daxil ol. Elə bir iş görmə ki, qəlbində Rəbbinə ibadətə nifrət yaransın".

Sevimli Peyğəmbərimiz (s) bunu buyurduqdan sonra bir misal çəkərək ifrat və radikallıqdan uzaq olmağı bu şəkildə bəyan etmişdir:

"Miniyinə həddən artıq əziyyət verən insan nə miniyini qorumuş olur, nə də məqsədinə çatır (məqsədinə çatmır)".

Bəzi vaxtlar insan elə bir iş görmək qərarına gəlir ki, onu görmək qüdrəti xaricindədir. Bu da onu ruhdan salır. Buna görə də insan fiziki və mənəvi (psixoloji) baxımdan bacarıb öhdəsindən gələ biləcəyi işlərdən yapışmalıdır, gücü çatacağı işə girişməlidir. İbadətdə, işdə, mütaliədə, idmanda, oyaq qalmaqda, yatmaqda və bütün işlərdə mötədilliyə riayət etmək olduqca vacib məsələdir.

### 6. Tədricilik və davamlılıq prinsipinə riayət etmək

Həzrət Peyğəmbər (s) buyurmuşdur:

“Allah dərgahında ən bəyənilən iş az olmasına rəğmən davamlı olanıdır”.

Qərarlarımız nəzərdə tutduğumuz vaxta qədər qüvvədə qalsın deyə, tədricilik prinsipinə riayət etmək olduqca vacibdir. Hər hansı bir işin davamlı olmasını təmin edən onun tədricən yerinə yetirilməsidir. Misal üçün, hər hansı bir kitabı mütaliə etmək qərarına gəlmişiksə, yaxşı olar onun səhifələrini elə bölək ki, oxuyarkən yorulmayaq. Bir qədər oxuduqdan sonra mütaliə bizdə artıq adət halını alsın.

*Yolçu o deyil ki, becid gedə, yorğun ola,*
*Yolçu odur ki, rəvan gedə, həmişə gedə.*

**Bu dərsdə öyrəndiyimiz düşüncə nümunələri**

**1. Mesajı əldə etmək:**

Misal üçün, ..................... ayələrindən qərarda qətiyyətli olmaq başa düşülür.

**2. İki (və ya daha artıq) ayə arasında bağlılığı üzə çıxarmaq:**

Məsələn, “Əsr” surəsinin ayələri ilə “Zuxruf” surəsinin 67-ci ayəsi barədə düşündükdə bu bağlılıq aydın olur ki, ....................................
..........................................................................................................

# Dördüncü addım

**Allah-taala ilə əhd bağlamaq**

Allahım, istəyirəm ki, bu gündən etibarən Sənin mənim üçün bəyənib seçdiyin işlərə doğru getməyə və bəyənmədiyin işlərdən uzaq olmağa qərar verim.
Ey mənim Allahım, Səninlə əhd bağlayıram ki, boynuma düşən vacib əməlləri yerinə yetirməyə və haram əməllərdən uzaq olmağa çalışacağam.
**Ey mehriban Allah! Mənim səhv və xətalarımı bağışla və mənə bu yolda kömək ol!**

## Düşünmə və araşdırma

1. Kitabda qeyd olunmuş amillərdən başqa iradənin möhkəmləndirilməsinə təsir edəcək başqa amil və ya amillər tanıyırsınızmı?

2. Sizcə, aşağıdakı qərarları hansı amillər zəiflədə bilər? Hər birini ayrı-ayrılıqda qeyd edin:

A. Gündəlik namazları ilk vaxtında qılmaq.

B. Həftə ərzində yeddi saat faydalı kitablar mütaliə etmək.

C. Xeyriyyə fondlarının vasitəçiliyi ilə ehtiyacı olanlara yardım etmək.

3. Nə üçün İmam Sadiq (ə): “Yaxşı bir iş görmək fikrinə düşən insan onu tez yerinə yetirib yubatmamalıdır” – deyə buyurmuşdur?

## Təklif

**Özünüzü qiymətləndirin:**

İradəni möhkəmlədən və ya zəiflədən bəzi amillərlə tanış oldunuz. İndi isə həmin amilləri nəzərə alaraq özünüzü qiymətləndirin və görün iradəni möhkəmləndirən amillərdən hansı biri sizdə daha güclü , hansı isə daha zəifdir və həyatda öz əhdlərinizə sadiq qalmaq üçün qarşınızda hansı maneələr vardır?

Araşdırmanın nəticəsini qeyd edin. Açıqlanması mümkün olan məqamları sinifdə müzakirə edin.



# Dərs 11

## Oyaqlar sırasında

Öyrəndik ki, dindarlığın əsas şərti Allah-taala ilə bağlanılan əhdə sadiq qalmaqdır. Əhdə sadiq qalmaq həm Allahın razılığına, həm də insanın mənəvi cəhətdən daha da inkişaf etməsinə səbəb olur. Allahla bağlanılan əhdə dönük çıxmaq isə insanın Yaradanı qarşısında başıaşağı olub xəcalət çəkməsi ilə nəticələnir. Allah hər an bizi gözləyir, insana qarşı anasından da mehriban olub qucaq açır. Aşağıdakı kəlam Allahın Öz kəlamıdır:

"Kim Mənə doğru bir qarış yaxınlaşarsa, Mən ona doğru bir addım yaxınlaşaram. Kim Mənə doğru bir addım yaxınlaşarsa, Mən ona doğru iki addım yaxınlaşaram. Kim yavaş-yavaş Mənə doğru gələrsə, Mən tələsərək ona doğru yaxınlaşaram".

(Hədisi-qüdsi, Əvalil-ləali, c. 1, səh. 56)

Bəs görəsən, həmişə bir proqram hazırlamağa və məqsədimizə nail olmağa fürsətimiz varmı? Bilirik ki, bu mümkün deyil. Vaxt çox tez ötüb keçir, fürsət əldən çıxır. Belə olduğu halda:

1. Nəzərdə tutduqlarımızı reallaşdıra bilmək və əhdlərimizə sadiq qalmaq üçün hansı işləri görməliyik?

2. Hansı yolla bilmək olar ki, nəzərdə tutduqlarımızın icrasını uğurla yerinə yetirə bilmişik, yoxsa yox?

## Qiraət

Aşağıda verilmiş ayələri diqqətlə və gözəl şəkildə oxuyun.

اَعوذُ بِالله مِنَ الشَّيطانِ الرَّجيم

بِسمِ اللهِ الرَّحمنِ الرَّحيم

| | |
|---|---|
| Biz qiyamət günü üçün ədalət tərəzisi quraraq. | وَ نَضَعُ الْمَوازِينَ الْقِسْطَ |
| .............................. | لِيَوْمِ الْقِيامَةِ |
| .............................. | فَلا تُظْلَمُ نَفْسٌ شَيْئًا |
| Bir xardal dənəsi ağırlığında olsa belə, onu | وَاِنْ كانَ مِثْقالَ حَبَّةٍ مِنْ خَرْدَلٍ |
| (hər hansı bir əməli tərəziyə) gətirərik. | اَتَيْنا بِها |
| Haqq-hesab çəkməyə Biz kifayətik. | وَكَفى بِنا حاسِبينَ |

Ənbiya surəsi, 47-ci ayə

| | |
|---|---|
| .............................. | قُلْ هَلْ نُنَبِّئُكُمْ |
| .............................. | بِالْاَخْسَرِينَ اَعْمالًا |
| .............................. | اَلَّذينَ ضَلَّ سَعْيُهُمْ |
| .............................. | فِى الْحَيوةِ الدُّنْيا |
| .............................. | وَهُمْ يَحْسَبُونَ |
| onlar yaxşı işlər gördüklərini............. | اَنَّهُمْ يُحْسِنُونَ صُنْعًا |

Kəhf surəsi, 103-104-cü ayələr

| | |
|---|---|
| .............................. | يا اَيُّهَا الَّذينَ ءامَنُوا |
| .............................. | اِتَّقُوا اللّٰهَ |
| Hər kəs sabah üçün nə etdiyinə | وَلْتَنْظُرْ نَفْسٌ |

| | |
|---|---|
| مـاقَـدَّمَـتْ لِـغَـدٍ | (axirət üçün özünə nə hazırladığına) nəzər salsın. |
| وَاتَّـقُـوااللّٰـه | ………………..………….. |
| اِنَّ اللّٰـهَ خَـبِـيـرٌ بِـمـا تَـعْـمَـلـونَ | ………………..………….. |

Həşr surəsi, 18-ci ayə

## Tərcümə

Aşağıdakı izahların köməyi ilə yuxarıda verilmiş ayələrin tərcüməsini tamamlayın.

| | |
|---|---|
| لاتُـظْـلَـمُ : haqsızlıq edilməz | نُـنَـبِّـئُ : xəbər veririk |
| ضَلَّ : boşa getmişdir, puç olmuşdur | يَـحْـسَـبـونَ : zənn edirlər |

## Ayələrdəki mesaj

Verilmiş ayələr üzərində düşünərək aşağıdakı cədvəldəki mesajları tamamlayın  və hər birinə aid olan ayəni qeyd edin.

| Sıra | Ayələrdəki mesaj | Ayələr |
|---|---|---|
| 1 | Qiyamət günündə ................................................. | |
| 2 | Qiyamət gününün sorğu-sualında ola bilməz ki, kimsəyə ............. ......................................... Çünki bizim işlərimizi qiymətləndirən kəs ............................... | |
| 3 | Bəziləri düşünürlər ki, ............................................. halbuki ....... ............................................... Onlar dünya həyatındakı ............. ......................................................kəslərdir | |
| 4 | Hər kəs ehtiyatlı muğayat olmalıdır ki, .......................................... | |
| Əgər bu mesajlar arasında bir bağlılıq yarada bilsək, həyatda belə bir ümumi mesaj əldə etmiş olarıq: Əhdə sadiq qalmağın və ........................ .......... olmağın şərti ................................. olmaqdır. | | |

İndi belə bir sual yaranır: Bu şərtə əməl etmək üçün hansı proqrama əməl etmək lazımdır? Bu suala cavab tapmaqdan ötrü din rəhbərlərinin buyurduqlarına diqqət yetirib onların göstərişlərinə əməl etmək lazımdır. Onlar bu məqsədə nail olmaqdan ötrü çox dəqiq bir proqram tövsiyə etmişlər ki, onun da əsası əməllərə nəzarət və əməllərin hesabatıdır.

## Əməllərə nəzarət

Əməllərə nəzarət etmək hansı işlərin həyata keçirilməsinə diqqət etmək deməkdir. Əvvəldə Allah-taala ilə bağlanılan əhd təzə-təzə gəzməyə başlayan uşağa bənzəyir. Uşaq yıxılıb əzilməsin, eyni zamanda, düzgün şəkildə gəzməyi öyrənsin deyə, ona həmişə nəzarət edilməlidir.

İmam Əli (ə) buyurur: ‘Keçən günlər öz ardınca ziyanlar gətirir, o cümlədən qərarlarda və əməllərdə dağınıqlığa səbəb olur’.

Şərhi Ğürərül-hikəm və dürərül-kəlim, c. 4, səh. 626

Misal üçün, belə qərara gəlirik ki, həftənin tək günləri hər hansı bir idman klubuna gedib idmanla məşğul olaq. Əgər gün ərzində bu qərara diqqət yetirməsək, qərarımızda ciddi olmayacağıq. Bəlkə də başqa bir işlə məşğul olmaq nəticəsində öz fikrimizdən daşınıb idmanla məşğul olamayacağıq. Əməllərə nəzarət etməyin bir sıra aşağıdakı cəhətləri vardır:

1. Əməlin özünə nəzarət etmək: İnsan diqqət yetirməlidir ki, ilk növbədə Allah-taala ilə bağladığı əhdə sadiq olub dediyinə əməl etsin. Onun heç bir hissəsinə qarşı laqeyd yanaşmasın. Məsələn, namaz qılarkən diqqət yetirməlidir ki, namazın bütün vacib əməllərini düzgün şəkildə yerinə yetirsin və namazın batil olmasına imkan verməsin.

### Verilmiş cədvəli tamamlayın.

Namazın vacib əməlləri iki hissəyə bölünür: Biri rükn olanlar, digəri isə rükn olmayanlardır.

| Rükn: Rükn o əməldir ki, .................. ........................................ namazın batil olmasına səbəb olur. | | Qeyri-rükn: Rükn olmayan əməl o əməldir ki, ..................................... namazın batilolmasına səbəb olmur. | |
|---|---|---|---|
| 1. .................. | 4. ................ | 1. ................ | 4. ................ |
| 2. ................ | 5. .............. | 2. ................ | 5. ................ |
| 3. ................ | | 3. ................ | 6. ................ |

2. Əməlin yerinə yetirilməsi keyfiyyətinə nəzarət etmək: Hər hansı bir işin təsirli olması onun yerinə yetirilmə keyfiyyətindən asılıdır. Misal üçün, mütaliə o vaxt daha faydalı olar ki, əlverişli şəraitdə və diqqətlə edilsin. Yaxud ehtiyacı olan insana əl tutan şəxs elə etməlidir ki, kömək etdiyi şəxsin abır-həyasını aparmasın, ona minnət qoymasın. Əks təqdirdə etdiyi yaxşılıq öz dəyərini itirər.

Deməli, görəcəyimiz işlərdə arzuladığımız nəticəyə çatıb işin nəticəsini hiss etməkdən ötrü diqqətli olmalıyıq ki, işi ən yaxşı şəkildə yerinə yetirək.

## Araşdırma

*Namazın istənilən nəticəni verməsi üçün onu hansı formada yerinə yetirməliyik?

1. ..........................................................................................
2. ..........................................................................................
3. ..........................................................................................
4. ..........................................................................................

3. Əməlin yerinə yetirilməsindəki niyyətə nəzarət etmək: İstənilən işin ən önəmli cəhəti onun hansı məqsədlə yerinə yetirilməsidir. Əməlimizdə mütləq ixlaslı, səmimi olmalıyıq. Hər hansı başqa bir dünyəvi məqsəd güdməməliyik. Misal üçün, əgər başqalarına kömək ediriksə, bu iş o vaxt bizim səadətimizə xidmət edər ki, başqa sözlə desək, yalnız o vaxt savab sayılar ki, həmin işi özümüzü camaata göstərməkdən ötrü deyil, sırf Allah rizası üçün yerinə yetirək. Vəzifə borcumuz bilərək yerinə yetirək. Əgər məqsədimiz özümüzü başqalarına göstərmək olarsa, onda bu işin bizə nəinki xeyri olmaz, əksinə, bizə ziyan verib səadətə çatmağımıza mane olacaq.

Əmirəl-möminin Əli (ə) buyurur:

"Hər hansı bir işin bəlası onun ixlasdan (səmimiyyətdən) uzaq olmasıdır".[1],"İnsanın əməlləri ixlas nəticəsində göyə ucalır".[2], "Xoş o insanın halına ki, elm və əməli, dostluq və düşmənçiliyi, hər hansı bir işi görüb-görməməsi, danışması və ya sükut etməsi Allaha görə olsun!"[3]

1, 2. Şərhi Ğürərül-hikəm və dürərül-kəlim, c. 3, səh. 108
3. Yenə orada, c. 4, səh. 243

Hər hansı bir əməlin insanın mənəvi təkamülündəki təsiri həmin işi görən şəxsin ürəyindəki niyyətindən asılıdır. Buna görə də əməllərimizin yerinə yetirilməsindəki niyyətimizə nəzarət etməliyik. İmkan verməməliyik ki, dəyərli işlər qeyri-səmimi niyyətlər nəticəsində çirklənsin. Bir şeyi də nəzərə almaq lazımdır ki, bir işdə bir neçə yaxşı niyyət nəzərdə tutula bilər. Məsələn, ölkənin inkişafı və xalqın rifahı naminə dərslərini yaxşı oxuyan yeniyetmə Allahın bu işi sevdiyini bildiyi üçün dərslərinə daha ciddi yanaşır. Belə bir yeniyetmə nəinki təkcə cəmiyyətə kömək edir, eyni zamanda, mənəvi təkamülə yetişib axirət savabı qazanaraq Allahın da razılığını əldə etmiş olur.

İmam Sadiq (ə) buyurmuşdur:

"Əməllərinə nəzarət etməklə öz qəlbini qəflətdən, nəfsini şəhvətdən, elm öyrənməklə ağlını nadanlıqdan qoruyan insan oyaq insanlar sırasındadır."[1]

## Araşdırma

Namazı ixlasla və sırf Allah rizası üçün qılmaqdan ötrü hansı yolu təklif edərdiniz?

..........................................................................................................

..........................................................................................................

## Əməllərin hesabatı və dəyərləndirilməsi

Əməllərə nəzarət etməkdən sonra növbə əməllərin dəyərləndirilməsi və hesabatına çatır ki, görülən işdə müvəffəqiyyət əldə edilsin, müvəffəqiyyət və ya uğursuzluq amilləri üzə çıxsın. Əslində, əməllərin hesabatı ona görədir ki, insan öz səhv və xətalarına qarşı səhlənkar olmasın. Başqalarının səhvinə göz yuman insan alicənablıq etmiş olur. Öz səhvlərinə göz yuman insan isə səhvləri qarşısında öz acizliyini göstərmiş olur.

1 Biharul-ənvar, c. 70, səh. 68.

Həzrət Muhəmməd Peyğəmbər (s) buyurmuşdur:

"Sizi sorğu-suala çəkməzdən qabaq özünüz-özünüzü sorğu-suala çəkin".

*(Vəsailüş-şiə, c. 16, səh. 99)*

## Bağlılıq tapmaq

Həzrət Peyğəmbərin (s) əməllərin hesabatını aparmaqla bağlı yuxarıdakı kəlamının dərsdə verilmiş hansı ayələrlə bağlılığı vardır? Bu necə bir bağlılıqdır?

..........................................................................................................

..........................................................................................................

..........................................................................................................

İmam Kazim (ə) buyurmuşdur:

"Hər gün etdiyi əməllərin hesabatını aparmayan insan bizdən deyil".

*(Üsuli-kafi, c. 4, səh. 190)*

Sonuncu kəlamdan belə nəticəyə gəlirik ki, insan hər gün əməllərinin hesabatını aparmalıdır. Bunun ən münasib vaxtı günün sonudur. Yaxşı olar ki, hər gün geridə qoyduğumuz günün son anlarında gün ərzində etdiyimiz əməllərə bir nəzər salaq. Əgər uğurlu olmuşuqsa, buna görə Allaha şükür edək. Yox, əgər səhlənkarlığa yol vermişiksə, günah və ya səhv iş tutmuşuqsa, Allah dərgahına tövbə edib yeni bir əzmlə özümüzü növbəti günə hazırlayaq.

## Hədislər üzərində düşünmək

Növbəti səhifədəki cədvəldə İmam Əlinin (ə) kəlamları verilmişdir. Bu kəlamlar barədə düşünərək həzrətin əməllərin hesabatına dair buyurduğu nəticələri izah edin.

| Hədis | Mesaj |
| --- | --- |
| ١ـ مَنْ حاسَبَ نَفْسَه، وَقَفَ عَلىٰ عُيوبِه وَ اَحاطَ بِذُنوبِه وَ اسْتَقالَ الذُّنوبَ وَ اَصْلَحَ الْعُيوبَ<br>1. ------------------------------- ---------------------------------- ------------------------- | |
| ٢ـ ثَمَرَةُ الْمُحاسَبَةِ صَلاحُ النَّفْسِ<br>2. ----------------------------- ---------------------------------- ---------------------------------. | |
| ٣ـ مَنْ حاسَبَ نَفْسَه، سَعِدَ<br>3. ----------------------------- ---------------------------------.[2] | |

| Allah-taala ilə əhd bağlamaq | + | Əhdə sadiq qalmağa nəzarət etmək | + | Əhdə sadiq qalmaq üçün əməllərin hesabatını aparmaq | = | Əhdə sədaqət və həyatda müvəffəqiyyət |
| --- | --- | --- | --- | --- | --- | --- |

## Bu dərsdə öyrəndiyimiz düşüncə nümunələri

1. Bir neçə ayə arasında bağlılıq tapmaq: Üçüncü tapşırıqda verildiyi kimi.

2. Ayələrin izahı üçün hədislərdən istifadə etmək: Bu dərsdə verilmiş və iradədə qətiyyətli olmağı izah edən hədislər kimi.

1. Hər üç hədis "Mizanul-hikmət" kitabından verilmişdir, c. 1, səh. 618.

## Təklif

Həftəlik proqramımıza idman və dərsdən kənar mütaliələr əlavə etməli olsaq, əməllərə nəzarətin hər bir cəhəti üçün hansı işləri görərsiniz?

| | İdman | Mütaliə |
|---|---|---|
| İşin özünə nəzarət | | |
| İşin keyfiyyətinə nəzarət | | |
| İşin yerinə yetirilməsindəki niyyətə nəzarət | | |



*Əmirəl-möminin Əlidən (əleyhissəlam) soruşurlar:*
*"Ən zirək insan kimdir?" Həzrət cavab verir:*
*"İnsanların ən zirəyi o adamdır ki, ölümdən sonrası*
*üçün özünü və əməllərini sorğu-suala çəksin".*
*Soruşurlar: "Bu necə ola bilər?" Əmirəl-möminin (ə)*
*buyurur:*
*"Səhərdən axşama qədər iş-güclə məşğul olduqdan*
*sonra axşam özünə vaxt ayırıb özündən soruşsun:*
*"Bu gün yaşadığın bir gün oldu. Bu gün bir daha geri*
*dönməyəcək. Allah bu gün barədə səndən soruşacaq*
*ki, onda nə etdin və onu hara sərf etdin? Həmin*
*gündə heç Onu xatırlayıb Ona şükr etdinmi? Hər*
*hansı bir möminin çətinliyini həll etdinmi? Kiminsə*
*qəm-qüssəsini aradan qaldırdınmı?"*



# Beşinci addım

......................

Ey mənim Allahım!
İndi ki mən Sənin göstərişlərin əsasında yaşamaq niyyətindəyəm, Səninlə bağladığım əhdimə sadiq qalmağa çalışıb onu nəzarətdə saxlamaq istəyirəm.
Allahım, əməllərimə nəzarət edib onların hesabatını aparmaqda, səhlənkarlığa yol verməməkdə mənə yardımçı ol!
**İlahi, əgər nadanlıq edib Sənin əmrini yerinə yetirməkdə səhlənkarlığa yol versəm, məni bağışla və kömək ol ki, yenidən Sənə tərəf gəlim!**

## Düşünmə və araşdırma

1. Nə üçün hər işin başlanğıcında əməllərə nəzarət etmək lazımdır?

2. Bəzi insanlar deyirlər: “Biz müəyyən əməlləri etsək də, bəzi ibadətləri yerinə yetirsək də, özümüzdə onların təsirini hiss etmirik”. Sizcə, belə insanların problemi nədədir?

3. Əməllərə nəzarət ilə əməllərin hesabatı arasında nə kimi bağlılıq var? Ümumiyyətlə, bu iki iş arasında bağlılıq varmı?

4. Nə üçün hər hansı bir işi yerinə yetirərkən niyyətimizə diqqət etməliyik? Bunun həzrət Peyğəmbərin (s):” «إِنَّمَا الْأَعْمَالُ بِالنِّيَّاتِ» (Əməllər niyyətə görədir)[1] - deyə buyurduğu kəlama aidiyyəti varmı?

5. Bağışlayıb güzəştə getmək hansı halda bəyənilən, hansı halda bəyənilməzdir?

1. Şeyx Tusi, Ət-Təhzib, c. 1, səh. 83.

فَـأَمَّـا الَّـذيـنَ ءامَـنوا بِـاللّٰـهِ وَ اعْـتَـصَـموا بِـهِ
فَـسَـيُـدْخِـلُـهُـمْ فى رَحْـمَـةٍ مِـنْـهُ وَ فَـضْـلٍ
وَ يَـهْـديـهِـمْ اِلَـيْـهِ صِـراطًا مُـسْـتَـقيـمًا

Nisa surəsi, 175-ci ayə

Allah Ona iman gətirən və Ondan möhkəm yapışanları öz mərhəməti, lütfü altına alar və onları Özünə tərəf gedən düz (doğru) yola yönəldər.

## Üçüncü mərhələ: Yolda addımlamaq





# Dərs 12

## Yol getmək qaydası

Həyat yoluna məqsəd barədə düşünməklə başladıq. Qəlbi hazırlıq (həyatdakı məqsədə inam) mərhələsindən keçərək bizi həmin məqsədə doğru aparacaq iradə ilə davam etdirdik. Artıq indi bu yolda addımlayaraq məqsədimizə doğru getmək istəyirik. Bu səbəbdən, müəyyən bir proqrama ehtiyacımız var, çünki istənilən iş müəyyən və dəqiq bir proqramla irəli gedir.

Bu dərsdə öyrənəcəyik ki:

1. Bizim həyat proqramımızın hansı xüsusiyyətləri olmalıdır?

2. Bu proqramda hansı işləri nəzərə almalıyıq?

## Qiraət

Aşağıda verilmiş ayələri diqqətlə və gözəl şəkildə oxuyun.

أَعوذُ بِالله مِنَ الشَّيطانِ الرَّجيم

بِسمِ اللَّهِ الرَّحمنِ الرَّحيم

| | |
|---|---|
| مَنْ عَمِلَ صالِحًا | ................................ |
| مِنْ ذَكَرٍ اَوْ اُنْثى | ................................ |
| وَهُوَ مُؤْمِنٌ | ................................ |
| فَلَنُحْيِيَنَّهُ حَياةً طَيِّبَةً | xoş həyat nəsib edəcək və etdikləri |
| وَ لَنَجْزِيَنَّهُمْ اَجْرَهُمْ | ən yaxşı əməllərə görə |
| بِاَحْسَنِ ما كانوا يَعْمَلونَ | mükafatlarını verəcəyik. |

Nəhl surəsi, 97-ci ayə

| | |
|---|---|
| لَقَدْ كانَ لَكُمْ فى رَسولِ اللّٰهِ | ................................ |
| اُسْوَةٌ حَسَنَةٌ | ................................ |
| لِمَنْ كانَ يَرْجُو اللّٰهَ | ................................ |
| وَالْيَوْمَ الْآخِرَ | ................................ |
| وَذَكَرَ اللّٰهَ كَثيرًا | ................................ |

Əhzab surəsi, 21-ci ayə

| | |
|---|---|
| وَهُوَ الَّذى سَخَّرَ الْبَحْرَ | ................................... |
| لِتَأْكُلوا مِنْهُ لَحْمًا طَرِيًّا | Təzə ət (balıq əti) yeməyiniz, taxdığınız |
| وَتَسْتَخْرِجوا مِنْهُ | bəzəkləri (inci, sədəf, |
| حِلْيَةً تَلْبَسونَها | mərcan və s.) çıxartmağınız üçün |
| وَ تَرَى الْفُلْكَ | ................................... |
| مَواخِرَ فيهِ | (suları) yara-yara üzüb getdiklərini |
| وَ لِتَبْتَغوا مِنْ فَضْلِهِۦ | ................................... |
| وَ لَعَلَّكُمْ تَشْكُرونَ | ................................... |

Nəhl surəsi, 14-cü ayə

| | |
|---|---|
| وَقَضى رَبُّكَ | ................................... |
| اَلّا تَعْبُدوا اِلّا اِيّاهُ | ................................... |
| وَ بِالْوالِدَيْنِ اِحْسانًا | ................................... |
| اِمّا يَبْلُغَنَّ عِنْدَكَ الْكِبَرَ | Əgər onların biri və ya hər ikisi sənin yanında |
| اَحَدُهُما اَوْ كِلاهُما | (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, |
| فَلاتَقُلْ لَهُما اُفٍّ | ................................... |
| وَلا تَنْهَرْهُما | üstlərinə qışqırma |
| وَقُلْ لَهُما قَوْلًا كَريمًا | ................................... |

İsra surəsi, 23-cü ayə

| | |
|---|---|
| يا بُنَيَّ اَقِمِ الصَّلاةَ | ................................ |
| وَأْمُرْ بِالْمَعْروفِ | ................................ |
| وَ انْهَ عَنِ الْمُنْكَرِ | ................................ |
| وَ اصْبِرْ عَلى ما اَصابَكَ | Sənə yetişənə döz ki, bunlar vacib əməllərdən |
| اِنَّ ذٰلِكَ مِنْ عَزْمِ الْاُمورِ | və mühüm işlərdəndir! |
| وَ لا تُصَعِّرْ خَدَّكَ لِلنّاسِ | Adamlardan təkəbbürlə üz çevirmə, |
| وَ لا تَمْشِ فِى الْاَرْضِ مَرَحًا | yer üzündə lovğa-lovğa gəzib dolanma. |
| اِنَّ اللّٰهَ لا يُحِبُّ | ................................ |
| كُلَّ مُخْتالٍ فَخورٍ | heç bir özündən razını, lovğalanıb fəxr edəni......... |
| وَ اقْصِدْ فى مَشْيِكَ | Yerişində müvazinət gözlə (nə çox yeyin, |
| وَ اغْضُضْ مِنْ صَوْتِكَ | nə də çox asta get) və (danışanda) səsini qaldırma. |
| اِنَّ اَنْكَرَ الْاَصْواتِ | Çünki ən çirkin səs |
| لَصَوْتُ الْحَميرِ | uzunqulaq səsidir! |

Loğman surəsi, 17-19-cu ayələr

## Tərcümə

Aşağıdakı izahların köməyi ilə yuxarıda verilmiş ayələrin tərcüməsini tamamlayın.

| | | | | | |
|---|---|---|---|---|---|
| sənə üz verənə (başına gələnə) | ما اَصابَكَ : | qadın | اُنْثى : | kişi | ذَكَر : |
| örnək, nümunə | اُسوَةٌ : | | | oğlum | بُنَيَّ : |
| hökm etdi, əmr verdi | قَضى : | | | ümid bəsləyirsə | كانَ يَرْجو : |
| xoş, mülayim | كَريم : | | | demə | لاتَقُلْ : |

## Ayələrdəki mesaj (1)

"Nəhl" surəsinin 97-ci ayəsi üzərində düşünərək məlum olur ki:

Təmiz həyata və ........................ çatmağın şərti .................................. və yaxşı əməldir.

Qurani-kərimdə adətən "əməl" sözü "yaxşı" sifəti ilə birlikdə işlədilmişdir. "Yaxşı əməl" dedikdə nə nəzərdə tutulur?

"صالح" sözü "yaxşı", "layiqli" mənasını bildirir. "Yaxşı əməl" dedikdə insanı həqiqi xoşbəxtliyə aparıb çatdıra, insanın ömrünün hədərə getməsinin qarşısını ala biləcək əməl başa düşülür.

Əllamə Təbatəbai, Əl-Mizan təfsiri, Bəqərə surəsinin 130-cu ayəsinin izahı.

## Proqram hazırlamağın vacibliyi

Proqram hazırlamaq insanın istənilən şəraitdə saleh hesab olunan və onu uğura aparan əməlləri yerinə yetirməsinə səbəb olur. Məhz buna görə də İmam Əli (ə) belə buyurur:

"Əsaslı həyat gözəl bir plan və proqramla təmin olunur. Bu gözəl planın əsası isə gözəl düşüncədir".[1]

Həzrət təkid edərək buyurur:

"Sənin vaxtların ömrünün tərkib hissələridir. Elə isə heç bir vaxtını hədərə vermə. Vaxtını yalnız sənin xoşbəxtliyinə kömək edəcək işlərə sərf et".[2]

1. Şərhi Ğürərül-hikəm və dürərül-kəlim, c. 4, səh. 515.
2. Yenə orada, c. 4, səh. 602

Proqram əsas məqsədləri əsas olmayan məqsədlərdən ayırıb hər birinə nə qədər vaxt sərf etməyi müəyyənləşdirir. Eyni zamanda, insana əsas məqsədinə çatmağın yolunu da göstərir. Proqram sayəsində hər bir işin zaman, məkan, şəraitə və insanın potensialına uyğun olaraq öz yeri məlum olur. Əslində, zaman, sanki əməlin qabıdır. Hər yeni gün səhər açıldıqdan növbəti günün başlamasına qədər bizim ixtiyarımızda xeyli saatlar, dəqiqələr olur. Bu saatların hərənin özünə xas olan işləri vardır. Misal üçün, səhər tezdən namaz, Quran qiraəti, dərslərin mütaliəsi və idmana uyğundur. Günün bir hissəsi iş və ya dərs, digər bir hissəsi ictimai fəaliyyətlər, idman, əyləncə və s. üçündür. Axşam vaxtı isə istirahət, təfəkkür, mütaliə və Allah-taala ilə razü-niyaza məxsusdur.

Bizim mənəvi (psixoloji) və bioloji vəziyyətimiz də müxtəlif yaş dövrləri ilə əlaqədar olaraq fərqli olur. Buna görə də həmin vəziyyətə uyğun proqram tənzimləmək lazımdır.

Uşaqlıq dövrü təbii bacarıqların üzə çıxması, oynamaq dövrüdür. Yeniyetməlik və gənclik dövrü istedadların üzə çıxması, elm öyrənmək, xüsusilə də düşüncə və təfəkkürün çiçəkləndiyi vaxtda cəmiyyətə qatılmaq və böyük seçimlər etmək dövrüdür. Məhz bu dövrdə edilən seçimlər insanı şəxsiyyət olaraq formalaşdırır.

Bütün bunları nəzərə alaraq, zaman, yaş, psixoloji və əxlaqi şəraitə uyğun qərarlar vermək ciddi şəkildə ölçülüb-biçilmiş proqrama ehtiyac duyur ki, ömrün bu fürsətində insanın bacarıq və potensialı öz bəhrəsini verib ona mümkün qədər az ziyan yetirsin.

## Daha ətraflı biləк

**Biz ətrafımızdakı digər məxluqlardan daha bacarıqlıyıq**

Ətrafımızdakı bütün məxluqlar öz yolunu gedib onun üçün nəzərdə tutulan məqsədə çatmaqdan ötrü Allahın onlar üçün müəyyən etdiyi çox dəqiq bir proqram əsasında hərəkət edirlər. Onların bütün işləri ölçülüb-biçilmiş şəkildə həyata keçir. Siz bu məxluqlardan bəzisinin həyat fəaliyyətinə diqqət yetirib onları qeyd edə bilərsiniz. Bu işdə heyvanlar və bitkilərlə bağlı hazırlanmış sənədli filmlərin sizə çox köməyi dəyə bilər. Onların həyatında bircə an da olsun vaxtın hədər getdiyini görə bilməzsiniz. Həyatlarının bütün anları müəyyən bir iş üçün nəzərdə tutulmuşdur. Hətta istirahət vaxtları da proqram əsasında tənzimlənmişdir. Aşağıdakı iki nümunəyə diqqət yetirək:

Bir sərçənin həyat çarxındakı bioloji saatı olduqca maraqlı və heyrətamizdir.



O, elə hərəkət edir ki, sanki qarşıdakı bir neçə ayda nələrin baş verəcəyini bilir. Qidalanma, köçmək zamanı və balaları qoruma arasındakı uyğunluq ondan xəbər verir ki, sərçənin hər bir hərəkəti müəyyən bir məqsədə xidmət edir. Belə ki, hansısa bir iş yerinə yetirilməsə, növbəti işlər nəticəsiz qalacaq. Əgər sərçənin hərəkət çarxını yaz fəslindən izləsək, görərik ki, şimal istiqamətinə köçməyə hazırlıq məqsədilə indi yeməyini artırır. Yeni bir əraziyə köçdükdə orada yumurta qoyub bala çıxarır. Çünki yeni ərazinin yay havasını balalarını böyütməyə daha əlverişli hesab edir. Yavaş-yavaş balaları böyüdükcə payız fəsli gəlib çatır. Payız fəslinin əvvəlində bir daha öz yemək səviyyəsini artırır ki, qışda daha əlverişli hava şəraiti olan cənub bölgəsinə köçməyə hazır olsun. Sərçənin həyatındakı bu dəqiq proqram onun həm özünün yaşaması, həm də nəslinin davam etməsi ilə nəticələnir.[1]

* * *

Allah-taala Quranda balı şəfaverici xüsusiyyətə malik ən faydalı təbii qidalardan biri kimi təqdim etmişdir.

Bu qida növünün faydaları haqqında alimlər kifayət qədər məlumatlar vermiş, kitablar yazmışlar. Arı bu maddəni hazırlamaqdan ötrü həddən artıq incə və dəqiq bir proqramla çalışır.

Ağaclar və bitkilər gül açdıqda gülün əsas hissəsi sayılan şirəsinin üzərinə qonaraq onu bədənində yerləşdirilmiş xüsusi kisəyə toplamağa başlayır. Topladığı şirə təxminən qırx milliqram həcminə çatdıqda öz yuvasına doğru geri dönür. Yuvaya qayıdarkən arının topladığı şirənin üzərinə balın yaranmasında əsas məhlul hesab edilən diastazdan azacıq damır. Bu məhlul arının bədənində yerləşdirilmiş xüsusi kisənin divarında olur. Həmin anda arı şirənin suyundan bir qədərini özünə cəzb edir ki, bal kifayət qədər qatılığa malik olsun. Ondan sonra qatılaşmış və artıq "bal" adlanan bu məhlulu mumdan hazırladığı pətəyin bir xanasına tökür. Tədricən pətəyin bütün xanaları dolur. Beləliklə, həm arı özü, həm də insanlar və bəzi heyvanlar bu faydalı qida növündən istifadə edirlər.

1 K.E, Villi, "Biologiya", ikinci nəşr, səh. 125.

Arı Allah-taalanın ən təmiz məxluqlarından biri sayılır. O heç vaxt öz nəcisini yuvasında ifraz etmir. Təbii ehtiyacını ödəməkdən ötrü mütləq yuvasından kənara çıxır.

Arılar arasında oluqca dəqiq iş bölgüsü aparılır. Yaşlı arılar bal hazırlamaq məqsədilə yuvadan çıxır, nisbətən cavan arılar isə yuvada qalıb körpə arıları qorumaq və mum hazırlamaqla məşğul olurlar.





Gördüyümüz kimi, təbiətdəki bütün məxluqlar nə qədər kiçik olsa belə, müəyyən bir proqram əsasında hərəkət edirlər. Bu proqram onlara fitri olaraq Uca Allah tərəfindən ilham edilmişdir. Həmişə müəyyən bir işlə məşğul olub vaxtlarını qətiyyən hədər vermirlər. Ağıl və düşüncə qabiliyyətinə malik biz insanlar da ətrafımızfdakı məxluqlardan ibrət götürüb vaxtımızın hər hissəsini müəyyən işə sərf edə bilərik. Bununla da həm özümüzə, həm də başqalarına fayda vermiş olarıq.

***Qədrini bilməsə vaxtın ürək, görməsə iş,***
***Utana xəcalətindən ki, ona yox pərvəriş.***

Hafiz

## Nümunələr qeyd etmək

Şübhəsiz ki, siz də mütaliələrinizdə təbiətdəki dəqiq proqrama dair nümunələrlə qarşılaşmısınız. Belə nümunələrdən bəzisini qeyd edərək sinifdə sinif yoldaşlarınız üçün oxuyun. Həmin nümunələrlə vaxt arasındakı uyğunluğu izah edin.

## Müəyyən edin

Aşağıdakı cədvəldə verilmiş əməllərdən hansılarının bəyənilən, hansıların bəyənilməyən iş hesab edildiyini bildirin.

| Əməl | Bəyənilən | Bəyənilməyən |
|---|---|---|
| 1. İldə bir dəfə nənə və babanın görüşünə getmək. | | |
| 2. Adətən ehtiyac yaranan şəriət məsələlərini öyrənməyi təxirə salmaq. | | |
| 3. Gündəlik az bir vaxtı televizora baxmağa sərf etmək. | | |
| 4. Gecənin bir hissısini oyaq qalıb günəş çıxana qədər yatıb qalmaq. | | |
| 5. Həftə ərzində idmana müəyyən vaxt həsr etmək. | | |
| 6. ...................................................................... . | × | |
| 7. Həftədə iki saat istənilən kitabı mütaliə etmək. | | |
| 8. ...................................................................... . | | × |
| 9. Sübh namazından sonra gündəlik Qurandan bir neçə ayə oxuyub onların barəsində düşünmək. | | |
| 10. Ehtiyacı olanlara kömək məqsədilə şəxsi pulundan müəyyən bir məbləği kənara qoymaq. | | |

## Ayələrdəki mesaj (2)

Əhzab surəsinin 21-ci ayəsi üzərində düşündükdə məlum olur ki:

Həyatdakı proqramımız o vaxt uğur gətirər ki, ............................ yerinə qoymuş olaq.

Həzrət Muhəmməd Peyğəmbər (s) və Əhli-beyti (ə) öz həyatlarında çox dəqiq bir proqram üzrə hərəkət etmişlər. Dostlarına da tövsiyə etmişlər ki, həyatlarını proqram və məqsəd üzrə qursunlar.

Bir gün İmam Hüseyn (ə) atasından soruşur: "Peyğəmbər evə getdikdə nə edərdi?" Atası buyurur:

"Evdə vaxtını üç hissəyə bölərdi. Bir hissəsini ibadətə həsr edər, bir hissəsini ailə üzvləri ilə keçirər, bir hissəsini də öz işlərinə sərf edərdi. Özünə ayırdığı hissəni özü ilə camaat arasında bölər və onları həmin vaxtda qəbul edərdi".[1]

Əbuzər həzrət Peyğəmbərin (s) belə buyurduğunu söyləyir:

"Ağıllı insan vaxtını bu şəkildə bölər: Bir hissəsini Allah-taala ilə münacata, bir hissəsini öz işlərinə yetişməyə, bir hissəsini Allahın ona əta etdikləri barədə fikirləşməyə, bir hissəsini də Allahın nemətlərindən faydalanmağa sərf edər".[2]

Həzrət Peyğəmbər (s) və Əhli-beytinin (ə) həyatı bizim üçün əsl örnəkdir. Biz onların həyatına nəzər salmaqla öz həyatımız üçün ən gözəl proqram qurub səadət yolunda irəliləyə bilərik. Məhz bu üzdən Allah-taala Peyğəmbəri (s) bizlər üçün örnək qərar vermişdir. Sevimli Peyğəmbərimiz (s) də bizdən istəmişdir ki, onun Əhli-beytini (ə) özümüzə örnək seçək.

Örnək o insandır ki, onun ardınca, onun yolu ilə getmək olar. Bunun mənası o demək deyil ki, biz də mütləq onun kimi olmalıyıq. Biz sadəcə ən gözəl örnək sayılan həzrət Peyğəmbər (s) və Əhli-beytinin (ə) yolu ilə gedək. Bu yolda nə qədər uğur qazanarıqsa, onlara bir o qədər yaxınlaşmış olarıq.

1. Peyğəmbər simasına təkrar baxış, səh. 34.
2. Biharul-ənvar, c. 77, səh. 73.

Əmirəl-möminin Əli (ə) valilərdən birinə yazdığı məktubunda belə buyurur: "Camaatın elə bir başçıya ehtiyacı var ki, onun ardınca gedə, elminin işığından faydalana bilsin. Sizin başçınız (mən) bu dünyadan iki köhnə paltar və iki tikə çörəklə kifayətlənir. Təbii ki, siz bu cür çətin həyatı yaşaya bilməzsiniz. Sizdən istədiyim odur ki, təqvalı, çalışqan, iffətli və dürüstlüyünüzlə mənə kömək edəsiniz".[1]

## Ayələrdəki mesaj (3)

"Nəhl" surəsinin 14, "İsra" surəsinin 23 və "Loğman" surəsinin 17-19-cu ayələri barədə düşünərək onları bir-biri ilə uzlaşdırdıqda məlum olur ki:

1. Həyatımızın bir hissəsi ....................... aiddir.
Məsələn, .......................
2. Həyatımızın bir hissəsi ....................... aiddir.
Məsələn, .......................
3. Həyatımızın bir hissəsi ailə məsələlərinə aiddir.
Məsələn, .......................
4. Həyatımızın bir hissəsi ....................... aiddir.
Məsələn, .......................
5. Həyatımızın bir hissəsi yaradılış məsələlərinə aiddir.
Məsələn, .......................

Məlum olduğu kimi, bu beş qrup iş o vaxt faydalı olur ki, Allah xatirinə və səadətə çatmaq məqsədilə görülsün, yəni bu işlərin hamısı sırf Allah rizası üçün yerinə yetirilsin. Bəzi işlər ola bilsin yuxarıdakı hallardan yalnız birinə, bəziləri isə bir neçəsinə aid olsun. Məsələn namaz yalnız təklikdə qılındıqda yalnız Allaha aid olur, çünki yalnız Onunla razü-niyaz etmiş oluruq. Lakin camaatla birlikdə qılındıqda Allaha aid olmaqla yanaşı, eyni zamanda, insanlar arasında mehribanlıq yaranmasına da səbəb olur. Bu baxımdan, cəmiyyətə də aid olur. Quran oxuyub onun ayələri barədə düşünməyə gəldikdə, Allah kəlamı olması baxımından Allaha aid olur, lakin onu oxumaq insanın düzgün inanclar əldə etməsinə şərait yaratdığına görə insanın şəxsi işlərinə də aid olur.

1. Nəhcül-bəlağə, 45-ci məktub.

## Müəyyənləşdirin

Aşağıdakı cədvəldə verilmiş işlər barədə fikirləşin. Hər birinin həyatın hansı sahəsinə aid olduğunu müəyyən edin.

| İş | Allaha aid | Özümüzə aid | Ailəyə aid | Cəmiyyətə aid | Yaradılışa aid |
|---|---|---|---|---|---|
| Resusrlardan istifadəyə qənaət | | | | | |
| Ağac əkmək | | | | | |
| Xums ödəmək | | | | | |
| Qədr gecəsində əhya saxlamaq | | | | | |
| Ailə başçısının ailənin dolanışığını təmin etmək məqsədilə işləməsi | | | | | |
| İdman | | | | | |
| Ölkənin elmi cəhətdən inkişafı üçün çalışmaq | | | | | |
| İnsanları yaxşı işlərə dəvət etmək | | | | | |
| Gözütox olmaq | | | | | |
| Seçkilərdə iştirak etmək | | | | | |
| Yaşıdlarla dostluq etmək | | | | | |
| Ehtiyacı olanlara yardım etmək | | | | | |
| Həccə getmək | | | | | |
| Kitab oxumaq | | | | | |

### Bu dərsdə öyrəndiyimiz düşüncə nümunələri

1. Şərt ilə şərtlənən arasında bağlılığın olması: "Nəhl" surəsinin 97-ci ayəsində olduğu kimi.

2. Ayələrin izahında hədislərdən istifadə etmək: Məsələn, ayələrdəki "yaxşı əməl" ifadəsini hədislərə əsasən izah etmək.

3. Bir neçə ayə arasında bağlılıq yaratmaq: Məsələn, işlərimizin bölüşdürülməsi üçün Nəhl surəsinin 14, "İsra" surəsinin 23 və "Loğman" surəsinin 17-19-cu ayələrini bir-biri ilə əlaqələndirmək.

Qeyd edilənlərə əsasən, Allahın buyurduğu göstərişlər bu beş qrupdan birinə aid olur. Sonrakı dərslərimizdə və növbəti kitablarda Allahın bir sıra göstərişləri qeyd ediləcək. Allahdan arzu edirik ki, Onun bütün göstərişlərinə əməl edib onların icrası ilə bağlı Allah ilə öz aramızda əhd bağlayaq, əhdimizə sadiq qalıb səadət yolunda mətin addımlarla irəliləyək.



# Proqram dəftərçəsi

Şəxsi bir dəftərçə tutun və həyatınızdakı işlərinizi orada qeyd edin. Bu dəftərçə iki hissədən ibarət ola bilər:

1. Bütün həyat üçün bağlanılan əsas əhdlər.
2. Gündəlik və ya həftəlik işlər üçün bağlanılan əhdlər.

Yaxşı olarki, bu hissələrin hər biri ayr-ayrı bölmələrə ayrılsın. Belə olarsa, onu izləməyiniz və lazımi düzəlişlər etməyiniz daha rahat olar. Misal üçün, gündəlik və ya həftəlik işlər üçün aşağıdakı kimi bir cədvəl qura bilərsiniz.

| **Əhd:** | **Tarix:** |
|---|---|

**Əməllərə nəzarət:** İş əsnasında bu əhdə riayət etməli olduğumuz məqamlar.

1.......................................................................

2 .......................................................................

**Əməllərin hesabatı:**[1]

| Zaman | Uğur səviyyəsi | Uğur amilləri | Uğursuzluq amilləri | Daha artıq uğur qazanmaq yolları |
|---|---|---|---|---|
| | | | | |

1 Əməllərin hesabatı növbəli şəkildə müəyyən vaxtlarda həyata keçirilir.

# Altıncı addım

.........

İndi ki həyatıma yeni bir baxışla baxır, məqsədimi və ona çatmağın yollarını tanıyıram, çalışacağam ki, aydın bir proqram tərtib etməklə Quranın və məsum rəhbərlərin bələdçiliyə ilə məqsədə dorğu irəliləyim. Bu proqram həyatımın bütün mərhələlərini və sahələrini əhatə edəcək.

**Allahım, bütün işlərimdə Sən mənim yardımçım ol!**

## Düşüncə və araşdırma

1. Nə üçün məxluqat arasında yalnız insan vaxtını hədər verə bilər?
2. Həzrət Peyğəmbərin (s) müsəlmanlar üçün örnək olmasının mənası nədir?
3. Həyatda müəyyən bir proqrama sahib olmağın nə kimi faydaları vardır?

## Təklif

1. “Nəhcül-bəlağə” kitabının qısa kəlamlar bölməsində “Möminin ...” başlığı ilə başlayan 382-ci kəlama müraciət edərək görün İmam Əli (ə) gün ərzindəki vaxtları hansı işlər üçün ayırmışdır? (Burada qeyd etdiyimiz rəqəm Feyzülislamın tərcüməsinə müvafiq olaraq verilmişdir).

2. “Həyat bilgisi” kimi dərsliklərə müraciət edərək məxluqatın həyatında da müəyyən məqsəd olmasına dair təqdimat hazırlayın. Yaxşı olar ki, təqdimatda müəyyən şəkillər də verəsiniz.

3. Öz şərait və istəklərinizi nəzərə alaraq, əgər gündəlik həyatınız üçün proqram hazırlayası olsanız, onun əsas özəllikləri nədən ibarət olar? Hansı xüsusiyyətləri özündə əks etdirməlidir?

Dərs 13

# Məhbubun hüzurunda

Allah-taala bizim və dünyadakı digər varlıqların Yaradanıdır. O, eyni zamanda, varlığımızın sahibi və bizim məhbubumuzdur. Dünyanın bütün işlərini məhz O idarə edir. Onun qüdrəti bütün dünyanı əhatə etmiş, mərhəməti göyləri və yeri bürümüşdür. O, bütün gözəlliklərin və yaxşılıqların mənbəyidir. Hər bir xeyir və yaxşılıq Ondandır. Hər bir nemət Onun verdiyidir. O, bütün nöqsan və çatışmazlıqlardan uzaqdır. Lütfü bütün vucudumuzu əhatə etmiş, məhəbbəti başımızın üstünə kölgə salmışdır.

Belə bir Allaha təbii olaraq istənilən şəxs həmd edib Onun pisliklərdən uzaq olduğunu bildirər (təsbih). Biz bunu hələ beşinci dərsdə öyrənmişdik. Bu dərsdə isə öyrənmək istəyirik ki:

1- Allahı xatırlamağın digər formaları hansılardır?

2- Hansı ibadət Allahı bizə bütün proqramlardan daha da artıq xatırladır?

## Qiraət

Aşağıda verilmiş ayələri diqqətlə və gözəl şəkildə oxuyun.

أَعوذُ بِالله مِنَ الشَّيطانِ الرَّجيم

بِسمِ اللَهِ الرَّحمنِ الرَّحيم

| | |
|---|---|
| يا اَيُّهَا الَّذينَ ءامَنُوا | ……………………………… |
| اذْكُرُوا اللّٰهَ ذِكْرًا كَثيرًا | ……………………………… |
| وَسَبِّحُوهُ بُكْرَةً وَ اَصيلًا | Onu səhər-axşam təqdis edib şəninə tariflər deyin! |

Əhzab surəsi, 41-42-ci ayələr

| | |
|---|---|
| وَ مَنْ يَعْشُ | Hər kəs Rəhmanın |
| عَنْ ذِكْرِ الرَّحْمٰنِ | zikrindən boyun qaçırsa, |
| نُقَيِّضْ لَهُ شَيْطانًا | Biz ona Şeytanı urcah edərik |
| فَهُوَ لَهُ قَرينٌ | və onun (Şeytanın) yaxın dostu olar. |

Zuxruf surəsi, 36-cı ayə

| | |
|---|---|
| اِنَّني اَنَا اللّٰهُ لا اِلٰهَ اِلّا اَنَا | ……………………………… |
| فَاعْبُدْني | ……………………………… |
| وَ اَقِمِ الصَّلاةَ لِذِكْري | ……………………………… |

Taha surəsi, 14-cü ayə

وَ اِنْ مِنْ شَیْءٍ — Elə bir şey yoxdur ki, Allaha tərif deyib

اِلّا يُسَبِّحُ بِحَمْدِهِ — Ona şükür etməsin,

وَ لٰكِنْ لا تَفْقَهونَ تَسْبيحَهُمْ — ................................

اِنَّهُ, كانَ حَليمًا غَفورًا — ................................

İsra surəsi, 44-cü ayə

اَلْحَمْدُ لِلّٰهِ الَّذى — ................................

لَهُ, ما فِى السَّماواتِ وَ ما فِى الْاَرْضِ — ................................

وَ لَهُ الْحَمْدُ فِى الْأٰخِرَةِ — ................................

وَ هُوَ الْحَكيمُ الْخَبيرُ — ................................

Səbə surəsi, 1-ci ayə

اُدْعوا رَبَّكُمْ تَضَرُّعًا وَ خُفْيَةً — ................................

اِنَّهُ, لا يُحِبُّ الْمُعْتَدينَ — ................................

Əraf surəsi, 55-ci ayə

يا اَيُّهَاالَّذينَ ءامَنوا — ................................

كُلوا مِنْ طَيِّباتِ — ................................

ما رَزَقْناكُمْ — ................................

وَاشْكُروا لِلّٰهِ — ................................

اِنْ كُنْتُمْ اِيّاهُ تَعْبُدونَ — əgər yalnız Allaha ibadət edirsinizsə,

Bəqərə surəsi, 172-ci ayə

## Tərcümə

Aşağıdakı izahların köməyi ilə yuxarıda verilmiş ayələrin tərcüməsini tamamlayın.

| | | | |
|---|---|---|---|
| yalvara-yalvara | تَضَرُّعًا : | ibadət et | أُعْبُدْ : |
| gizlində | خُفْيَةً : | həlim, səbirli | حَلِيم : |
| həddini aşanlar | مُعْتَدِينَ : | anlamırsınız | لا تَفْقَهُونَ : |
| | | çağırın, səsləyin | أُدْعوا : |

## Ayələrdəki mesaj

**A.** "Əhzab" surəsinin 41, "Zuxruf" surəsinin 36 və "Taha" surəsinin 14-cü ayələri üzərində düşünərək aşağıda verilənləri tamamalayın.

1. Yaxşı olar ki, biz ......................................................
2. Kim Rəhmanın (Allahın) ..........................................
3. Namaz ......................................................................

Namazdakı ifadələrdən nümunələr qeyd etməklə nəyə görə Allahı yad etməyin ən gözəl formasının namaz olduğunu izah edin.

1.
2.
3.

**B.** "İsra" surəsinin 44, "Əhzab" surəsinin 42 və "Səbə" surəsinin 1-ci ayəsi üzərində düşünərək aşağıda verilənləri tamamalayın.

1. Bütün məxluqat Allahı ......... və....................................
2. Yaxşı olar ki, biz də ................ və ..............................
3. .........və............. Allahı zikr edib xatırlamağın nümunələrindəndir.

Namazda Allahın həmd və təsbihinə aid olan ifadələrdən qeyd edin.

| | |
|---|---|
| 1. | 4. |
| 2. | 5. |
| 3. | 6. |

**C.** “Əraf” surəsinin 55-ci ayəsi üzərində düşünərək aşağıda verilənləri tamamalayın.

1. Namazda həmişə ....................... oxuyuruq, çünki ........................... .
2. Öz istəklərimizi Allah-taala ilə ............. və .................. şəkildə bölüşürük.

Namazda dua və Allahdan istəyə aid olan ifadələrdən qeyd edin.

1.
2.
3.

**Ç.** “Bəqərə” surəsinin 172-ci ayəsi üzərində düşünərək aşağıda verilənləri tamamalayın.

1. Möminlər ........................................... faydalanmalıdırlar.
2. ............................verdiyi nemətlərə görə Ona..................... etməliyik.
3. .............................şükür etmək...................... nümunələrindən biridir.

...............kimi bir ibadəti yerinə yetirməklə verdiyi nemətlərə görə Allaha...........................

## Dostu yad etmək

Hər birimizin çoxlu sayda dostlarımız var. Təbii ki, onlara olan sevgi dərəcəmizə görə bir-birindən fərqlənirlər. Dostluq nə qədər möhkəm olarsa, dostu bir o qədər çox xatırlayıb yada salarıq. Hətta vəziyyət o həddə gəlib çata bilər ki, insan bircə an da olsun dostunu yaddan çıxartmaz. Dostu yad etməyin özü də dostluq əlaqəsini möhkəmlədir.

Allaha olan sevgimiz də bu cürdür. Bizim Onu yad etməyimiz həm Ona olan sevgimizin nişanəsidir, həm də bu sevgini daha da artırır. Eləcə də həyatda həmişə Onun hüzurunda olma düşüncəmizi gücləndirir. İnsan Allahın hər an onun həyatında hazır olub insanın bütün əməllərini gördüyünü düşünərsə, Yaradanın qarşısında özünü daha ədəbli aparıb Onun bəyəndiyi işləri görməyə, Onun bəyənmədiyi işlərdən uzaq durmağa çalışar.

Namaz belə bir işin ən dolğun nümunəsidir. Hər birimiz gün ərzində ən azı beş dəfə namaz qılaraq qəlbimizdə Allaha olan sevgini möhkəmləndiririk.

Namazda Allaha təsbih deyib Onun bütün nöqsan və çatışmazlıqlardan uzaq olduğunu bildiririk.

Namazda Allaha həmd edib Onun bütün yaxşılıq və gözəlliklərə malik olduğunu bildiririk.

Namaz Allaha şükür etməyin ən gözəl formasıdır. Həyatda olan bütün nemətlərimizi bizə O bəxş edib. Biz də öz növbəmizdə namaz qılmaqla həmin nemətlərin şükrünü yerinə yetirmiş oluruq.

Namazda Allah dərgahına dua edib diləklərimizi Ondan diləyirik.[2]

## Şəriət hökmlərinin təkmilləşdirilməsi

**A.** Əvvəlki kitablarda öyrənmişdik ki, namaz qılarkən insanın bədəni və paltarı pak olmalıdır. Bədən və ya paltar murdar olarsa, namaza başlamazdan qabaq mütləq paklanmalıdır. Buna görə də müsəlman olan hər bir şəxs murdar hesab edilən şeyləri və onların paklanma qaydasını bilməlidir.

1. İbadət haqqında daha ətraflı məlumat üçün şəhid Murtaza Mütəhhərinin “Tövhid dünya baxışı” kitabına müraciət edə bilərsiniz. (c. 2, səh. 84-85).

**Unutmayın ki:**

On bir şey istisna olmaqla hər şey pakdır. Murdar sayılan on bir şeyə təmas edən hissə də murdar olur.

Murdar hesab edilən bəzi şeylər aşağıdakılardır:

1. İnsan və ya sıçrayışla çıxan heyvan qanı.

Deməli, qoyun və toyuğun qanı ..............., balığın qanı isə ............. sayılır.

2. İnsanın və ya qanı sıçrayışla çıxan və ətinin yeyilməsi haram olan heyvanların sidiyi və nəcisi.

Deməli, pişik və siçanın sidiyi və nəcisi ................., toyuq, qoyun və sərçənin sidiyi və nəcisi isə .............. sayılır.

3- İnsan və ya qanı sıçrayışla çıxan heyvanın ölüsü.

Deməli, pişik, siçan və qoyunun ölüsü .................., ilan və balığın ölüsü isə ............. sayılır.

4-5- İt və donuz. İstər onların ölüsü, istərsə də dirisi murdardır.

Deməli, yaş əlini, yaxud paltarını itə və ya quru halda əlini, yaxud paltarını itin yaş bədəninə sürtən şəxsin əli və ya paltarı murdar olur. Eləcə də yaş vəziyyətdə olan it insanın bədəninə və ya paltarına toxunarsa, itin toxunduğu hissə murdar olur. Namaz qılmaq üçün həmin hissə mütləq paklanmalıdır.

Murdar olmuş şeylərin paklanma qaydasını öyrənmək üçün "İzahlı şəriət məsələləri" kitabına (təqlid etdiyiniz müctəhidin risaləsinə) müraciət edin.

**B.** Namazdan qabaq insanın bədəni və paltarının pak olmasından əlavə, namaz üçün dəstəmaz, bəzi hallarda isə qüsl almaq lazımdır.

Dəstəmazda görülməli olan işlərin ardıcıllığı aşağıdakı formadadır:

1. Niyyət: Niyyət edilir ki, Allah rizası üçün dəstəmaz alırıq.
2. Üzün yuyulması: Alının üst hissəsindən, tük bitən yerdən çənənin son hissəsinə qədər baş barmaqla orta barmağın arası qədər məsafədə yuxarıdan aşağıya doğru yuyulur.
3. ...............................................................................
4. ...............................................................................

5. ..............................................................
6. ..............................................................
7. ..............................................................

Qüsl iki cür alına bilər:

**A. İrtimasi formada:** İrtimasi formada alınan qüsldə aşağıdakı işlər görülür:

1. Niyyət.
2. ..............................................................

**B. Ardıcıl formada:** Ardıcıl formada alınan qüsl aşağıdakı ardıcıllıqla alınır:

1. Niyyət.
2. ..............................................................
3. ..............................................................
4. ..............................................................

**Diqqət:** Əli və ya üzü Quranın yazısına, habelə Allahın, Peyğəmbərin (s) və ya digər Məsumların (ə) adlarına vurmaq üçün mütləq dəstəmazlı olmaq lazımdır.

## Bu dərsdə öyrəndiyimiz düşüncə nümunələri

**1. Bir neçə ayə arasında bağlılıq yaratmaq:** Misal üçün, "Əhzab" surəsinin 41 və 42-ci ayələri ilə "Zuxruf" surəsinin 36-cı ayəsi arasında bağlılıq yaratmaqla məlum olur ki, ..............................................

**2. Nümunələr tapmaq:** Misal üçün, namazdakı bəzi ifadələr "Əhzab" surəsinin 41-ci ayəsində deyilmiş Allahı yad etməyin nümunələrindəndir.

**3. Mesajı əldə etmək:** Misal üçün, "İsra" surəsinin 44, "Əhzab" surəsinin 42 və "Səbə" surəsinin 1-ci ayəsi barədə düşündükdə Allahı xatırlamaq, Ona həmd edib təsbih demək haqqında bəzi mesajlar əldə etmiş oluruq.

*Dünən sübhə yaxın inlərdi bir quş,*

*Avazı alırdı məndən əqli huş.*

*Xalis dostlarımdan birisi həmən*

*Mənim halətimdən xəbərdar olmuş.*

*Dedi ki, heç güman etməzdim buna,*

*Səni bir quş səsi eyləsin bihuş!*

*Dedim ki, insanlıq şərti deyildir,*

*Quş razü-niyazda, mən isə susmuş.*

**(Sədi)**

## Daha çox bilək

Allahı yad etməyin ən gözəl və mükəmməl yolu namaz olsa da, düzgün və diqqətlə qılındığı təqdirdə Allah sevgisini canımızda alovlandırsa da, bizlər üçün örnək sayılan məsum rəhbərlərimiz təkmilləşdirici digər vasitə və proqramlar da tövsiyə etmişlər. Hər birimiz öz şəraitimizə uyğun olaraq bu tövsiyələrə müəyyən dərəcədə əməl etməyə çalışmalıyıq. Bu tövsiyələrdən mümkün qədər çox faydalanmaq üçün yaxşı olar ki, aşağıdakılara diqqət yetirək:

1. "Səhifeyi-Səccadiyyə" kitabı İmam Zeynül-Aibidinin (ə) dualar məcmusudur. Ali-Muhəmmədin (s) Zəburu kimi ad çıxarmış bu kitab dualar toplusu olmaqla yanaşı, eyni zamanda, İslam dininin etiqadi, əxlaqi və ictimai maarifini özündə ehtiva etməklə həyatımızda bizim üçün bələdçi rolunu oynaya bilər.
2. "Məfatihül-cinan" kitabı mərhum hacı Şeyx Abbas Qummi tərəfindən toplanılmış bir kitabdır. Bu kitabda xüsusi bir bölgü əsasında ibadət əməlləri, dualar və ziyarətnamələr hər birinin özünəməxsus vaxtı ilə qeyd edilmişdir. Biz ondakı bəzi duaları müəyyən vaxtlarda oxuya bilərik. Məsələn, gündəlik namazlardan sonra oxunan dualar, Kumeyl duası, Nüdbə duası, Əhd duası, İmam Zamanın (əccələllahu fərəcəh) salamatlığı üçün oxunan dua, ramazan ayının duaları və s.
3. Bəzi böyük şairlər Allah-taala ilə razü-niyazla bağlı müəyyən şeirlər yazmışlar. Həmin şeirləri oxumaq da insanın Allaha olan sevgisini artırar. Belə şeirlərdən bəzi nümunələr sizin dərsliklərinizdə də qeyd edilmişdir. Yaxşı olar ki, həmin şeirlərdən bəzilərini ayrıca bir dəftərdə toplayıb əzbərləməyə çalışaq.
4. Yaxşı olar ki, bəzi duaları ailə üzvləri ilə birlikdə oxumaq üçün müəyyən bir vaxt ayıraq. Məsələn, həftənin cümə axşamı günü axşamlar ailə üzvləri bir yerə toplaşıb Kumeyl duasını oxusun. Bu, duanın təsir gücünü daha da artırmaqla yanaşı, ailə daxili mənəvəyyatı gücləndirər.
5. İndidən özümüz üçün bir proqram hazırlamalıyıq ki, bəzi məşhur duaların mənası ilə tanış olaq. Bundan ötrü yaxşı olar ki, daha çox oxuduğumuz duadan başlayaq. Oxuduğumuz duanın mənasını hissə-hissə öyrənməyə çalışaq. Beləliklə, duanın mənası yaddaşımızda qalacaq və duanı oxuyarkən onun mənasını da anladığımıza görə ondan daha artıq zövq alacağıq.

# Yeddinci addım

.........

Ey mənim məhbubum və məbudum!
İllərdir ki, namazda Səninlə danışır və əllərimi dua üçün Sənin dərgahına qaldırıram. Yaddaş dəftərim Səninlə şirin münacatı özündə qeyd etmişdir. Onda yalnız Sənin və mənim bildiyim sirlər yazılıb. Onları ancaq Sən və mən eşitmişik. Ancaq Sənin və mənim gördüyüm göz yaşlarım da orada həkk olunub. Onların hamısı qalır.
Bu gün isə Səninlə daha agah şəkildə əhd bağlayıram ki, Sənin mənim üzümə açdığın dostluq qapısını heç vaxt bağlamayım.

**İlahi, çalışacağam ki, namazlarımı düzgün, vaxtında və qəlbi hazırlıqla qılım!**

## Düşünmə və araşdırma

1. İzahlı şəriət məsələləri və yaxud risalə nədir? Bizim ona nə ehtiyacımız var?
2. Cəbirə dəstəmazı hansı hallarda və hansı formada alınır?
3. Bizim namaz qılmaq və Allah-taala ilə münacat etməyimiz üçün müxtəlif amillər vardır. Bu amillərin hər birini müəyyən edib haqqında məlumat verin.

## Təklif

A. "Ənkəbut" surəsinin 45, "Taha" surəsinin 14 və "Rəd" surəsinin 28-ci ayəsini oxuyun. Sonra isə həmin ayələr barədə düşünərək namazın insanın həyatındakı rolunu izah edin.

B. Namaz və onun həyatınızdakı rolu barədə hisslərinizi məqalə, şeir, səhnəcik və ya rəsm vasitəsilə bildirin.

C. Aşağıdakı suallar barədə düşünün:

- Hansı namaz Allahın dərgahında qəbul olar?
- Namaz qılmamağın bizim üçün nə kimi təsir və nəticəsi ola bilər?

Ç). Namaz qılarkən bəzi hallarda rükətlərin sayını səhv salıb neçə rükət qıldığımızı dəqiq bilmirik. Belə olan halda nə etmək lazım olduğunu bilirsinizmi? Bu barədə araşdırma aparıb nəticəni dəftərinizdə cədvəl şəklində tərtib edin.

**Dəstəmaz duası**

Ustad şəhid Murtaza Mütəhhəri “Mənəvi azadlıq” kitabında Əmirəl-möminin Əlinin (ə) dəstəmaz almasının şahidi olmuş səhabələrindən birinin dilindən belə yazır:

Həzrət əllərini yumaq istədikdə Allaha xitab edərək belə buyurdu:

| | |
|---|---|
| Allahın adı və köməyi ilə. | بِسْمِ اللّٰهِ وَ بِاللّٰهِ |
| İlahi, məni çöx tövbə edənlərdən və | اَللّٰهُمَّ اجْعَلْنی مِنَ التَّوّابینَ |
| pak olanlardan qərar ver! | وَ اجْعَلْنی مِنَ الْمُتَطَهِّرینَ |

Üzünü yumaq istədikdə belə buyurdu:

| | |
|---|---|
| İlahi, üzlərin qaralacağı gündə | اَللّٰهُمَّ بَيِّضْ وَجْهی |
| (Qiyamət günündə) mənim üzümü ağ | يَوْمَ تَسْوَدُّ فيهِ الْوُجوهُ |
| et. Üzlərin ağ olacağı gündə (Qiyamət | وَ لا تُسَوِّدْ وَجْهی |
| günündə) mənim üzümü qara etmə! | يَوْمَ تَبْيَضُّ فيهِ الْوُجوهُ |

Sağ əlini yumaq istədikdə belə buyurdu:

| | |
|---|---|
| İlahi, (Qiyamət günündə) mənim əməl | اَللّٰهُمَّ اَعْطِنی كِتابی بِيَمينی |
| dəftərimi sağ əlimə, Cənnət əbədiyyətini sol | وَ الْخُلْدَ فِی الْجِنانِ بِيَساری |
| əlimə ver və mənim sorğu-sualımı asan et! | وَ حاسِبْنی حِسابًا يَسيرًا |

Sol əlini yumaq istədikdə belə buyurdu:

| | |
|---|---|
| İlahi, (Qiyamət günündə) mənim əməl dəftərimi sol əlimə və arxa tərəfimdən vermə, əllərimi boynuma zəncirləmə! Cəhənnəm odunun parçalarından Sənə sığınıram. | اَللّٰهُمَّ لا تُعْطِنى كِتابى بِشِمالى<br>وَ لا مِنْ وَراءِ ظَهْرى<br>وَ لا تَجْعَلْها مَغْلولَةً اِلىٰ عُنُقى<br>وَاَعوذُ بِكَ مِنْ مُقَطَّعاتِ النّيرانِ |

Başına məsh çəkmək istədikdə belə buyurdu:

| | |
|---|---|
| İlahi, məni Öz rəhmət, bərəkət və əfvində qərar ver! | اَللّٰهُمَّ غَشِّنى بِرَحْمَتِكَ<br>وَ بَرَكاتِكَ وَ عَفْوِكَ |

Ayaqlarına məsh çəkmək istərkən belə buyurdu:

| | |
|---|---|
| İlahi, (Qiyamət günündə) ayaqların Siratda büdrəyəcəyi gün mənim ayaqlarımı sabit saxla! Mənim səyimi Sənin razılığın yolunda qərar ver, ey əzəmət və böyüklük sahibi! | اَللّٰهُمَّ ثَبِّتْ قَدَمَىَّ عَلَى الصِّراطِ<br>يَوْمَ تَزِلُّ فيهِ الْاَقْدامُ<br>وَاجْعَلْ سَعْيى فيما يُرْضيكَ عَنّى<br>يا ذَا الْجَلالِ وَالْاِكْرامِ |

**Çox yaxşı olar ki, bu duanı öyrənib dəstəmaz alarkən oxuyaq və bununla da böyük rəhbərimiz Əmirəl-möminin Əlinin (ə) yolu ilə gedək.**

# Namazdan sonra oxunan dua

| | |
|---|---|
| İlahi, bu Sənin dərgahına qıldığım namazımdır. | اِلٰهی هٰذِهِ صَلاتی صَلَّیْتُها |
| Sənin ona qətiyyən ehtiyacın və yaxud istəyin yoxdur., | لا لِحاجَةٍ مِنْكَ اِلَیْها |
| Sadəcə Səni böyük tutaraq, | وَ لا رَغْبَةٍ مِنْكَ فیها |
| Sənə itaət edərək və mənə etdiyin | اِلّا تَعْظیمًا وَ طاعَةً |
| əmrinə tabe | وَ اِجابَةً لَكَ |
| olaraq onu qıldım. | اِلی ما اَمَرْتَنی بِهِ |
| İlahi, əgər namazımda | اِلٰهی اِنْ كانَ فیها |
| bir qüsur, nöqsan varsa, | خَلَلٌ اَوْ نَقْصٌ |
| istər rükusunda, | مِنْ رُكوعِها |
| istər səcdəsində, | اَوْ سُجودِها |
| buna görə məni cəzalandırma. | فَلا تُؤاخِذْنی |
| Namazımı qəbul etməklə və məni | وَ تَفَضَّلْ عَلَیَّ |
| bağışlamaqla mənə mərhəmət göstər! | بِالْقَبولِ وَ الْغُفْرانِ |

*Məfatihül-cinan, Namazlardan sonrakı ümumi dualar.*



Dərs 14

# Birlik və yoldaşlıq

Yüksək zirvələri fəth etmək məqsədilə dağa dırmanma həyat üçün uyğun bir bənzətmədir. Çöllərdən keçib getmək, təpələrdən ötmək, dərələrdən keçmək, əyri və dolambac cığırlarla getmək, təhlükələrlə qarşılaşmaq və müxtəlif hadisələrlə rastlaşdıqdan sonra, nəhayət, ən yüksək zirvəyə çatmaq əl-ələ verib Allaha etimad edərək dağa dırmanan iradəli və dözümlü insanların hünəridir. Kamillik yolu da həyatdakı əyri, dolambac yolları geridə qoyub xoşbəxtlik zirvəsinə qalxmaqdan ibarətdir. İnsan bu yolu özünə münasib, onunla eyni düşüncədə olan dostlarla daha rahat şəkildə gedə bilər. Səadət yolunun yolçuları bir-birinə kömək etməklə bu yolda olan çətinlikləri aradan qaldırır, məqsədə doğru olan inamı həmişə qoruyub saxlayırlar. Yoldaşlarını ehtimal verilən təhlükələrdən qoruyaraq öz məqsədlərinə doğru daha inamla və qətiyyətli addımlarla irəliləyirlər.

Görəsən, nə üçün bizim dosta ehtiyacımız var?

Hansı dosta etimad göstərmək olar?

## Qiraət

**Aşağıda verilmiş ayələri diqqətlə və gözəl şəkildə oxuyun.**

أعوذُ بالله من الشّيطان الرَّجيم

بِسمِ اللّهِ الرَّحمنِ الرَّحيم

| | |
|---|---|
| وَالمُؤْمِنونَ وَالمُؤْمِناتُ | ,................................. |
| بَعْضُهُمْ اَوْلِياءُ بَعْضٍ | bir-birinə dostdurlar (hayandırlar) |
| يَأْمُرونَ بِالْمَعْروفِ | ................................. |
| وَيَنْهَوْنَ عَنِ الْمُنْكَرِ | ................................. |

Tövbə surəsi, 71-ci ayə

| | |
|---|---|
| اَلْاَخِلّاءُ يَوْمَئِذٍ | O gün dostlar |
| بَعْضُهُمْ لِبَعْضٍ عَدُوٌّ | ................................. |
| اِلَّا الْمُتَّقينَ | ................................. |

Zuxruf surəsi, 67-ci ayə

| | |
|---|---|
| وَ يَوْمَ يَعَضُّ الظّالِمُ | O gün zalım (küfrə düşməklə özünə zülm edən |
| عَلى يَدَيْهِ | peşmançılıqdan) əllərini çeynəyib |
| يَقولُ يا لَيْتَني اتَّخَذْتُ | deyəcəkdir: “Kaş ki mən Peyğəmbər |
| مَعَ الرَّسولِ سَبيلًا | vasitəsilə (özümə) doğru bir yol tutaydım. |

Furqan surəsi, 27-ci ayə

| | |
|---|---|
| Vay halıma! Kaş | يا وَيْلَتى لَيْتَنى |
| ................................................ | لَمْ اَتَّخِذْ فُلانًا خَليلًا |

Furqan surəsi, 28-ci ayə

| | |
|---|---|
| And olsun ki, Quran mənə gəldikdən sonra | لَقَدْ اَضَلَّنى عَنِ الذِّكْرِ |
| məni ondan (Qurana iman gətirməkdən) o sapdırdı. | بَعْدَ اِذْجاءَنى |
| Şeytan insanı (yoldan çıxartdıqdan, bəlaya | وَكانَ الشَّيْطانُ |
| saldıqdan sonra) yalqız buraxar (zəlil, rüsvay edər). | لِلْاِنْسانِ خَذولًا |

Furqan surəsi, 29-cu ayə

## Tərcümə

Aşağıdakı izahların köməyi ilə yuxarıda verilmiş ayələrin tərcüməsini tamamlayın:

seçməzdim : لَمْ اَتَّخِذْ    çəkindirirlər : يَنْهَوْنَ

## Ayələrdəki mesaj

1. ............... surəsinin ........ -ci ayəsinə görə, mömin kişilər və mömin qadınlar həyat yolunda o vaxt dostluq edərlər ki, bir-biri ilə .................. olsunlar.

2. "Tövbə" surəsinin 71-ci ayəsinə görə, mömin kişilər və mömin qadınlar həqiqətən də bir-birinin yaxşılığını istəyərlər. Onlar öz dostlarını həmişə .......................................

3. “Tövbə” surəsinin 71-ci ayəsi ilə “Zuxruf” surəsinin 67-ci ayəsini bir-biri ilə yanaşı qoyduqda məlum olur ki, mömin dostlar ........... adlı gözəl bir xüsusiyyətə malikdirlər. Bu xüsusiyyətə malik olmayan dostlar nəticə etibarı ilə bir-birinin ......... deyillər. Onlar sadəcə üzdə bir-birini razı salmağa çalışırlar. Onların dostluqdakı əsas məqsədi ancaq və ancaq dünyəvi maraqdır. Əslində isə bir-birinə qarşı düşməndirlər. Buna görə də Qiyamət günüdə bir-birinə qarşı ........... olacaqlar.

4- “Furqan” surəsinin 27-29-cu ayələrindən belə məlum olur ki, küfrə düşməklə özünə zülm etmiş insanın Qiyamət günündəki peşmançılığının, bədbəxt olmasının və dünyada peyğəmbərlərin yolu ilə getməməsinin əsas səbəbi ........ olmayan və dostunun yaxşılığını istəməyən dostları olmuşdur. Belə ki, onlar üzdə özlərini dost kimi göstərsələr də, əslində, onun düşmənləri olub onu ........ doğru sürükləmişlər.

***

Qurani-kərimin dostluq haqqındakı mesaj və göstərişlərini öyrəndikdən sonra dost seçimində uğur əldə etmiş bir şagirdin xatirələrini diqqətinizə çatdırıb bu barədə fikir mübadiləsi aparacağıq.

## Dosta ehtiyac

Hələ onunla dostluqda nə qədər yol qət etdiyimi və səadət yolunda nə qədər irəli getdiyimi dəqiq bilmirəm. Bircə onu bilirəm ki, çölləri, dağları geridə qoymuş, əvvəl olduğum yerdən çox uzaqlaşmışam.

Bu vaxta qədər təsəvvür edə bilməzdim ki, bu dostluq bu qədər faydalı ola bilər. Mən onun vasitəsilə özümü tanıdım. Onun köməkliyi ilə özümü islah etməyə çalışdım. Öz ayaqlarım üzərində durmağı bacardım. Addım atdım, irəli getdim. İndi həyatımın uğurlu günləri çiçək açmışdır.

Tənhalıq günlərimi xatırladıqca yoxsulluğun mənasını daha yaxşı anladım. Başa düşdüm ki, ən yoxsul insan özünə dost tapa bilməyən

şəxsdir. Başqaları ilə dostluq etməyi bacarmayan şəxs insanların ən acizidir. İmam Əlinin (ə) təbirincə desək, “ondan da daha acizi o şəxsdir ki, dostlarını əlindən buraxsın”.[1]

Bir çoxları insanların arasında olsalar da, əslində, tənhadırlar. Cəmiyyət arasında olsalar da, özlərini qürbətdə hiss edirlər. Nə özləri kiməsə dostluq əli uzadır, nə də elə insanlardırlar ki, kimsə onlara tərəf dostluq əli uzatmaq istəyir. Görəsən, problemin kökü nədədir? Olmaya bunun səbəbi eqoizm və ya başqalarına yuxarıdan aşağı baxmaq hissidir?

*Qətrə bir dəryadır dəryayla olsa,*
*Qətrələr olmazsa, dərya da olmaz.*[2]

## Təcrübələri xatırlama (1)

*Bəzi insanların başqaları ilə dost ola bilməməsinə və ya dostlarını itirməsinə hansı amillər səbəb olur?

## Dostun xüsusiyyətləri

Görəsən, nə üçün kimlərisə və ya nələrisə sevirik? Bir gün bu sualı ona verdim. Cavabımda dedi:

“Biz gözəllikləri və yaxşılıqları sevirik. Bir nəfərdə və ya bir şeydə hansısa bir yaxşılıq görən kimi ona doğru can atırıq. Gözəl bir gül, gözəl bir rəsm əsəri, sədaqət və səmimiyyət, şücaət, alicənablıq – bütün bunlar insana xoş təsir edən xüsusiyyətlərdir. Buna görə də bu xüsusiyyətəri kimdə və ya harada görsək, ona doğru meyl edirik”.

Mən indi baxıb görürəm ki, o özü bir çox gözəllik və yaxşılıqlara sahibidir.

O gəldikdə mən onun sözlərinin və rəftarının şəffaf aynasında öz həqiqətimi görüb özümü tapdım. Öz zəif cəhətlərimi bilmək onun məndə eyib tutmasından irəli gəlmirdi. Əksinə, onun mənə qarşı

1. Nəhcül-bəlağə, 12-ci hikmət.
2. İqbal Lahuri

səmimi rəftarı harada səhvə yol verdiyimi göstərdi.

Əgər üst-başım toz-torpağa bulaşıbsa, eybimi mənə göstərdiyi üçün güzgümə minnətdar olacağam. Əgər hər hansı bir dostum da mənə səhvlərimi bildirərsə, mən onunla düşmən olmaram, əksinə, ona minnətdarlığımı bildirərəm.

*Hər eybini göstərər alsan ələ güzgünü,*
*Utan, qızar eybindən, qırma elə güzgünü!*[1]

Dostumun bildirdiyi iradı "hədiyyə" olaraq qəbul edib ona təşəkkür etməyim mənim düşüncəmin inkişaf etdiyini göstərir.

İmam Sadiq (ə) buyurmuşdur:

اَحَبُّ اِخْوانی اِلَیَّ مَنْ اَهْدی اِلَیَّ عُیوبی

*"Mənim ən sevimli qardaşım o şəxsdir ki, eyiblərimi mənə hədiyyə etsin".*[2]

O heç vaxt məni səbəbsiz yerə tərifləmir. Lazımi iradlarını bildirsə də, heç vaxt məni təhqir etməz. Mənimlə dostluqda qətiyyən şəxsi maraqlar güdmür, dostluq münasibətlərimizdən sui-istifadə etmir. O nə kiməsə yaltaqlanır, nə də kiməsə zor tətbiq edir. O başqalarını öz istəklərinə çatmaqdan ötrü alət etməkdən qat-qat üstündür.

Mən Qurani-kərimin ayələrinə və ya məsum rəhbərlərimizin kəlamlarına diqqət yetirdikdə görürəm ki, dostun xüsusiyyətlərini ən gözəl ifadələrlə bəyan etmişlər. Məhz bu bələdçilərin sözlərində düşünərək başa düşdüm ki:

Həqiqi dost o şəxsdir ki, Allahı yadımıza salıb bizi xırda istəklərə doğru çəkib aparmasın.[3]

Ağıl, düşüncə və təfəkkür gözəlliyi ilə bəzənmiş olsun.[4]

Pisliklərinə görə Allahın qəzəbinə tuş gəlməsin!

---

1. Nizami Gəncəvi, Sirlər xəzinəsi.
2. Üsuli-kafi, c. 2, səh. 639.
3. Nəcm surəsinin 29-cu ayəsinin məzmunu.
4. Əraf surəsinin 199-cu ayəsinin məzmunu. Habelə İmam Əlidən (ə) də bu məzmunda hədis nəql edilmişdir. (Bax: Üsuli-kafi, c. 4, səh. 85)
4. Mumtəhənə surəsinin 13-cü ayəsinin məzmunu.

Qəlbində Allaha və insanlara qarşı düşmənçiliyi olmasın.[1]
Xəyanət, xəbərçilik və haqsızlıq etməsin.[2]
Öz dostluğunda möhkəm olsun.[3]
Bir sözlə, onun qəlbini Allah sevgisi bəzəsin.
Mən o dosta etibar edərəm ki:
Nəinki özü günah etmir, hətta başqalarının günah etməsinə görə də narahat olur.[4]
Pislik və haqsızlıq tərəfdarı deyil, öz hərəkətləri ilə dostlarını bədbəxtliyə sürükləmir.[5]
Yalan danışmaz, ancaq doğrunu deyər.[6]
Bu xüsusiyyətlərə fikir verməyib hər qarşısına çıxanla dostluq edən insanlar heç də yaxşı aqibətlə üzləşməmişlər. Həbsxanalara gedib ağır cinayətlər törətməkdə təqsirləndirilərək həbsə düşmüş məhkumlardan nəyə görə belə bir cinayət törətməsinin səbəbini soruşsaq, onların əksəriyyəti cavab verəcək ki, onları pis dostlar bu yola çəkdilər. Qiyamət günüdə bəzi günahkar insanlar arasında müəyyən söhbətlər gedəcək. Onlardan bəzisi digərinə deyəcək: - Əgər siz olmasaydınız, biz iman gətirərdik. - Pis dostları cavab verəcəklər: - Əsla belə deyil! azğınlığınızın səbəbini özünüzdə axtarın!
Mən özümlə fəxr edirəm ki, dostum çox alicənab və dəyərli insandır. Demirəm ki, o tamamilə nöqsansızdır. Reallıq mənə bunu deməyə imkan vermir. Onun özü də mənə deyir: "Heç vaxt dostlarınınn səhvsiz olduğunu düşünmə. Bizim hamımızın eybi, nöqsanı vardır. Bizim yalnız kamil dostlarımız olan həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) və onun pak Əhli-beyti (ə) günah və nöqsandan uzaqdır. Başqa insanların hamısı onlara olan sevgi dərəcəsinə görə dəyər qazanırlar".
Mən qətiyyətlə deyə bilərəm ki, o həqiqi bir dostdur.

---

1. Mumtəhənə surəsinin 1-ci ayəsinin məzmunu.
2. İmam Sadiqin (ə) kəlamıdır. (Bax: Mizanul-hikmət, c. 2, 1582-ci hədis).
3. Həzrət Peyğəmbərin (s) kəlamıdır. (Bax: Mizanul-hikmət, c. 2, 1591-ci hədis).
4. İmam Əlinin (ə) kəlamıdır. (Bax: Mizanul-hikmət, c. 2, 1584-cü hədis).
5. İmam Əlinin (ə) kəlamıdır. (Bax: Mizanul-hikmət, c. 2, 1584-cü hədis).
6. İmam Əlinin (ə) kəlamıdır. (Bax: Mizanul-hikmət, c. 2, 1584-cü hədis).

## Ayələrlə uzlaşdırma

Bu şagirdin öz dostu barədə qeyd etdiyi xüsusiyyətləri Quran ayələrindən əldə etdiyimiz mesajlarla uzlaşdırın, görün onlarla nə dərəcədə uyğun gəlir?

## Təcrübələri xatırlama (2)

* Heç indiyə qədər dostlarınızın hansı xüsusiyyətlərinin onlarla dostluq etməsinə səbəb olduğuna diqqət yetirmisinizmi? Onların yaxşı cəhətlərini qeyd edə bilərsinizmi?

Çox güman ki, sizin də dostlarınızın müəyyən səhvləri vardır. Həmin səhvləri aradan qaldırmaq üçün heç onlara kömək etməyə çalışmısınızmı?

## Dostluğun təsiri

Onunla dostluq təcrübəmdə dostun insana nə qədər ciddi təsir etdiyini anladım. Dostluq qəlblərin bir-birinə bağlanmasıdır. Kiminsə ürəyi bir nəfərin sözünə, baxışına, davranışına bağlandısa, çalışacaq ki, öz sahibinidə onun kimi etsin. Buna görə də hərdən dostluq əlaqələri o həddə qədər gedib çıxır ki, insan öz dostu kimi yerimək, onun seçimi kimi seçim etmək, onun kimi danışmaq, onun kimi yaşamaq istəyir. İndi həzrət Peyğəmbərin (s) aşağıdakı kəlamının mahiyyəti daha yaxşı aydın olur:

"İnsan öz dostunun dinində olur".[1]

Digər tərəfdən, dostun insana təsir gücü barədə düşündükdə varlığıma bir qorxu hissi hakim kəsilir. Dostluq ardınca düşüb ikiüzlülüyü şərəfsiz insanların xüsusiyyəti hesab edən biz yeniyetmə və gənclər çox az təsəvvür edə bilərik ki, zahirən göz oxşayan insanların batini ikrah yaratsın. Buna görə də həmişə qorxuram ki, məbada mənim səmimi dostlarım başqalarını aldatmaqdan, yeniyetmə və gəncləri tora salmaqdan ötrü Yusif cildinə girmiş qurdlara dönüb öz bərbəzəkli saraylarını onların həyat xarabalıqları üzərində qursunlar.

1. Vəsailüş-şiə, c. 2, səh. 207.

Ey mənim dostlarım, bizim düşmənlərimiz gəncliyin təmiz cövhərinin axtarışındadır. Gəlin biz də söz verək ki, öz gəncliyimizi Cənnətdən aşağı bir qiymətə əldən verməyəcəyik. [3]

Düşmənlərimiz bizim bircə səhvimizi güdürlər ki, pak qalmaqdan ümidimizi birdəfəlik üzsünlər. Biz qətiyyən bu hiyləyə aldanmamalıyıq. Allah eləməmiş, bircə səhvlə onları sevindirməyək. Hətta səhvə yol versək belə, geri dönüş yolumuz bağlanmır. Düşmənlərin hiyləsinə aldanıb elə təsəvvür etməyək ki, daha islah ola bilmərik. Allah bizim geri dönməmizi, islah olmamızı istəyir. O Öz mərhəməti ilə tövbə edən insanı anadan təzəcə doğulmuş körpə kimi günahsız edir.

*Pislərlə heç zaman oturma, durma,*
*Təmiz pak qəlbinə xələl gətirər.*
*Böyük əzəmətli günəşi belə*
*Bir parça bulud da görünməz edər.*

(Sanai)

## Təcrübələri xatırlama (3)

* Ola bilər siz də öz həyatınızda pis dostluqlardan nümunələrlə qarşılaşmısınız. Əgər qarşılaşmısınızsa, belə nümunələri qeyd edib onların pis olma səbəbini göstərin.

## Təklif

1. Uğurlu dostluqları təcrübədən keçiribsinizsə, bunu sinifdə yoldaşlarınızla bölüşün.

2. Heç uğursuz dostluqlarla qarşılaşmısınızmı? Əgər qarşılaşmısınızsa, təcrübənizi şəxslərin adlarını çəkmədən bölüşün və dostluğun uğursuz olduğunun səbəbini bildirin.

---

1. "İmam Əlinin (ə) kəlamıdır: (Bax: Nəhcül-bəlağə, qısa kəlamlar, 448-ci kəlam).

«اِنَّه، لَيْسَ لِاَنْفُسِكُمْ ثَمَنٌ اِلّاَالْجَنَّةَ فَلا تبيعوها اِلّا بِها»

# Dərs 15

## Dostluğun qaydası

Ötən dərsdə dost seçiminin nə qədər vacib olması və yaxşı dostun xüsusiyyətləri, eləcə də dostların əxlaqının bir-birinə təsir etməsi ilə tanış olduq. Bu dərsdə isə bu suala cavab tapmağa çalışacağıq: Hansı işləri görməklə öz dostluğumuzu daha da möhkəmlədə bilərik?

Həyatda elə şeylər vardır ki, onları qoruyub saxlamaq əldə etməkdən daha çətindir. Bu çətinliyin əsasən iki səbəbi vardır. Biri əldə edilən şeyin həddən artıq dəyərli olması, digəri isə incəliyi və zərifliyidir. İnsan dəyərli bir şeyini itirdikdə onu yenidən əldə edilməsinin çətinlikləri ilə yanaşı, həm də itirdiyi şeyə görə narahat olur. İncə və zərif bir şey də bir anlıq diqqətsizlik nəticəsində sınıb əldən çıxa bilər.

Dostu qoruyub saxlamaq da onu əldə etməkdən daha çətindir. Ola bilər ki, insan uzun illərdən sonra özünə uyğun bir dost tapsın və onunla xeyli müddət dostluq etdikdən sonra uyğun olmayan bir hərəkət nəticəsində onu itirsin. Dostluq münasibətlərinin davamlı olması və dostluğun nəticələrinin əldə edilməsi qarşılıqlı məsuliyyətlərdən asılıdır. Bizə dost seçimində doğru yol göstərmiş din rəhbərlərimiz bu məsuliyyət və vəzifələr barəsində də öz tövsiyə və tapşırıqlarını vermişlər. Bir daha o böyük şəxsiyyətlərə müraciət edərək buyurduqlarından faydalanmağa çalışacağıq. Ondan sonra isə öz dostlarımızla münasibətlərimizə diqqət yetirib bu tapşırıqlara nə dərəcədə əməl edib-etmədiyimizi araşdıracağıq.

Yuxarıda deyilənləri nəzərə alaraq, hər birimiz çalışmalıyıq ki, dostlarımızla münasibətlərimizə yenidən nəzər salaq. Eləcə də sinif yoldaşlarımızın da dostluq münasibətlərindəki təcrübələrini dinləyib yeni məlumatlar öyrənməyə çalışaraq dostluq münasibətlərindəki bilgilərimizi daha da artıraq.

## Dostlarımıza qarşı vəzifələrimiz

Başqaları ilə olan dostluq münasibətlərimizin davamlı olmasını, daha dərin münasibətlərə çevrilməsini və onun nəticələrindən həyatda faydalanmaq istəyiriksə, onda dost qarşısındakı vəzifələrimizi yerinə yetirməliyik. Bu vəzifələrin bəzisi aşağıdakılardan ibarətdir:

**1. Dostun ehtiramını qorumaq.** İmam Muhəmməd Baqir (ə) buyurmuşdur:

"Dostun sənin ehtiramını qoruduğu kimi, sən də onun ehtiramını qorumalısan".[1]

Dosta kiçik gözlə baxmaq, ehtiramını qorumamaq onun izzətini aradan aparır. Bu isə əlbəttə ki, hörmətsizlik əlamətidir. Onu lağa qoymamaq, qeybətini etməmək də dostun ehtiramını qorumaq nümunələrindən hesab edilir.

1. Tühəfül-üqul, səh. 266.

## Təcrübələri xatırlama (1)

* Sinifdə dostun ehtiramını qorumaqla, eləcə də ehtiramını qorumamaqla bağlı gördüyünüz nümunələr haqqında danışın və onların mənfi nəticəsini izah edin.

Dostun ehtiramını qorumağın dərsdə qeyd olunmayan nümunələrini göstərin.

**2. Qarşılıqlı hüquqlara riayət etmək:** Əmirəl-möminin Əli (ə) sevimli övladı İmam Həsənə (ə) belə buyurmuşdur:

"Dostunla aranızdakı səmimi münasibətə arxalanaraq onun hüquqlarını pozma. Çünki bu iş dostluq münasibətlərinə xələl gətirər. Haqqını tapdaladığın insan bir daha səninlə dostluq etməz". [1]

Dostu əziyyətə salmaq, ona haqsızlıq etmək, onunla narahatedici zarafatlar etmək, onun əmlakından icazəsiz və həddindən artıq istifadə etmək də dostluq münasibətlərinə xələl gətirən amillərdən sayılır. Bu işlər tədricən dostluq münasibətlərini korlaya bilər.

## Təcrübələri xatırlama (2)

* Dostun hüquqlarını qorumaq və ya qorumamaqla bağlı qarşılaşdığınız təcrübələr haqqında təqdimat hazırlayaraq sinifdə oxuyun.

**3. İnsaflı gözlənti.** İmam Əli (ə) buyurur:

"Dostundan yalnız fədakarlıq gözləyən insan həmişə əsəbi və narahat olar". [2]

Bu kəlamdan belə nəticə əldə edilir ki, insan dostunun həmişə onun arzu və istəklərinə uyğun hərəkət edəcəyini gözləməməlidir. Bəzi insanlar dostundan həmişə birtərəfli faydalanmağa çalışırlar. Hətta haqlı olmadığı işlərdə də dostunun onu dəstəkləyəcəyini umurlar.

---

1. Nəhcül-bəlağə, məktublar bölməsi, 31-ci məktub.
2. Şərhi Ğürərül-hikəm və dürərül-kəlim, c. 5, səh. 412.

## Təcrübələri xatırlama (3)

* Heç özünüzlə dostunuz arasındakı gözləntilər barədə düşünmüsünüzmü? Hansı gözləntiniz yerində, hansı isə yersiz olub? Sinifdə bəzi nümunələr qeyd edin.

**4. Xeyirxahlıq və nəsihət.** Həzrət Muhəmməd Peyğəmbər (s) buyurur: "İki yaxşı dost, yuyunarkən bir-birinin çirkini təmizləyən iki ələ bənzəyir". [1]

Xeyirxah dostlar bir-birinin yaxşılığını istər. Hərçənd onlardan biri bəlkə də dostunun ona qarşı xeyirxah olduğunu anlamayıb onun istəyinə uyğun rəftar etmədiyini düşünə bilər.

**5. Dostluqda mötədil olmaq.** Həzrət Əli (ə) buyurur: "Öz sevgini dostuna qurban et. Bununla belə, ona tam olaraq arxayın olma. Onun sənə qarşı necə rəftar etməsini istəyirsənsə, sən də ona qarşı eyni cür rəftar et. Ancaq bütün sirlərini ona vermə". [2]

Yuxarıda deyilənləri nəzərə alaraq, dostluq həddinə riayət etmək, lazımi həddi aşmamaq lazımdır. Dosta həddən artıq bağlı olmaq mötədillik yolundan çıxmağın əsas amillərindəndir. Dostluq münasibətlərində mötədil olmaq tələb edir ki, insan dostuna etimad etməklə yanaşı, bütün sirlərini də tam olaraq açıb ona deməsin. Belə ki, bəzi hallarda dostlar arasında ayrılıq yarana bilər. Belə olduqda onlardan biri və ya hər ikisi dostunun etibarından sui-istifadə edib onun barəsində xoşagəlməz sözlər danışa bilər.

# DOSTLUQ

1. Müstədrəkül-vəsail, c. 9, səh. 49.
2. Mizanul-hikmət, c. 2, səh. 1590.

**Dostluq vəzifələrindən digər nümunələr:**

1. Dostluqda sədaqətli olmaq lazımdır. İstər onun öz yanında, istərsə də özü olmadıqda.
2. Dostu şəxsi maraqlara görə deyil, Allaha görə sevmək lazımdır.
3. Dostlar arasında fərq qoymaq olmaz. Əks təqdirdə bu, onların bir-birinə qarşı paxıllığına səbəb olar.
4. Dostun yaxşı və üstün cəhətlərinə görə ona paxıllıq edilməməlidir.
5. Dostla olan əhd-peymana sadiq qalmaq lazımdır.
6. Dosta həmişə kömək etmək lazımdır - İstər dərslərində, istər işində, istərsə də həyatın digər sahələrində.

## Düşünmə və araşdırma

Dostun ailəsini tanımaq dost seçimində təsir edirmi? Niyə?

## Təklif

Xəyalınızda dostluq ağacını təsəvvür edərək xəyal etdiyiniz şeyi aşağıdakı müəyyən edilmiş yerə qoyun. Sonra isə bu ağacda nəyi ağacın kökü, nəyi gövdəsi, nəyi budaq və yarpaqları, nəyi ağacın meyvələri seçərdiniz?

*Dostluq ağacı ək ki, qəlbin kam ilə bar gətirər,*
*Düşmənlik pöhrəsi amma qəlbinə qubar gətirər.*

*(Hafiz)*

# Səkkizinci addım

. . . . . . . . .

Böyük rəhbərlərdən öyrəndiklərim əsasında öz dostlarımı və ünsiyyətdə olduğum insanları bir daha dəyərləndirməyə çalışıram. Onları verilmiş meyarlar əsasında qiymətləndirib aralarından dostluqda səmimi olanları, həyatda birlikdə addımlaya biləcəyim insanları seçərəm.
Eləcə də çalışıram ki, digər dostlar və qohumlara qarşı səmimi və dürüst olum.
**Allahım, Özün mənə yardım et!**



## Dərs 16

# İş – həyatın cövhəri

İctimai həyatda çalışmaq, zəhmətkeş olmaq yaşayışın əsas sütunlarından biridir. İşləmək dedikdə təkcə müəyyən bir peşə sahibi olmağı nəzərdə tutmuruq. İstənilən yaşda və istənilən mövqedə çalışmaq, cəmiyyətin maddi-mənəvi rifahı uğrunda səy göstərib məsuliyyət hissi keçirmək lazımdır.

Bu dərsdə öyrənməyə çalışacağıq ki:

1. Allahın nemətlərinin qədrini bilmək yollarından biri hansıdır?
2. İş və çalışmağın həyatımızda nə kimi rolu var?
3. Şagird olduğumuz indiki vaxtımızda da çalışmalıyıqmı?

## Qiraət

“Nəhl” surəsinin aşağıda verilmiş 10-14-cü ayələrini diqqətlə və gözəl şəkildə oxuyun.

اَعوذُ بِالله مِنَ الشَّيطانِ الرَّجيم

بِسمِ اللهِ الرَّحمنِ الرَّحيم

| | |
|---|---|
| هُوَ الَّذى اَنْزَلَ | ................................ |
| مِنَ السَّماءِ ماءً | ................................ |
| لَكُمْ مِنْهُ شَرابٌ | ................................ |
| وَ مِنْهُ شَجَرٌ | içində (heyvanlarınızı) otardığınız ağaclar (və otlar) |
| فيهِ تُسيمونَ | da içər (ağaclar və otlar da onun vasitəsilə bitər). |

(10)

| | |
|---|---|
| يُنْبِتُ لَكُمْ بِهِ الزَّرْعَ | (Allah) onunla (o su ilə) sizin üçün əkin, |
| وَالزَّيْتونَ وَالنَّخيلَ وَالْاَعْنابَ | ................................yetişdirir. |
| وَ مِنْ كُلِّ الثَّمَراتِ | ................................ |
| اِنَّ فى ذٰلِكَ لَاٰيَةً | ................................ |
| لِقَوْمٍ يَتَفَكَّرونَ | ................................ |

(11)

| | |
|---|---|
| وَسَخَّرَ لَكُمُ اللَّيْلَ وَالنَّهارَ | ................................ |
| وَالشَّمْسَ وَالْقَمَرَ | ................................ |

| | |
|---|---|
| وَالنُّجومُ مُسَخَّراتٌ بِاَمْرِهِۦ | Ulduzlar da Onun əmrinə boyun əymişdir. |
| اِنَّ فى ذٰلِكَ لَأياتٍ | ................................ |
| لِقَوْمٍ يَعْقِلونَ | ................................ |

(12)

| | |
|---|---|
| وَ ما ذَرَاَ لَكُمْ فِى الْاَرْضِ | (Allah) yer üzündə yaratdığı cürbəcür şeyləri |
| مُخْتَلِفًا اَلْوانُهُۥ | (heyvanları, bitkiləri, meyvələri və s.) |
| اِنَّ فى ذٰلِكَ لَأيَةً | ................................ |
| لِقَوْمٍ يَذَّكَّرونَ | ................................ |

(13)

| | |
|---|---|
| وَ هُوَ الَّذى سَخَّرَ الْبَحْرَ | ................................ |
| لِتَأْكُلوا مِنْهُ لَحْمًا طَرِيًّا | təzə ət (balıq əti) yeməyiniz, taxdığınız bəzəkləri |
| وَ تَسْتَخْرِجوا مِنْهُ حِلْيَةً | (inci, sədəf, mərcan və s.) çıxartmağınız üçün, |
| تَلْبَسونَها | ................................ |
| وَ تَرَى الْفُلْكَ مَواخِرَ فيهِ | (Ey insan!) Sən gəmilərin orada (suları) yara-yara |
| وَ لِتَبْتَغوا مِنْ فَضْلِهِۦ | üzüb getdiklərini görürsən. |
| وَ لَعَلَّكُمْ تَشْكُرونَ | ................................ |

(14)

## Tərcümə

Aşağıdakı izahların köməyi ilə yuxarıda verilmiş ayələrin tərcüməsini tamamlayın.

meyvələr : ثَمَرات üzüm tənəkləri : الْأَعْناب içəcək : شَراب

## Ayələrdəki mesaj

Verilmiş ayələr barəsində düşünərək aşağıdakı suallara cavab verməyə çalışın.

Nə üçün Qurani-kərim bizə gecə və gündüzün, ulduzların və dənizlərin ram edilməsindən danışır?

Nə üçün Quran su, ağac, əkin məhsulları, cürbəcür meyvələr, dənizdəki yeməli balıqlar və zinət əşyalarından danışır?

Allahın bizlər üçün yerdə və göydə yaratdığı saysız-hesabsız nemətlərdən bəzi nümunələri qeyd etməsində məqsəd nədir?

Allah-taala bu nemətlərin qarşısında bizdən nə istəmişdir?

..........................................................................................

..........................................................................................

..........................................................................................

..........................................................................................

**Şərəf yolu**

Böyük məqsədlərin olması yeniyetməlik və gənclik dövrünün əsas xüsusiyyətlərindən sayılır. Bu məqsədlər uğrunda çalışmaq və onlara ümid etmək də həmin dövrün başqa bir xüsusiyyətidir. Siz bilirsiniz ki, çalışıb səy göstərməklə, iradəli olmaqla məqsədə çatmaq mümkündür. Bir çoxları yuxuda uğur qazandığını görüb sevinsə də, real həyatda öz məqsədlərinə doğru bircə addım da atmırlar. Buna görə də bir müddət sonra onlarda ümidsizlik yaranır. Aktivlik insanı məqsədə doğru hərəkətə gətirən bir vasitədir.

Allah-taalanın nemətləri yer üzərində, dağların və yerin tərkində, dənizlərin dibində, bir sözlə dünyanın hər tərəfində yayılmışdır. Uğur qazanmaq istəyən xalq mütləq abadlıq və quruculuğu əsas prioritetlərindən birinə çevirməli, çətinliklərə sinə gərərək Allahın nemətlərindən olan payından faydalanmalıdır.

## Araşdırma

1. Sizcə, cəmiyyətimiz hansı quruculuq işləri sayəsində inkişaf edə bilər? Bu sahələri müəyyənləşdirib özünüzün bu sahələrdən hansında fəaliyyət göstərmək istədiyinizi qeyd edin.

.............................................................................................................

.............................................................................................................

.............................................................................................................

.............................................................................................................

2. Bəzi insanlar işləyib çalışmaq əvəzinə yaranmış fürsətlərdən sui-istifadə edərək mal-dövlət toplamaqla məşğul olub bununla fəxr edirlər. Bəziləri də onlardan nümunə götürərək əziyyət çəkmədən bir gecənin içərisində böyük mal-dövlət sahibi olmaq planları qururlar. Bunu nəzərə alaraq, cavab verin ki:

1. Belə insanları hansı aqibət gözləyir?
2. Bu düşüncə cəmiyyətə necə təsir göstərir?
3. Belə insanlar hansı şəxsi xüsusiyyətlərə malik olurlar?

.............................................................................................................

.............................................................................................................

.............................................................................................................

.............................................................................................................

.............................................................................................................

.............................................................................................................

**Məsum rəhbərlərin həyatında işgüzarlıq**

Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alih) buyurur:

“Öz ruzisini işləyib çalışaraq əldə edən insan Qiyamət günündə peyğəmbərlərlə eyni sırada olub onların savabını qazanacaq”.

Sevimli Peyğəmbərimiz (s) başqa bir hədisdə belə buyurur:

“Halal qazanc əldə etməkdən ötrü işləyib gecəni yorğun halda keçirən insanın günahları bağışlanar”.

İmam Sadiq (ə) öz dövründə daha çox təlim-tərbiyə işlərinə diqqət yetirsə də, onun yetirmələrinin sayı təxminən dörd min nəfərə çatsa da, bununla belə həzrət bir çox hallarda əkinçiliklə də məşğul olardı. Bir gün həddən artıq isti havada tarlada əkin işləri ilə məşğul olduğu və alnından tər axdığı halda həzrətin Əbu Ömər Şeybani adlı səhabəsi onun yanına gələrək deyir: “Beli mənə verin, mən sizin yerinizə işləyim.”

İmam Sadiq (ə) buyurur: “Xeyr, mən istəyirəm ki, ruzimi əldə etməkdən ötrü günün altında əziyyət çəkim”.

İmam Kazim (ə) öz əkin sahəsində qızğın işlədiyi bir vaxt səhabələrindən biri gəlib deyir: “Nə üçün bu işi başqa birisinin öhdəsinə buraxmırsan?”

İmam Kazim (ə) cavab verir: ”Məndən daha üstün insanlar da belə işlərlə məşğul olduğu halda, mən nə üçün bu işi başqalarının öhdəsinə buraxmalıyam?!”

Səhabəsi soruşur: “Məsələn, kimlər?”

İmam Kazim (ə) buyurur: “Həzrət Peyğəmbər (s), Əmirəl-möminin Əli (ə), eləcə də bütün ata-babalarım. İşləyib əziyyət çəkmək peyğəmbərlərin, onların canişinlərinin və Allahın layiqli bəndələrinin işidir”.

Digər tərəfdən, məsum rəhbərlərimiz işsizlik, tənbəllik və başqalarının üstünə yük olmaqdan nifrət etmiş və bunu müxtəlif formalarda dilə gətiriblər. Bir gün həzrət Peyğəmbərin (s) yanında bir nəfərin həddən artıq ibadətlə məşğul olmasından söhbət düşür. Peyğəmbər (s) soruşur ki, “O adamın peşəsi nədir?”

Səhabələr cavab verirlər ki, heç bir işi, peşəsi yoxdur.

Həzrət Peyğəmbər (s) buyurur: “Onda həmin adam mənim gözümdən düşdü”.

Allah Rəsulu səhabələrinə belə buyurarmış:

“مَلْعُونٌ مَنْ أَلْقَى كَلَّهُ عَلَى النَّاسِ” (Dolanışıq yükünü başqalarının öhdəsinə atan şəxs məlundur).

Həmçinin buyurarmış: “Mən öz ümmətim üçün ən çox qarınquluoluq, çox yatmaq, işsizlik və iman zəifliyindən qorxuram”.

İmam Əli (ə) buyurmuşdur: “Ayrı-ayrı şeylər bir-biri ilə birləşdikdə tənbəlliklə də bacarıqsızlıq birləşmişdir, onlardan “yoxsulluq” adlı bir uşaq doğulmuşdur”.

## Düşünmə

* İndiyədək deyilənləri nəzərə alaraq və özünüzün də mütaliə etdiklərinizə əsasən, aşağıdakı mövzular barədə düşünərək təqdimat hazırlayın.

1. İş və çalışmağın bir millət və bir fərd üçün təsirləri.
2. İşsizlik və tənbəlliyin bir millət və bir fərd üçün nəticələri.

1. .......................................................................................................

.......................................................................................................

.......................................................................................................

.......................................................................................................

.......................................................................................................

2. .......................................................................................................

.......................................................................................................

.......................................................................................................

.......................................................................................................

.......................................................................................................

**İşin tərbiyəvi nəticələri**

İş insanı aktivləşdirən, tənbəllik isə passivləşdirən bir vasitədir. Bu baxımdan, iş təkcə insanın dolanışığını təmin etmək üçün bir vasitə deyil, eyni zamanda, onun şəxsiyyət olaraq formalaşmasında da böyük təsirə malikdir.

İşin insana göstərdiyi bəzi təsirlər aşağıdakılardır:

**1. Bacarıq və potensialın üzə çıxması:** İnsanın daxilində müxtəlif bacarıq və potensial mövcuddur. Sadəcə onları üzə çıxarmaq lazımdır. Bu bacarıq və potensial o vaxt üzə çıxar ki, insan hərəkət etsin, çətinliklərlə qarşılaşsın, özünü həyatın müxtəlif hadisələrinin içinə atsın. Məhz işlədikdə insan özünü kəşf edir, daxilindəki bacarıqlarını öyrənmiş olur.

**2. Hisslərin incəliyi:** İşsizlik və tənbəllik insanın qəlbini, duyğularını sərtləşdirir. İş isə iksirdir, insanın vücudundakı misi qızıla çevirir. İşləyən insan işin, zəhmətin qədrini bilir, camaatın kədərinə üzülüb sevincinə sevinir. İş insanların hisslərini formalaşdırıb onları incəldir.

**3. Xəyal qüvvəsinin təmərküzləşməsi:** İşsizlik insanın xəyalını müxtəlif istiqamətlərə çəkib aparır. Hətta insanı şeytani xəyallara da sala bilər. Əmirəl-möminin Əli (ə) buyurur:

“Əgər nəfsini bir işlə məşğul etməsən, o səni özünə məşğul edəcək”.

Hər hansı bir işlə məşğul olan insanın isə fikri, xəyalı həmin işə yönəlib asudə olur.

**4. Şərafət hissi:** İşləyərək öz dolanışığını təmin edən və başqalarına əl açmayan insan özündə bir şərafət hiss edir. Qazancı nə qədər az olsa da, çox sadə həyat sürsə də, başqalarına əl açmır. İmam Əli (ə) həddən artıq çətin işlərə girişərdi, quyu qazar, arx çəkər, bağbançılıq edərdi. Hətta müəyyən muzd qarşılığında başqaları üçün də iş görərdi. O bütün bunları ona görə edirdi ki, öz şərəfini, izzətini qorusun, başqalarına əl açıb heç nə istəməsin. Eyni zamanda, bu əməli ilə başqalarına da şərəf və izzət dərsi vermiş olurdu.

**İşdə mahir olmaq**

İşləyən insan baş qoşduğu hər işin qaydasını, metodunu öyrənib tələblərə riayət edərək nöqsansız iş ortaya qoymağa çalışar. Belə insan şərəfli bir zəhmətkeş olub ümumi mənafeyi, cəmiyyətin məmnunluğunu və Allahın razılığını hər şeydən, hətta öz şəxsi maraqlarından da üstün tutar. Belə bir insan işdən oğurluq etməklə sərvət toplayan şəxslərə nifrət edib onları şəxsi rifahını başqalarının hüquqlarının pozulması üzərində quran, bununla da ölkə iqtisadiyyatına ağır zərbə vuran şərəfsiz insanlar olaraq qəbul edər.

## Dəyərləndirmə

* 1. Ətrafınızdakı sənaye və qeyri-sənaye məhsullarının keyfiyyətini nəzərdən keçirərək onlarda keyfiyyətin nə qədər qoruduğunu bildirin.

1. ..........................................................................................

..........................................................................................

..........................................................................................

..........................................................................................

..........................................................................................

2. Sizin əsas işinizin dərs oxuyub savad əldə etmək olduğunu nəzərə alaraq, özünüzü dəyərləndirin. Görün bu işinizdə nə qədər məharətlisiniz?

## Daha çox bilək

Əmirəl-möminin Əlidən (ə) iki gözəl rübai nəql edilmişdir. Aşağıda onların tərcüməsini diqqətinizə çatdırırıq:

*Uca dağ başına qaya qaldırmaq,*
*Əzizdir kimsənin minnət yükündən.*
*Deyirlər: "İşinin zəhməti çoxdur,*
*Bolluca qazancın, malınsa yoxdur".*
*Deyirəm: "Az ruzi heç eyb deyil,*
*Zəlillik əl açıb dilənməkdədir.*
*İzzətlə, qürurla azad yaşamaq*
*Qul tək qan-tər ilə çalışmaqdadır,*
*Özgənin malından nəfsini çəkib*
*Saf, halal zəhmətə qatlaşmaqdadır.*
*Demə ki, filan iş mənə ar gəlir,*
*Əksinə, gədalıq zillət gətirir.*
*Ehtiyacsız olsan xəlqdən əgər sən,*
*Bir ömür İzzətlə həyat sürərsən".*

Əmirəl-möminin (ə) və digər məsum rəhbərlərə eşq olsun!
Onlar o peyğəmbərin yetirmələridirlər ki, əlində qabar olan
fəhləni gördükdə qabarından öpüb deyərdi:
"Bu, Cəhənnəm odunun toxunmayacağı əldir!"

## Düşünmə və araşdırma

1. Bu dərsin əsas mesajlarını qeyd edin.
2. İşləyən bir insanla işsiz adam arasında şəxsiyyət baxımından nə kimi fərq var?
3. Nə üçün İmam Sadiq (əleyhissəlam) onun əvəzinə işləməyi təklif edən şəxsə: "Öz ruzimi əldə etməkdən ötrü günün altında özüm işləmək istəyirəm" – deyə buyurmuşdur?

## Təklif

1. Dahi insanların həyatının əsas xüsusiyyətlərindən biri də onların işləyib zəhmət çəkməsidir. Əgər bu barədə hər hansı maraqlı bir əhvalat bilirsinizsə, sinifdə danışın.

2. Hər hansı bir zavod, fabrik və ya tarlaya ekskursiya edərək əməyin işçilərin ruhiyyəsinə təsiri barədə təqdimat hazırlayın.

# Doqquzuncu addım

.........

İlahi, Sənin verdiyin nemətlərə görə çalışıram ki:

1. Çalışqan və zəhmətkeş bir insan olub tənbəllikdən uzaq durum.
2. Öhdəmə düşən hər hansı işi layiqincə yerinə yetirib heç bir səhlənkarlığa yol verməyim.
3. İndi ki mənim əsas işim dərs oxuyub savad əldə etməkdir, çalışacağam ki, bütün diqqətimi dərslərimə yönəldib həm özüm, həm də cəmiyyət üçün faydalı bir insan olum.

**İlahi, Özün mənim yardımçım ol!**

## Təklif

Bu kitabda öyrəndiklərinizə əsasən, aşağıda verilənləri tamamlayın:

Birinci mərhələ (Düşüncə və qəlbdə hazırlıq):

1. İnsanı tanıma
   1. İnsanın istəklərinin sonsuz olması
   2. Allah – insanın həqiqi məhbubu
   ......................................
   ......................................
   ......................................
   ......................................
2. Allahı tanıma
   ......................................
   ......................................
   ......................................

İkinci mərhələ (Səfər niyyəti):

1. Qərar vermək
2. İradədə qətiyyətli olmaq

......................................
......................................
......................................
......................................

Üçüncü mərhələ (Yolda addımlamaq)

1. Allaha aid olan
   1. Allahı təsbih etmək
   ......................................
   ......................................
2. İnsanın özünə aid olan
   ......................................
   ......................................
   ......................................
3. Ailəyə aid olan
   ......................................
   ......................................
   ......................................
4. Cəmiyyətə aid olan
   ......................................
   ......................................
   ......................................
5. Yaradılışa aid olan
   ......................................
   ......................................
   ......................................

## “Din və həyat” kitabında tərcüməsi verilmiş ərəbcə sözlər cədvəli (Sözlər ərəb əlifbası ardıcıllığı əsasında verilmişdir.)

| | Dərs | Söz | Tərcüməsi | Dərs | Söz | Tərcüməsi | |
|---|---|---|---|---|---|---|---|
| الف | 2 | ءاتِنا | bizə ver, bizə bəxş et | 2 | بازِغًا، بازِغَةً | açıq, parlaq, doğan | |
| | 10 | أَبْصار | gözlər | 12 | بُنَيَّ | oğlum | |
| | 2 | أَخافُ | qorxuram | 1 | تِبيان | açıqlayan | ت |
| | 8 | اِخْتِلاف | get-gəl | 1 | (لِـ) تُبَيِّنَ | açıqlayasan, bəyan edəsən | |
| | 13 | أُدعوا | çağırın, səsləyin | 5 | تَجْرى | seyr edir, üzür | |
| | 2 | أَراك (أَرى+ ك) | səni görürəm | 10 | تُدرِكُ | dərk edir, görür | |
| | 12 | أُسوَةٌ | örnək, nümunə | 2 | تُشْرِكونَ | şərik qoşursunuz | |
| | 12 | أَصابَ | üz vermək, başına gəlmək | 9 | تَصْبِروا | səbir etsəniz | |
| | 9 | اِصْبِر | səbr et | 13 | تَضَرُّعًا | yalvara-yalvara | |
| | 13 | أُعْبُد | ibadət et | 7 | تُطيعوا | itaət etsəniz | |
| | 10 | أُعِدَّتْ | hazırlanmışdır | 6 | تَعالىٰ | uzaqdır, pakdır, yüksəkdə durur | |
| | 5 | أَعْناب | üzümlər, üzüm bağları, üzüm tənəkləri | 13 | تَفْقَهونَ | anlayırsınız, dərk edirsiniz | |
| | 2 | أَفَلَ | batdı, gözdən itdi | 5 | تَقدير | təqdir, əzəli hökm | |
| | 12 | أُنْثىٰ | qadın | 10 | تَواصَوا | bir-birinə tövsiyə etdilər | |
| | 9 | أَوْفىٰ | sadiq qalmaq, vəfa etmək | 16 | ثَمَرات | meyvələr | ث |
| | 1 | أُولُوا الْأَلْبابِ | ağıl sahibləri | 10 | حافِظ | nəzarətçi | ح |
| | 8 | أُولِى الْأَلْباب | ağıl sahibləri | 5 | حَبّ | toxum, dən | |
| ب | 6 | بارِئ | yoxdan var edən | 9 | حَسَنَة | yaxşı, gözəl | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 4 | حُسنىٰ | ən gözəl | 12 | كَريم | xoş, mülayim | |
| | 13 | حَليم | həlim, səbirli | 3 | كَفور | nankor | |
| خ | 10 | خُسر | ziyan | 1 | كَما | habelə, həmçinin | |
| | 13 | خُفْيَة | gizlində | 11 | لا تُظْلَمْ | haqsızlıq edilməz | ل |
| | 9 | خَليل | dost | 12 | لا تَقُلْ | demə | |
| ذ | 12 | ذَكَر | kişi | 14 | لَمْ اَتَّخِذ | seçməzdim | |
| ر | 4 | رِضوان | razılıq | 1 | مُبين | açıq-aydın | م |
| س | 10 | سارِعوا | tələsin | 5 | مُصَوِّر | (hər şeyə) surət verən | |
| | 3 | سَعىٰ | çalışdı, səy göstərdi | 13 | مُعْتَدين | həddini aşanlar | |
| ش | 16 | شَراب | içəcək, içilməli | 9 | مِلَّة | din, ayin | |
| | 6 | شَهادَة | aşkar | 5 | مَيْتَة | ölü | |
| ض | 11 | ضَلَّ | boşa getmişdir, puç olmuşdur | 5 | نَخيل | xurma ağacları | ن |
| ع | 3 | عاجِلَة | ötəri iş, dünya | 3 | نُريدُ | istəyirik | |
| | 10 | عَرْض | genişlik | 1 | نُزِّلَ | nazil olmuş | |
| | 5 | عُيون | bulaqlar | 11 | نُنَبِّئُ | xəbər veririk | |
| ف | 5 | فاطِر | Yaradan | 2 | هَدانِ (هَدانی) | məni doğru yola yönəltdi | هـ |
| | 5 | فَجَّرْنا | qaynatdıq | 5 | يَأكُلون | yeyirlər | ی |
| | 2 | فَطَرَ | yaratmaq, xəlq etmək | 7 | يُبَشِّرُ | müjdə verir | |
| ق | 12 | قَضىٰ | hökm etdi, əmr verdi | 1 | يَتَذَكَّر | ibrət götürsünlər | |
| ك | 12 | كانَ يَرجو | ümid bəsləyirsə | 11 | يَحْسَبون | zənn edirlər | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 1 | (لِـ) يَدَّبَّروا | düşünəsiniz deyə | 2 | (لِـ) يَكونَ | olsun |
| 9 | يُزَكّى | paklayar, təmizləyər | 9 | يَنظُرُ | baxar |
| 9 | يَشْتَرونَ | satırlar | 4 | يَنْفَدُ | tükənər |
| 6 | يُشْرِكونَ | (Allaha) şərik qoşurlar | 14 | يَنْهَوْنَ | çəkindirərlər, qadağan edərlər |
| 9 | يُكَلِّمُ | danışar | 9 | يُؤْتى | verəcək |

# İstifadə olunmuş ədəbiyyat

| Sıra | Kitabın adı | Müəllif | Nəşriyyat | Mövzu | Dərs | Müraciət edilən şəxs |
|---|---|---|---|---|---|---|
| 1 | Quran tilavətinin ədəb qaydaları | Mehdi Məşayixi | | Qurani-kərim | 1-ci dərs | Müəllim\şagird |
| 2 | Namazın ədəb qaydaları | | | Namaz | 13 və 14-cü dərs | Müəllim\şagird |
| 3 | Özünlə barışıq nəticəsində Allahla barışıq | Əsğər Tahirzadə | "Lubbul-mizan" nəşriyyatı | Özünü tanıma, Allahı tanıma | 2-ci dərs | Şagird |
| 4 | Quranla tanışlıq | Murtaza Mütəhhəri | "Sədra" nəşriyyatı | Qurani-kərim | 1-ci dərs | Müəllim\şagird |
| 5 | Din əhkamının təlimi | Məhəm-mədhüseyn Fəllahzadə | "Bizim dəlil" nəşriyyatı | Həyat proqramı | 12 və 17-ci dərs | Şagird |
| 6 | Bir gəncin bilməli olduqları | Rza Fərhadian | İslam Təbliğatı İdarəsinin nəşriyyat-poliqrafiya mərkəzi | Həyat proqramı | 12 və 17-ci dərs | Şagird |
| 7 | Bir yeniyetmənin həddi-büluğ barədə bilməli olduqları | Məhəmmədrza Şərəfi | "Tərbiyə carçısı"nəşriyyatı | Həyat proqramı | 12 və 17-ci və dərs | Şagird |
| 8 | Ağıl inkişaf etdirmə metodu | Səid Behişti | "Müasir elm və düşüncə" mədəni-maarif mərkəzi | Təfəkkür | Bütün dərslər | Müəllim |

| Sıra | Kitabın adı | Müəllif | Nəşriyyat | Mövzu | Dərs | Müraciət edilən şəxs |
|---|---|---|---|---|---|---|
| 9 | Ağıl işlətmə metodu | Hüseyn Mehdizadə | İmam Xomeyni adına tədqiqat mərkəzi | Təfəkkür | Bütün dərslər | Müəllim\şagird |
| 10 | Ailə qaydaları | Əbdürrəhim Mugəhi | İslam Təbliğatı İdarəsinin nəşriyyat-poliqrafiya mərkəzi | Ünsiyyət və dostluq | 15 və 16-cı dərs | Müəllim\şagird |
| 11 | Ünsiyyət əxalqı | Cavad Mühəddisi | Qum kitab evi | Ünsiyyət və dostluq | 15 və 16-cı dərs | Şagird |
| 12 | Dünyanın dəyəri | Həsənəli Əli Əkbərian | "Gənc düşüncəsi" nəşriyyatı | Həyatın məqsədi | 3 və 4-cü dərs | Şagird |
| 13 | Yoldan sirrədək | Seyyid Yəhya Yəsribi | "Maarif" nəşriyyatı | Özünü islah | 11-ci dərs | Şagird |
| 14 | Dözüm | Seyyid Rza Sədr | Qum kitab evi | İradədə qətiyyətli olmaq | 10-cu dərs | Şagird |
| 15 | Namazın sirləri | Mirzə Cavad Ağa Məliki Təbrizi | "Sevgi dini" nəşriyyatı | Namaz | 13 və 14-cü dərs | Müəllim\şagird |
| 16 | Namazın sirləri | Tərtibatçı: Əli Şirvani | "Darul-fikr" nəşriyyatı | Namaz | 13 və 14-cü dərs | Müəllim\şagird |
| 17 | Əsmaul-hüsna | Məhəmməd Şücai | "Suruş" nəşriyyatı | Allahı tanıma | 5 və 6-cı dərs | Müəllim\şagird |

| Sıra | Kitabın adı | Müəllif | Nəşriyyat | Mövzu | Dərs | Müraciət edilən şəxs |
|---|---|---|---|---|---|---|
| 18 | Kamillik üfüqləri | Məhəmməd-heydər Ələvi Nəjad | Qum kitab evi | Həyatın məqsədi | 2-ci dərs | Şagird |
| 19 | İmam namaz səngərində | | | Namaz | 13 və 14-cü dərs | Şagird |
| 20 | Kamil insan | Murtaza Mütəhhəri | “Sədra” nəşriyyatı | İnsan tanıma | 2-ci dərs | Müəllim |
| 21 | İnsan və iman | Murtaza Mütəhhəri | “Sədra” nəşriyyatı | İman | 7-8-ci dərs | Müəllim\şagird |
| 22 | İnsan və İlahi canişinlik | Məhəmməd Şücai | “Mədəni xidmətlər mərkəzi” | İnsan tanıma | 2-ci dərs | Müəllim\şagird |
| 23 | Məsuliyyətsizlik (Səbəblərinin tədqiqi və həlli yolları) | Murtaza Ağa Tehrani | İmam Xomeyni adına tədqiqat-araşdırma mərkəzi | İradədə qətiyyətli olmaq | 10-cu dərs | Müəllim\şagird |
| 24 | Ey əlamətsiz kamil! (Şeirlər toplusu) | Qurban Vəlii Seyyid Əkbər Cəfəri | “Üsvə” nəşriyyatı | Allahı tanıma | 5-6-cı dərs | Müəllim / şagird |
| 25 | Qaranquş demişkən | Qeysər Əminpur | “Üfüq” nəşriyyatı | Poeziya | 2-ci dərs | Şagird |
| | | | | | | |

| Sıra | Kitabın adı | Müəllif | Nəşriyyat | Mövzu | Dərs | Müraciət edilən şəxs |
|---|---|---|---|---|---|---|
| 26 | İyirmi kəlam | Murtaza Mütəhhəri | “Sədra” nəşriyyatı | Həyatın məqsədi | 3-4-cü dərs | Müəllim\şagird |
| 27 | Şagirdin sual-cavabı | Seyyid Müctəba Hüseyni | “Maarif” nəşriyyatı | Ünsiyyət və dostluq | 15-16-cı dərs | Şagird |
| 28 | Sonsuza qədər yüksəliş | | | Uğurlu örnəklər | 9-11-ci dərs | Şagird |
| 29 | Həya mədəniyyəti haqda tədqiqat | Abbas Pəsəndide | “Darul-hədis” nəşriyyatı | Ünsiyyət və dostluq | 15-16-cı dərs | Şagird |
| 30 | Peşmançılıq divarı arxasında | İbrahim İmanifər | “Keyhan” nəşriyyatı | Ünsiyyət və dostluq | 15-16-cı dərs | Şagird |
| 31 | Peyğəmbər (20 cild) | Misaq Əmirfəcr | | Həyat proqramı | 12-17-ci dərs | Şagird |
| 32 | Quranda düşünmə | Vəliyullah Nəqipurfər | “Üsvə” nəşriyyatı | Qurani-kərim | Bütün dərslər | Müəllim\Şagird |
| 33 | İslamda təlim-tərbiyə | Murtaza Mütəhhəri | “Sədra” nəşriyyatı | Həyat proqramı | 2-ci dərs | Müəllim |
| | | | | | | |

| Sıra | Kitabın adı | Müəllif | Nəşriyyat | Mövzu | Dərs | Müraciət edilən şəxs |
|---|---|---|---|---|---|---|
| 34 | İnsanın ictimai təkamülü (Həyatın məqsədi məqaləsi) | Murtaza Mütəhhəri | "Sədra" nəşriyyatı | Həyatın məqsədi | 2-ci dərs | Müəllim\şagird |
| 35 | Gənclər və irfani suallar | Məhəmmədrza Müttəqian | | Özünü islah | 11-ci dərs | Şagird |
| 36 | Gənc və həyatın böyük seçimi | Əsğər Tahirzadə | "Lubbul-mizan" nəşriyyatı | Həyatın məqsədi | 2-ci dərs | Şagird |
| 37 | Gənc və mobil telefon | Əmirəlmöminin Əli (əleyhissəlam) adına elmi-dini tədqiqat mərkəzi | "Şəhabəddin" nəşriyyatı | Həyat proqramı | 12-17-ci dərs | Şagird |
| 38 | Gənc və din | Rəcəbəli Məzlumi | "Afaq" nəşriyyatı | Həyatın məqsədi | 3-4-cü dərs | Müəllim\şagird |
| 39 | Kapitalist ölkələrdə yoxsulluq və zənginlik səviyyəsi | Nasir Cəhanian | "Gənc düşüncəsi" nəşriyyatı | İşgüzarlıq | 16-cı dərs | Müəllim\şagird |
| 40 | Bütün fəsillərə aid kəlamlar | | "Suruş" nəşriyyatı | Qurani-kərim | 1-ci dərs | Müəllim\şagird |
| 41 | İbadətlərin hikməti | Abdullah Cavadi Amuli | "İsra" nəşriyyatı | Namaz | 13-14-cü dərs | Müəllim |
| 42 | İnsanın Quranda həqiqi həyatı (15-ci cild) | Abdullah Cavadi Amuli | "İsra" nəşriyyatı | İnsanı tanıma | 3-4-cü dərs | Müəllim |

| Sıra | Kitabın adı | Müəllif | Nəşriyyat | Mövzu | Dərs | Müraciət edilən şəxs |
|---|---|---|---|---|---|---|
| 43 | Əhməd Əhmədin xatirələri | Möhsün Kazimi | “Mehr” nəşriyyatı | İradədə qətiyyətli olmaq | 10-cu dərs | Şagird |
| 44 | İzzət Şahinin (Mütəhhərinin) xatirələri | Möhsün Kazimi | “Mehr” nəşriyyatı | İradədə qətiyyətli olmaq | 10-cu dərs | Şagird |
| 45 | Mərziyə Hədidçinin (Dəbbağın) xatirələri | Möhsün Kazimi | “Mehr” nəşriyyatı | İradədə qətiyyətli olmaq | 10-cu dərs | Şagird |
| 46 | İncə torpaqıar | Səid Akif | “Mülki-əzəm” nəşriyyatı | Uğurlu örnəklər | 9-11-ci dərs | Şagird |
| 47 | Allah (dini sual-cavab, 1-ci cild) | Hüseyn Suzənçi | “Məktəb” nəşriyyatı | Allahı tanıma | 5-6-cıdərs | Müəllim\şagird |
| 48 | Allah və mənim yaradılışım, nə üçün? | Möhsün Abbasi | “Məna təmayüllü” tədqiqat mərkəzi | Həyatın məqsədi | 2 və 4-cü dərs | Şagird |
| 49 | Özünü islah üçün özünütanıma | Məhəmmədtəqi Misbah Yəzdi | | Özünü islah | 2-ci dərs | Müəllim |
| 50 | Özünü saflaşdırma ilə birgə özünü islah | İbrahim Əmini | “Şəfəq” nəşriyyatı | Özünü islah | 11-ci dərs | Müəllim\şagird |
| 51 | Nəhcül-bəlağədə dünyanıtanıma və dünyaya meyl | Abdullah CavadiAmuli | “İsra” nəşriyyatı | Həyatın məqsədi | 3-4-cü dərs | Müəllim |

| Sıra | Kitabın adı | Müəllif | Nəşriyyat | Mövzu | Dərs | Müraciət edilən şəxs |
|---|---|---|---|---|---|---|
| 52 | Yeniyetmələr dünyası | Məhəmmədrza Şərəfi | "Tərbiyə carçısı" mədəniyyət mərkəzi | Həyat proqramı | 12 və 17-ci dərs | Müəllim\şagird |
| 53 | Dost əgər belədirsə | Raziyə Məhəmmədzadə | "Munir" nəşriyyatı | Dostluq | 15-16-cı dərs | Şagird |
| 54 | Nəfsi tanıma haqqında on məqam | Əsğər Tahirzadə | "Lubbul-mizan" nəşriyyatı | Özünü islah | 2-ci dərs | Şagird |
| 55 | Ağıl sahiblərinin seyri-sülukunda ağılların ağılı traktatı | Seyyid Məhəmmədhüseyn Hüseyni Tehrani | "Hikmət" nəşriyyatı | Özünü islah | 11-ci dərs | Müəllim |
| 56 | Liqaullah traktatı | Mirzə Cavad Ağa Məliki Təbrizi | "Ali-Əli" nəşriyyatı | Allahı tanıma | 5-6-cı dərs | Müəllim |
| 57 | Qaranlıqda qiyamət | Süsən Səfarudi | "Büheynə" nəşriyyatı | Uğurlu örnəklər | 9-cu dərs | Şagird |
| 58 | Həyatdan razılıq | Abbas Pəsəndidə | "Darul-hədis" nəşriyyatı | Həyat proqramı | 2 və 4-cü dərs | Şagird |
| 59 | Ustad Mütəhhərinin uğur sirri | Əli Baqi Nəsrabadi\ Həmid Neqareş | "İmami-əsr" nəşriyyatı | Uğurlu örnəklər | 9-cu dərs | Şagird |
| 60 | Dahilərin uğur sirri | Rza Baqizadə Gilani | "Pəyami-Höccət" nəşriyyatı | Uğurlu örnəklər | 9-cu dərs | Şagird |

| Sıra | Kitabın adı | Müəllif | Nəşriyyat | Mövzu | Dərs | Müraciət edilən şəxs |
|---|---|---|---|---|---|---|
| 61 | Əllamə Təbatəbainin uğur sirri | Həmid Neqareş\ Əli Baqi Nəsrabadi | "İmami-əsr" nəşriyyatı | Uğurlu örnəklər | 9-cu dərs | Şagird |
| 62 | Yeniyetmələr psixologiyası | İsmayıl Biyabangərd | | Həyat proqramı | 15-16-cı dərs | Müəllim |
| 63 | Qurandan çıxarış metodu | Əli Səfayi Hairi | "Leylətül-qədr" nəşriyyatı | Qurani-kərim | Bütün dərslər | Müəllim\şagird |
| 64 | Dost tapmağın yolu | Məhəmməd Heydəri | İslami tədqiqatlar fondu | Ünsiyyət və dostluq | 15-16-cı dərs | Şagird |
| 65 | Tanrının ay üzündən öp | Mustafa Məstur | "Mərkəz" nəşriyyatı | Allahı tanıma | 5-6-cı dərs | Şagird |
| 66 | Santa Mariya | Seyyid Mehdi Şücai | "Yoxlar kitabı" nəşriyyatı | Ünsiyyət və dostluq | 15-16-cı dərs | Şagird |
| 67 | İnsanın fitrəti (Fitri Allahıtanıma barədə araşdırma) | Əli Şirvani | | İnsanı tanıma | 2-ci dərs | Müəllim |
| 68 | 270 dərəcəyə doğru səfər | Əhməd Dehqan | "Mehr" nəşriyyatı | Uğurlu örnəklər | 9 və 11-ci dərs | Şagird |
| 69 | Gözəllik səyahəti (Həzrət Peyğəmbərin (səlləllahu əleyhi və alih) həyatına baxış) | Məhəmmədcavad Hacı Əliəkbəri | "İslam maarifi" nəşriyyatı | Həyat proqramı | 12 və 17-ci dərs | Şagird |

| Sıra | Kitabın adı | Müəllif | Nəşriyyat | Mövzu | Dərs | Müraciət edilən şəxs |
|---|---|---|---|---|---|---|
| 70 | İmam Əlinin (əleyhissəlam) iqtisadi davranışı | Seyyid Rza Hüseyni | “Gənc düşüncəsi” mərkəzi | İşgüzarlıq | 16-cı dərs | Müəllim\şagird |
| 71 | Peyğəmbər həyatına bir baxış | Murtaza Mütəhhəri | “Sədra” nəşriyyatı | Həyat proqramı | 12 və 17-ci dərs | Müəllim\şagird |
| 72 | Ağıl və nadanlığın əsgərləri hədisinin şərhi | | | İnsanıtanıma | Bütün dərslər | Müəllim |
| 72 | Zühur | Əli Müəzzini | “İslam maarifi” nəşriyyatı | Uğurlu örnəklər | 9 və 11-ci dərs | Şagird |
| 73 | Fitrət | Murtaza Mütəhhəri | “Sədra” nəşriyyatı | İnsanı tanıma | 2-ci dərs | Müəllim |
| 74 | Quranda fitrət (Quranın mövzu üzrə təfsiri, 12-ci cild) | Abdullah Cavadi Amuli | “İsra” nəşriyyatı | İnsanı tanıma | 2-ci dərs | Müəllim |
| 75 | Fitrət və din | Əli Rəbbani Gülpayqani | “Müasir elm və düşüncə” mədəni-maarif mərkəzi | İnsanı tanıma | 2-ci dərs | Müəllim |
| 76 | İş və istehsal | Həsən Nəzəri | “Gənc düşüncəsi” nəşriyyatı | İşgüzarlıq | 16-cı dərs | Şagird |
| 77 | İş və din | Məcid Rzayi | “Gənc düşüncəsi” nəşriyyatı | İşgüzarlıq | 16-cı dərs | Şagird |

| Sıra | Kitabın adı | Müəllif | Nəşriyyat | Mövzu | Dərs | Müraciət edilən şəxs |
|---|---|---|---|---|---|---|
| 78 | Paklıq sahilləri (Özünü islah) | Kərim Xətibi | "Gənc düşüncəsi" nəşriyyatı | Özünü islah | 11-ci dərs | Şagird |
| 79 | İnsan varlığındakı potensial | Məhəmməd Şücai | "Müasir elm və düşüncə" mədəni-maarif mərkəzi | Həyatın məqsədi | 2-ci dərs | Müəllim\şagird |
| 80 | Təqvalıların dini | Müctəba Tehrani | İslam düşüncəsi və maarifi tədqiqat mərkəzi | İman | 7-8-ci dərs | Müəllim |
| 81 | Vaxtın cövhəri | Seyyid Həsən Mətləbi | Beynəlxalq çap və poliqrafiya şirkəti | Həyat proqramı | 12 və 17-ci dərs | Şagird |
| 82 | Dünyanın mahiyyəti | Əbdülhüseyn Cəlali | "Əmir Kəbir" nəşriyyatı | Həyatın məqsədi | 3-4-cü dərs | Müəllim |
| | | | | | | |
| 83 | "Çılçıraq" toplusu | Müəlliflər qrupu | Məktəb" nəşriyyatı" | Uğurlu örnəklər | 9-cu dərs | Şagird |
| 84 | "Parlaq simalar" toplusu | Müəlliflər qrupu | "Məktəb" nəşroiyyatı | Uğurlu örnəklər | 9-cu dərs | Şagird |
| 85 | "Ayın gizli yarısı" toplusu | Müəlliflər qrupu | "Fəth" nəşriyyatı | Uğurlu örnəklər | 9-cu dərs | Şagird |

| Sıra | Kitabın adı | Müəllif | Nəşriyyat | Mövzu | Dərs | Müraciət edilən şəxs |
|---|---|---|---|---|---|---|
| 86 | Məqalələr (3 cilddə) | Məhəmməd Şücai | "Suruş" nəşriyyatı | Özünü islah | 11-ci dərs | Müəllim |
| 87 | Təsnim təfsirinin müqəddiməsi (1-ci cild) | Abdullah Cavadi Amuli | "İsra" nəşriyyatı | Qurani-kərim | 1-ci dərs | Müəllim |
| 88 | Münacat | Seyyid Mehdi Şücai | "Yoxlar kitabı" nəşriyyatı | Allahı tanıma | 5-6-cı dərs | Şagird |
| 89 | Din mərifəti həndəsəsində ağlın mövqeyi | Abdullah Cavadi Amuli | "İsra" nəşriyyatı | İnsanı tanıma | Bütün dərslər | Müəllim |
| 90 | Mən yeniyetməyəm | Əliəsğər Əhmədi | "Mehdi Rzayi" nəşriyyatı | Həyat proqramı | 12 və 17-ci dərs | Müəllim |
| 91 | Həyat bacarıqları | Hüseyn Xənifər\Mojde Purhüseyni | "Hacir" nəşriyyatı | Həyat proqramı | 12 və 17-ci dərs | Şagird |
| 92 | Həyat bacarıqları din çərçivəsində | Fəriba Əlasevənd | "Suruş" nəşriyyatı | Həyat proqramı | 12 və 17-ci dərs | Şagird |
| 93 | Sevgi və qəzəb | Məhəmmədrza Sübhaniniya\ Səidrza Əliəskəri | "Şəhid Müdərris" adına mədəniyyət mərkəzi | Dostluq | 15-16-cı dərs | Müəllim\şagird |
| 94 | Xət-xət məktublar | İrfan Nəzərahari | "Sabirin" nəşriyyatı | Allahı tanıma | 5-6-cı dərs | Şagird |

| Sıra | Kitabın adı | Müəllif | Nəşriyyat | Mövzu | Dərs | Müraciət edilən şəxs |
|---|---|---|---|---|---|---|
| 95 | İrfani məktublar | Əli Məhəmmədi | "Maarif" nəşriyyatı | Özünü islah | 11-ci dərs | Şagird |
| 96 | Fəhimənin məktubları | Fəhimə Babaianpur\ Əlirza Kəməri | "Mehr" nəşriyyatı | Uğurlu örnəklər | 9 və 11-ci dərs | Şagird |
| 97 | Quran və hədis işığında iman nəzəriyyəsi | Möhsün Cavadi | Vəliyyi-fəqihin universitetlərdəki nümayəndəliyi | İman | 7-8-ci dərs | Müəllim |
| 98 | Nizam-intizam | | Qum kitab evi | Həyat proqramı | 12 və 17-ci dərs | Şagird |
| 99 | Son nöqtə | Möhsün Abbasi | "Kitab evi" nəşriyyatı | Həyatın məqsədi | 2-4-cü dərs | Şagird |
| 100 | Peyğəmbərin (səlləllahuəleyhi və alih) simasına təkrar baxış | Rza Rəcəbzadə | "Xoşbəxt" nəşriyyatı | Həyat proqramı | 12 və 17-ci dərs | Müəllim\şagird |
| 101 | Mənəvi həyata Quran baxışı | Əsədullah Cəmşidi | "Gənc düşüncəsi" nəşriyyatı | Həyatın məqsədi | 3-4-cü dərs | Şagird |
| 102 | Dost və düşmənə Quran baxışı | Məhəmmədrza Kaşifi | "Gənc düşüncəsi" nəşriyyatı | Ünsiyyət və dostluq | 15-16-cı dərs | Şagird |
| 103 | Psixoloji təzyiqə Quran baxışı | İshaq Hüseyni Kuhsari | "Gənc düşüncəsi" nəşriyyatı | Həyat proqramı | 3-4-cü dərs | Şagird |

| Sıra | Kitabın adı | Müəllif | Nəşriyyat | Mövzu | Dərs | Müraciət edilən şəxs |
|---|---|---|---|---|---|---|
| 104 | Nə mavi, nə xaki | Əli Müəzzini | “Mehr” nəşriyyatı | Uğurlu örnəklər | 9 və 11-ci dərs | Şagird |
| 105 | Quranda hidayət (Quranın mövzu üzrə təfsiri, 16-cı cild) | Abdullah Cavadi Amuli | “İsra” nəşriyyatı | Allahı tanıma | 5-6-cı dərs | Müəllim |
| 106 | Yaradılışın məqsədi | Seyyid Əbülhəsən Məhdəvi | “Mühibban” nəşriyyatı | Həyatın məqsədi | 2-ci dərs | Şagird |
| 107 | Məsihin hədiyyəsi (Eduardo Aniyellinin həyatına bir baxış) | Mustafa Qəffari Sarəvi | “İslam inqilabı sənədləri Arxivi” idarəsi | İradədə qətiyyətli olmaq | 10-cu dərs | Şagird |
| 108 | Bu yaxınlıqda olan Allah (Dünənki və bugünkü münacatlara bir baxış) | Əli Dəjakam\ Məhəmməd Qələvənd | “Maarif” nəşriyyatı | Allahı tanıma | 5-6-cı dərs | Şagird |
| 109 | Yeni çıxmış irfanların tənqidi nəzəriyyəsi | Həmidrza Məzahiriseyf | “İslam elmləri və mədəniyyətinin tədqiqi” idarəsinin poliqrafiya mərkəzi | Yol getmə qaydası | 12-ci dərs | Müəllim |
| 110 | Günəş və kölgə (yeni çıxmış mənəvi cərəyanlara bir baxış) | Məhəmmədtəqi Fəali | “Nəcmül-hüda” nəşriyyatə | Yol getmə qaydası | 12-ci dərs | Müəllim |

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
DK-430/B saylı, 21 iyul 2020-ci il tarixli məktubu ilə
çap olunmasına razılıq verilmişdir.

Çapa imzalanmışdır: 21.09.2020. Formati 60x84 1/8.
Sifariş No 48. Tiraj 500

"Zərdabi Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: (012) 514 73 73, (050; 055; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru